RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 16 (9761) 25 yanvar 2025-ci il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Dünya Azərbaycanın iqtisadi imkanlarına şahidlik edir

### Davos Forumu bu baxımdan mühüm qlobal platformadır




Sayca 55-ci olan Dünya İqtisadi Forumunda bir çox dövlət və hökumət başçısı, nüfuzlu beynəlxalq təşkilatların və şirkətlərin rəhbərləri iştirak edirlər. Forumun proqramı dünyanın ən aktual problemlərinin həlli üçün dövlət və özəl sektoru tərəfdaşlığa, dünya liderlərini enerji, iqlim və ticarət sahələrində birgə işləməyə çağırır. Qlobal problemlərin müzakirə olunduğu və dünyanın iqtisadi həyatında önəmli qərarların verildiyi Dünya İqtisadi Forumuna Prezident İlham Əliyevin növbəti dəfə dəvət olunması dövlətimizin başçısının beynəlxalq aləmdəki yüksək nüfuzunun daha bir göstəricisidir.

Bu tədbir dünyanın iqtisadi mənzərəsinin formalaşdırılmasında önəmli rol oynayır. Burada təqdim edilən müasir texnologiyalar, irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir. Davos Forumu, eyni zamanda iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır.

→ 4

## Möhtəşəm 30 il

Konstitusiyanın preambulasında başlıca niyyət kimi qeyd edilmiş - Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması niyyətinin son illərdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin Liderliyi, ordumuzun gücü ilə tam reallaşdırılması isə Əsas Qanunumuzun 30 yaşına ən qiymətli tarixi töhfəsidir.

Bu başlıca niyyət 1995-ci ildə Konstitusiya layihəsi hazırlanarkən sənədin preambulasında xüsusi ifadə edilsə də, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Azərbaycan Respublikası Konstitusiyanın qəbulundan ötən illər ərzində Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi dövlət rəhbərimizin müvafiq sərəncamında da qeyd edildiyi kimi, Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

→ 5

# Milli maraq, beynəlxalq nüfuz, işgüzar əməkdaşlıq

## Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin əsas istiqamətləridir



Yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında və Zayed Dayanıqlılıq Mükafatının təqdimatı mərasimində bir çox dövlət və hökumət başçısı ilə bərabər Azərbaycan Prezidenti İlham Əliyev də iştirak etdi.

Qeyd edək ki, Əbu-Dabi Dayanıqlılıq Həftəsi 2008-ci ildə təsis olunub və ötən illər ərzində bu format dayanıqlı qlobal inkişaf baxımından önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya prinsiplərini əsas istiqamətlər kimi müəyyənləşdirən Dayanıqlılıq Həftəsi dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir. Budəfəki Dayanıqlılıq Həftəsində 13 dövlət və hökumət başçısı, eləcə də 140-dan çox nazir və digər rəsmi şəxslər iştirak etmişlər.

Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövlətinin belə platformalarda ən yüksək səviyyədə təmsil olunmasının əhəmiyyəti bir neçə əsas sahədə özünü göstərir. Bu cür platformalar ilk növbədə diplomatik münasibətlərin gücləndirilməsi baxımından önəmlidir. Ümumiyyətlə, cənab İlham Əliyevin beynəlxalq tədbirlərdə iştirakı həm ölkəmizin dünya arenasında nüfuzuna, daha yaxından tanınmasına, mövqeyinin mötəbərliyinə xidmət edir, həm də Azərbaycanın diplomatik strategiyalarının və münasibətlərinin güclənməsinə kömək göstərir.

Belə platformaların iqtisadi əməkdaşlığın inkişafına da böyük töhfələri var. Bu baxımdan Əbu-Dabi Dayanıqlılıq Həftəsi kimi beynəlxalq tədbirlər ölkələr arasında iqtisadi əməkdaşlığı gücləndirmək, yeni investisiya imkanlarını araşdırmaq və layihələri təqdim etmək üçün əlverişli zəmin yaradır. Azərbaycan Prezidentinin belə tədbirlərdə iştirakı isə bu sahədə potensial tərəfdarları ölkəmizə cəlb edir.

Əbu-Dabi Dayanıqlılıq Həftəsi kimi platformaların regionun sülh və davamlı inkişaf mühitinin dəstəklənməsi baxımından əhəmiyyəti böyükdür. Prezidentin bu cür tədbirlərdə iştirakı təkcə Azərbaycanın deyil, ümumilikdə yerləşdiyimiz regionun sülh və davamlı inkişaf perspektivlərinə verilən dəstəyin və niyyətin ifadəsidir. Çünki dövlətimizin başçısı Azərbaycanla yanaşı, ümumilikdə regional sabitliyin, sülhün, əməkdaşlıq və inkişaf mühitinin təmin olunmasına çalışır.

Bu günlər Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana səfəri rəsmi Tbilisinin Bakı ilə əlaqələrinə verdiyi diqqət və əhəmiyyətin ifadəsidir. Prezident İlham Əliyev bəyanatında dövlətlərimiz arasında olan mehriban qonşuluq və işgüzar münasibətlərdə xalqlarımızın rolunu belə qeyd etdi: "Bizim xalqlarımız əsrlər boyu dostluq, mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar. Bu ənənələr bu gün də yaşayır. Bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər".

Bu gün ölkələrimiz arasında regionda və dünyada baş verən proseslərə, siyasi münasibətlərə, iqtisadi iş birliyinə və cəmiyyətlərimizin önəm verdikləri tarixi irsə, milli dəyərlərə, adət-ənənələrə birgə baxışımızı əks etdirən zəngin gündəm mövcuddur. Modern Azərbaycan və Gürcüstanı bir-birinə sıx bağlayan hərtərəfli əməkdaşlığın əsası Ulu Öndər Heydər Əliyevlə sabiq Prezident Eduard Şevardnadze tərəfindən qoyulub. Hazırda həm ölkələrimizin, həm də regionumuzun dayanıqlı inkişafı və gələcək çiçəklənməsi perspektivləri bu bünövrə üzərində bərqərar olub. Təqdirəlayiq haldır ki, sonrakı illərdə dövlətlərimiz bu strateji kursa sadiqliklərini nümayiş etdirərək bölgənin firavan gələcəyinə dair birgə səylərin sabitliyini təmin etməyə nail olublar.

→ 4

## AYİB Azərbaycanla əməkdaşlığa sadiqdir

### Davosda bankla daha bir layihə üzrə saziş imzalandı

Təkcə 2022-ci ildə Azərbaycanda 9 layihəyə 86 milyon avro sərmayə yatırması bu maliyyə qurumunun ölkəmizin inkişafına əhəmiyyətli töhfələrinə aid misallardan biridir. 2022-ci ildən söz düşmüşkən xatırladaq ki, həmin ilin yayında Gəncə şəhərinin Azərbaycanda ilk pilot şəhər olaraq AYİB-in "Yaşıl Şəhərlər Proqramı"na qoşulmasını da xatırladaq. Seçilmiş şəhər üçün "Yaşıl Şəhər Fəaliyyət Planı"nın əsas məqsədi "yaşıl gələcəy"ə keçidi dəstəkləmək üçün investisiya qoyuluşu və digər tədbirlər vasitəsilə Gəncənin ekoloji məsələlərinin həllinə kömək göstərilməsidir. Bu il yanvarın 22-də Prezident İlham Əliyevin Davosda qarşı tərəfin müraciəti əsasında AYİB-in prezidenti Odile Reno-Basso ilə görüşündə də Gəncəyə aid layihə diqqət mərkəzində olub.

→ 10

## Azərbaycan Fransanın neokolonial siyasətini ifşa edir

Hazırda Bakıdan başlayan beynəlxalq təşəbbüs, daha dəqiq desək, neokolonializmə qarşı "Bakı Təşəbbüsü" öz bəhrəsini verməkdədir. Yanvarın 21-də Azərbaycan növbəti dəfə mötəbər beynəlxalq tədbirə sahiblik etdi. Bakıda Fransanın müstəmləkəçiliyi altında olan Reyunyon adasına həsr edilmiş "Reyunyonun müstəqilliyi: Fransanın müstəmləkə mirasına və suverenlik yoluna baxış" mövzusunda beynəlxalq konfrans keçirildi. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən tədbirdə müstəqillik uğrunda mübarizə aparan Reyunyon xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak etdilər. Qeyd edək ki, Reyunyon adası 1500-cü illərin əvvəllərində portuqaliyalı səyyahlar tərəfindən kəşf edilib. Ada 1642-ci ildə XIV Lüdovikin dövründə fransızlar tərəfindən ələ keçirilib və Burbon adası adlandırılıb. Üç il sonra isə burada ilk daimi koloniya qurulub.

→ 7

## Avropa İttifaqının növbəti məkrli oyunu

### "Binokl diplomatiyası"nı hərbiləşdirmək niyyəti Ermənistana baha başa gələ bilər

İkinci Qarabağ müharibəsindən sonra bölgədə tələb olunan sülh, sabitlik və əməkdaşlıq mühitinin yaradılmasıdır. Fransa başda olmaqla bir çox Aİ ölkələri isə açıq-aydın buna qarşı çıxırlar. 2023-cü ilin fevralında Aİ müşahidəçiləri Ermənistana yerləşəndə dedilər ki, bu, İrəvanla Bakı arasında münasibətlərin normallaşmasına töhfə vermək üçündür. Lakin sonradan göründü ki, Aİ-nin niyyəti tam başqadır.

Müxtəlif yollarla Ermənistanı silahlandıran Qərb təsisatları bölgədə yeni münaqişə ocağının yaranması üçün hər vasitəyə əl atırlar. Eyni zamanda bununla da Azərbaycanı qıcıqlandırmaq istəyirlər.

Əslində, hər şey Azərbaycana yaxşı məlumdur. Ermənistanın silahlandırılması prosesi Avropa Sülh Fondu vasitəsilə Avropanın hərbi iştirakının artırılması ilə müşayiət olunur.

→ 7

# Baş nazir Əli Əsədov Belarusun Azərbaycandakı səfiri ilə görüşüb



**Yanvarın 24-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdəki fəaliyyət müddətinin bitməsi ilə əlaqədar Belarus Respublikasının fövqəladə və səlahiyyətli səfiri Andrey Ravkov ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əsədov Azərbaycan ilə Belarus arasında dostluq əlaqələrinin inkişafına verdiyi töhfəyə görə səfirə təşəkkürünü bildirib.

Görüşdə iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olunub, müxtəlif sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi perspektivləri müzakirə edilib.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 aprel tarixli 60 nömrəli Qərarı ilə təsdiq edilmiş “Yol hərəkəti haqqında” Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən daxil olan vəsaitin təyinatı üzrə istifadə olunması Qaydası”nda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 14** **Bakı şəhəri, 23 yanvar 2025-ci il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 19 aprel tarixli 2109 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 avqust tarixli 181 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 6 aprel tarixli 60 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 4, maddə 267, (Cild I) ilə təsdiq edilmiş "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarının pozulmasına görə fiziki və hüquqi şəxslər tərəfindən ödənilən cərimələrdən daxil olan vəsaitin təyinatı üzrə istifadə olunması Qaydası"nın 2.1.2-ci yarımbəndi aşağıdakı redaksiyada verilsin:

"2.1.2. yol hərəkətinin nizama salınmasında istifadə olunan svetoforlarla bağlı xərclərin ödənilməsinə;".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın və Türkiyənin parlamentləri arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb

**Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 24-də Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçını Azərbaycandakı diplomatik fəaliyyətinin başa çatması münasibətilə qəbul edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, qəbulda qardaş ölkələrimiz və parlamentlərimiz arasında münasibətlərə dair fikir mübadiləsi aparılıb.

Sahibə Qafarova Boluda baş verən faciəvi yanğınla bağlı qardaş Türkiyə xalqına bir daha başsağlığı verib, bu faciə ilə əlaqədar Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşa da başsağlığı məktubu ünvanladığını, Azərbaycanın hər zaman qardaş Türkiyənin yanında olduğunu bildirib.

Söhbət zamanı C.Bağçının ölkəmizdə diplomatik fəaliyyəti dövründə qardaş ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsi istiqamətində səmərəli fəaliyyət göstərdiyi qeyd edilib.

Görüşdə Ümummilli Lider Heydər Əliyevin ifadə etdiyi kimi, "Bir millət, iki dövlət" şüarına söykənən Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin iki ölkənin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə daha da inkişaf etdiyi, bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan başqa ölkələr olmadığı vurğulanıb. Ölkələrimiz arasında müttəfiqliyin rəsmi ifadəsi olan Şuşa Bəyannaməsi ilə əlaqələrimizin yeni mərhələyə qədəm qoyduğu diqqətə çatdırılıb. Əlaqələrimizin daha da genişlənməsi və dərinləşməsi istiqamətində parlamentlərimizin də rolu qeyd edilib. Qanunverici orqanlarımızın və deputatlarımızın bütün platformalarda bir-birini dəstəklədiyi, beynəlxalq təşkilatlarda ortaq mövqedən çıxış etdikləri ifadə olunub.

Cahit Bağçı göstərilən diqqətə və dəstəyə görə minnətdarlığını ifadə edərək, bundan sonra da Azərbaycan-Türkiyə qardaşlığı və müttəfiqliyi üçün əlindən gələn töhfəni verməyə hazır olduğunu bildirib.

*"Azərbaycan"*

# Azərbaycanla Belarus arasında münasibətlər dostluq prinsiplərinə söykənir

**Milli Məclisin Sədri Sahibə Qafarova yanvarın 24-də Belarus Respublikasının ölkəmizdəki səfiri Andrey Ravkovu Azərbaycanda diplomatik fəaliyyətini başa vurması münasibətilə qəbul edib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, görüşdə Andrey Ravkovun səfir kimi ölkələrimiz arasında əlaqələrin daha da genişləndirilməsi istiqamətində səmərəli fəaliyyəti qeyd olunub.

Söhbət zamanı Azərbaycan və Belarus arasında münasibətlərin bütün sahələri əhatə etməklə, dostluq prinsiplərinə söykəndiyi ifadə olunub, bu əlaqələrin inkişafında iki ölkənin dövlət başçıları arasında yüksəksəviyyəli münasibətlərin mühüm rolu vurğulanıb. Ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin və geniş siyasi təmasların münasibətlərin inkişafına töhfələr verdiyi bildirilib. O cümlədən ölkələrimizin beynəlxalq təşkilatlarda səmərəli fəaliyyəti qeyd olunub.

Görüşdə parlamentlərimiz arasında münasibətlərin ölkələrimiz arasında əməkdaşlığın mühüm bir istiqamətini təşkil etdiyi, qanunverici orqanlarımızın həm ikitərəfli əsasda, həm də beynəlxalq parlament təşkilatlarında uğurla əməkdaşlıq etdiyi qeyd olunub.

Səfir Andrey Ravkov diqqətə və Azərbaycanda fəaliyyət göstərdiyi müddətdə dəstəyə görə təşəkkür edərək ölkələrimiz arasında münasibətlərin bundan sonra da inkişaf edəcəyinə inamını bildirib.

*"Azərbaycan"*

# Azərbaycan milli mətbuatının 150 illiyi ilə bağlı yubiley medalı təsis ediləcək

**Yanvarın 24-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin cari ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Əli Hüseynli yeni sessiyadakı fəaliyyətlərində komitə üzvlərinə müvəffəqiyyətlər arzulayıb.**



Əli Hüseynli Prezident İlham Əliyev tərəfindən Azərbaycanda 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edildiyini vurğulayıb. O bu ilin eyni zamanda bir sıra əlamətdar hadisələrə - Konstitusiyanın qəbulunun 30 illiyinə, Vətən müharibəsində Qələbənin 5 illiyinə təsadüf etdiyini bildirib. O, komitə üzvlərinin yubiley tədbirlərində yaxından iştirak edəcəklərini, Azərbaycan dövlətçiliyinin inkişafı, müstəqilliyimizin və suverenliyimizin daha da möhkəmləndirilməsi ilə bağlı ictimai-siyasi həyatda fəal olacaqlarını qeyd edib.

Sonra komitə sədri iclasın gündəliyində 14 məsələnin, o cümlədən payız sessiyasının hesabatının, yaz sessiyasının iş planının və bəzi qanun layihələrinin olduğunu söyləyib.

Əli Hüseynli 2024-cü ilin payız sessiyası dövründə rəhbərlik etdiyi komitədə görülən işlər barədə hesabata dair məlumatında qeyd edib ki, bu müddətdə komitənin 19 iclası keçirilib, 83 məsələyə baxılıb.

Sonra komitə sədri 2025-ci ilin yaz sessiyası üçün komitənin iş planına daxil edilən məsələlər barədə danışıb. Qeyd edilib ki, bu sessiyada qanunvericilik təşəbbüsü qaydasında təqdim ediləcək qanun layihələrinə, o cümlədən qanunlara dəyişiklik edilməsi haqqında qanunvericilik aktlarına baxılacaq.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, 2025-ci ilin yaz sessiyası üçün iş planı təsdiq edilib.

Sonra iclasda gündəlikdəki qanun layihələri təqdim edilib. İlk olaraq "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə konstitusiya qanununun layihəsi (ikinci oxunuş) təqdim olunub. Bildirilib ki, dəyişiklikdə "qanunsuz miqrantların saxlanılması" sözlərinin "müvafiq icra hakimiyyəti orqanının müvəqqəti yerləşdirmə" sözləri ilə əvəz edilməsi təklif olunur.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə bildirilib ki, layihə "Dövlət satınalmaları haqqında" yeni qanunun icrası məqsədilə hazırlanıb. Layihədə həm cinayət, həm də inzibati məsuliyyətə səbəb olan dövlət satınalmaları haqqında qanunvericiliyin pozulması halları yeni qanunun tələblərinə uyğun olaraq müəyyən edilir. Dəyişikliyə əsasən, dövlət satınalmaları haqqında qanunvericiliyin pozulmasına görə cinayət məsuliyyəti Cinayət Məcəlləsinin 308.2.1-ci - 308.2.3-cü maddələrində nəzərdə tutulan əməllər nəticəsində xeyli miqdarda zərər vurulduqda yaranır. İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliyə əsasən isə dövlət satınalmaları haqqında qanunvericiliyin pozulmasına görə inzibati tənbeh, bu pozuntu halları Cinayət Məcəlləsinin müvafiq maddələrinə əsasən cinayət məsuliyyətinə səbəb olmadıqda tətbiq edilir. Layihədə inzibati məsuliyyətə cəlbetmə müddətinin artırılması da təklif edilir.

Komitə üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar diqqətə çatdırıb ki, layihə hərbi uçot, hərbi qeydiyyat və səfərbərlik qaydaları əleyhinə olan inzibati xətalarla bağlı məsuliyyət tədbirlərinin gücləndirilməsi və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanda xidmət keçən hərbi qulluqçuların sosial rifahının yaxşılaşdırılması məqsədilə hazırlanıb. Sənəddə İnzibati Xətalar Məcəlləsinin 40-cı fəslində nəzərdə tutulan inzibati xətalara görə müəyyən edilmiş sanksiyaların sərtləşdirilməsi təklif edilir. Məcəllənin 606.3-cü maddəsinin dispozisiyası dəqiqləşdirilərək həmin maddə ilə məsuliyyət yaradan əməllərin siyahısı konkretləşdirilir.

Növbəti məsələ - Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Xidməti və mülki silah haqqında" Qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsindən bəhs edən Əli Hüseynli bildirib ki, Cinayət Məcəlləsinin 228-ci maddəsinə təklif edilən dəyişiklikdə qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələri və qurğuları satma həmin Məcəllənin qüvvədə olan 228.1-ci maddəsindən çıxarılaraq, bu əməlin ayrıca kriminallaşdırılması təklif edilir.

Deputat Kamal Cəfərov İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsinin mahiyyəti ilə bağlı qeyd edib ki, sənəddə normaların daha aydın və birmənalı ifadə edilməsi məqsədilə təklif edilən dəyişikliklər dəqiqləşdirmə və uyğunlaşdırma xarakteri daşıyır. Layihədə İnzibati Xətalar Məcəlləsinin 606.2.1-ci və 606.2.2-ci maddələrinə "müvafiq icra hakimiyyəti orqanının ehtiyatına keçirilmiş hərbi vəzifələr" ifadəsinin, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanuna "çağırışçıların və hərbi vəzifəlilərin hərbi qeydiyyatda olduqları müvafiq icra hakimiyyəti orqanı" ifadəsinin əlavə edilməsi, "Azərbaycan Respublikasında səfərbərlik hazırlığı və səfərbərlik haqqında" qanunun 17.4-cü maddəsində nəzərdə tutulan "hərbi uçot" ifadəsinin dəqiqləşdirilərək "hərbi qeydiyyat" ifadəsi ilə əvəz edilməsi təklif olunur.

İclasda komitə sədri Əli Hüseynli Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihəsi barədə də məlumat verib. Layihəyə əsasən lisenziyanın və icazənin şərtlərinə riayət olunmasına nəzarətin təkmilləşdirilməsi ilə bağlı dəyişiklikdə lisenziyanın və icazənin şərtlərinə riayət edilməsi sahəsində normativ hüquqi aktlarda nəzərdə tutulan inzibati tədbirlərlə yanaşı, yoxlama və nəzarətdənkənar tədbirlərdən də istifadə ediləcək. Digər bir dəyişiklikdə "Lisenziyalar və icazələr haqqında" qanunun 27.3-cü maddəsindən irəli gələrək bu maddənin tələblərinin pozulmasına görə inzibati məsuliyyət nəzərdə tutulur.

İnzibati Xətalar Məcəlləsində və "Kredit büroları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə əlaqədar bildirilib ki, layihədə nisyə mal alqı-satqısı ilə məşğul olan şəxslər tərəfindən "kredit tarixçələrini təşkil edən məlumat"ın kredit bürosuna mütləq qaydada təqdim edilməsi tələbi və həmin hala görə məsuliyyət tədbirləri, o cümlədən İnzibati Xətalar Məcəlləsinin 440.3-cü maddəsi ləğv edilir.

Komitə üzvü Nurlan Həsənov növbəti məsələ - Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında (birinci oxunuş) qanun layihəsinə dair məlumat verib. Nəzərə çatdırılıb ki, Məcəllənin müvafiq maddələrində "gənclərə" sözündən sonra "habelə qanunvericiliklə müəyyən edilən kateqoriyadan olan digər vətəndaşlara" sözlərinin əlavə edilməsi, "digər kateqoriyaya aid" sözlərinin "kateqoriyadan olan digər" sözləri ilə əvəz edilməsi nəzərdə tutulur. Bununla yanaşı, Məcəlləyə təklif olunan yeni 51.2-1-ci maddəyə görə, bu Məcəllənin 48.1-ci maddəsində nəzərdə tutulmuş qanunvericiliklə müəyyən edilən kateqoriyadan olan digər vətəndaşlar sosial kirayə müqaviləsi əsasında dövlət mənzil fondunun yaşayış sahəsini əldə etmək məqsədilə yalnız bir dəfə yaşayış sahəsinə ehtiyacı olan qismində uçota alına bilərlər.

Deputat Kamal Cəfərov daha bir məsələni - Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Sənəddə Məcəlləyə təklif olunan yeni 534-1-ci maddədə həqiqi hərbi xidmətdən ehtiyata və ya istefaya buraxılarkən hərbi geyim formasını daşımaq hüququ verilmiş şəxsin hərbi geyim formasını qanunla nəzərdə tutulmamış hallarda daşımasına görə cərimə nəzərdə tutulur.

Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə dair bildirilib ki, Mülkiyyət hüququnun anlayışı və məzmunu ilə bağlı 152-ci maddəyə təklif olunan əlavəyə əsasən, üzərinə həbs qoyulmuş əmlakın qanunla müəyyən edilmiş hallarda və qaydada idarə edilməsi ilə əlaqədar tədbirlər görülə bilər.

Komitənin sədr müavini Elşən Musayev gündəliyin növbəti məsələsini - "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Layihədə "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə"nin və "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalının təsviri"nin təsdiq edilməsi məsələləri öz əksini tapıb.

Əsasnaməyə əsasən "Azərbaycan milli mətbuatının 150 illiyi (1875-2025)" yubiley medalı ilə media sahəsinin inkişafında xüsusi xidmətləri olan, bu sahədə səmərəli fəaliyyət göstərən və ya media ilə əməkdaşlıqda fərqlənən Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

İclasda son olaraq Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirə olunub. Diqqətə çatdırılıb ki, sənəddə nəzərdə tutulan dəyişikliklər texniki xarakter daşıyır və terminlərin daha aydın və dəqiq olması məqsədilə təklif edilir.

İclasda gündəlikdəki qanun layihələrinin hər biri Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Cinayətkarlığa qarşı mübarizədə dönüş mərhələsi

## Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib





**Yanvarın 24-də Daxili İşlər Nazirliyində 2024-cü ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq-mühafizə siyasətinin sayəsində ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik hesabat ilində də etibarlı qorunub.

Qeyd olunub ki, cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib, qanunla müəyyən edilmiş funksiyalar digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə davam etdirilib. Daxili işlər orqanlarının əməkdaşları miqyasına görə indiyədək ölkəmizdə keçirilən konfrans, yarış və mərasimlərlə müqayisəyə gəlməyən COP29-un yüksək təhlükəsizlik şəraitində keçməsi üçün üzərinə düşən vəzifələri və qarşıya qoyulmuş tapşırıqları aidiyyəti dövlət qurumları ilə sıx əməkdaşlıq şəraitində əzmlə yerinə yetirib.

Hesabat məruzəsi ilə çıxış edən nazir Vilayət Eyvazov vurğulayıb ki, 2024-cü ildə əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 33.379 cinayət qeydə alınıb, onlardan 87,6 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 327 fakt təşkil edib. Cinayətlərin 94,4 faizi və ya 31.526-sı daxili işlər və prokurorluq orqanlarının prosessual qaydada araşdırdığı hüquqazidd əməllər olmaqla 90,3 faizinin açılması təmin edilib.

Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 87,3, qeyri-aşkar şəraitdə baş verənlərin 86, şəxsiyyət əleyhinə olanların 98,9, onlardan qəsdən adam öldürmələrin 96,6, adam öldürməyə cəhdlərin 95,2, qəsdən sağlamlığa ağır zərər vurmaların 98,9, mülkiyyət əleyhinə olanların 83,3 faizi açılıb. Xırda talamaların açılmasının nəticələri 3 faiz yaxşılaşaraq 87,5 faizə yüksəlib. Ağır və xüsusilə ağır cinayətlər törətmiş 3271 nəfər tutulub, 216 kriminal qrup zərərsizləşdirilib.

Davam etdirilən profilaktik tədbirlərin nəticəsi olaraq müqayisə edilən dövrə nisbətən 2024-cü ildə qrup halında baş verən cinayətlərin sayında 23,2, ictimai yerlərdə baş verənlərin sayında 9, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlərin sayında 8 faiz azalma qeydə alınıb. Ümumi cinayətlər 9,4, ağır və xüsusilə ağır cinayətlər 18,9, qeyri-aşkar şəraitdə baş verənlər 18,1, qəsdən adam öldürmələr 9,6, adam öldürməyə cəhdlər 16,9, qəsdən sağlamlığa ağır zərər vurmalar 13,5, xuliqanlıqlar 5, odlu silahın tətbiqi ilə törədilənlər 21, mülkiyyət əleyhinə olanlar 10,4, onlardan avtonəqliyyat vasitələrini qaçırmalar 9,5, habelə yol-nəqliyyat hadisələri 12,8, qəzalarda xəsarət alanların sayı 13,1, ölənlərin sayı 11,4 faiz azalıb.

Prokurorluq orqanlarının əməkdaşları ilə birgə keçmiş illərdən bağlı qalmış cinayətlərin açılmasında nəzərəçarpan irəliləyiş əldə edildiyi, 630 fakt üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunduğu, o cümlədən cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrasında böyük bir iş həcminin yerinə yetirildiyi qeyd edilib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri yaxşılaşaraq 87,9 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 118 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 65 nəfərin yeri müəyyən olunub.

Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 527 fakt müəyyən edilib, həmin cinayətlərə görə 247 nəfər tutulub. Ümumilikdə 7.227 odlu silah və 1 milyona yaxın sursat aşkarlanıb.

Narkotiklərlə mübarizənin də vəziyyətinə toxunan nazir V.Eyvazov bildirib ki, qanunsuz dövriyyədən 2023-cü il ilə müqayisədə 250 kiloqram çox - 4 ton 714 kiloqram narkotik vasitə götürülüb, 283 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 466 fakt üzrə 2 ton 51 kiloqram müvafiq vasitə aşkarlanıb və narkotiklərlə əlaqəli cinayətlərə görə 108 cinayətkar qrup zərərsizləşdirilib. Bu istiqamətdə əldə olunmuş müsbət nəticələri yüksək qiymətləndirən nazir müvafiq fəaliyyətin qətiyyətlə davam etdirilməsini tapşıraraq diqqəti qarşıda duran vəzifələrə çəkib, həmin cinayətlərlə mübarizədə vətəndaşların iştirakını, məlumatları əsasında uğurlu nəticələri olan bir çox əməliyyatların keçirildiyini, müşahidə olunan müsbət təmayüllərin məhz günbəgün möhkəmlənən polis-vətəndaş münasibətlərinin təzahürü olduğunu, Daxili İşlər Nazirliyinin bu məsələdə cəmiyyətin yetkin təbəqəsinə, sağlam düşüncəli hər bir vətəndaşa güvəndiyini, mediadan, sosial şəbəkələrin aktiv istifadəçilərindən, o cümlədən bloqçulardan daha böyük gözləntilərinin olduğunu qeyd edib.

Nazir onların, eləcə də yüksək vətəndaşlıq mövqeyi nümayiş etdirən hər bir şəxsin, o cümlədən ictimai fəalların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və media mənsublarının fəaliyyətini təqdir edərək hər birinə təşəkkürünü bildirib.

Həmçinin ölkədə aparılan antinarkotik təbliğatın əhəmiyyətini qeyd edərək ötən il bu sahədə ərazi polis orqanlarının rəhbərlərinin iştirakı ilə 1200-ə yaxın maarifləndirmə tədbirinin keçirildiyini nəzərə çatdırıb, bu qəbildən tədbirlərin davamlı və məqsədyönlü olması, cari ildə də fəaliyyətin ölkədə narkotiklərə olan tələbatın azaldılması məqsədi üzərində qurulması ilə bağlı göstərişlər verib. Respublikanın təhsil müəssisələrində həyata keçirilən maarifləndirmə və təbliğat tədbirlərində iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, yüksəkixtisaslı pedaqoqların, ictimaiyyətin tanınmış nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tapşırıb.

Qadınlara qarşı zorakılıqla müşayiət olunan cinayətlərin qarşısının alınması, açılması, zorakılıq etmiş şəxslərin cəzasızlığına yol verilməməsi üçün qabaqlayıcı tədbirlərin davam etdirildiyini bildirən nazir qadınların təqsirləndirilən və ya zərərçəkmiş şəxs qismində keçdikləri bütün cinayət işləri, o cümlədən materialların mütəmadi təhlil olunduğunu, onları cinayətə təhrik edən amillərin öyrənilib aradan qaldırılması üçün tədbirlərin görüldüyünü, o cümlədən aidiyyəti orqan və təşkilatlara vəsatətlər verildiyini qeyd edib. Zorakı əməllərdən və məişət zəminində baş vermiş cinayətlərdən zərər çəkən qadınların prosessual hüquqlarının müdafiəsi istiqamətində görülmüş işlərin nəticəsi olaraq 2024-cü ildə qadınlarla bağlı törədilmiş cinayətlərin ümumi sayında 47 fakt, o cümlədən ailə münaqişəsi zəminli cinayətlərin sayında 1,8 faiz azalma müşahidə olunduğunu vurğulayıb.

Nazir yeniyetmə və gənclərin hüquqazidd hərəkətlərinin qarşısının alınması üzrə qabaqlayıcı tədbirlərin müsbət nəticələr verdiyini və onların hüquqazidd əməllərinin dinamikasında 18,5 faiz azalmanın qeydə alındığını da bildirərək gənclərin bəzi sosial şəbəkə seqmentlərində yayımlanan zərərli informasiyaların təsiri altına düşməməsi, sağlamlığa ziyanlı vərdişlərdən çəkindirilməsi istiqamətində aparılan işlərin səmərəsinin artırılmasını tələb edib.

Diqqətə çatdırılıb ki, hesabat ilində 6.055, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 60 şəhər və rayonundan olan 4.468 vətəndaş qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Eyni zamanda nazirliyə daxil olan müraciətlər araşdırılaraq müvafiq tədbirlərin görülməsi təmin edilib.

Vətəndaş məmnunluğunun təmin olunması, ərizə və şikayətlərin obyektiv, həssaslıqla araşdırılması, qanunçuluğun qorunması kimi mühüm vəzifələrin icrasına da toxunan general-polkovnik Vilayət Eyvazov bu istiqamətlərdə böyük bir fəaliyyət ortaya qoyulduğunu, nəticələrin müsbət olduğunu bildirib. "102" Xidmətinə, qaynar xətlərə daxil olmuş, sosial şəbəkələrdə yayımlanmış müraciətlərə də çevik reaksiya verildiyini, cinayətlər nəticəsində vurulmuş maddi ziyanın təxminən 80,3 faizinin ödənildiyini, əhaliyə göstərilən elektron xidmətlərin müasir tələblərə uyğun təkmilləşdirildiyini, dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən və fərdi məlumat mübadiləsini təmin edən "E-Polis" mobil tətbiqinin yaradıldığını, "Elektron Xidmətlər Portalı" üzərindən göstərilən 31 adda dövlət xidmətinin mobil tətbiqlərinin hazırlandığını nəzərə çatdırıb.

İclasın gündəliyinə uyğun olaraq hesabat məruzəsi və məruzəətrafı çıxışlar dinlənilib. Məruzə ətrafında çıxış edənlər görülən işlərdən, əldə olunan nəticələrdən, mövcud olan nöqsanlardan, onların aradan qaldırılması üçün həyata keçirilən tədbirlərdən danışıblar.

Kollegiya iclasına yekun vuran nazir bəzi ərazi orqanlarının fəaliyyətində olan çatışmazlıqlara da diqqət çəkərək onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, bundan sonra da hər bir şəxsin qanuni mənafeyinin, hüquq və azadlığının etibarlı qorunmasını, əməkdaşların vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına daim riayət etməsini, eyni zamanda qətiyyətli olmasını, qanunçuluğun möhkəmləndirilməsini, peşəkarlıq səviyyəsinin artırılmasını tələb edib, xidməti fəaliyyətin səmərəliliyinin davamlı olaraq artırılması ilə bağlı tapşırıq və tövsiyələrini verib.

Nazir bildirib ki, ölkədə cinayətkarlıqla mübarizədə, asayişin və təhlükəsizliyin təmini işində əldə edilmiş müsbət nəticələr Daxili İşlər Nazirliyinin əməkdaşlarını arxayınlaşdırmır, şəxsi heyət suverenliyini tam təmin etmiş Azərbaycanın bütün ərazilərində qanunla müəyyən edilmiş vəzifələrin icrasını davam etdirərək xalqa xidmət funksiyalarını layiqincə və əzmlə həyata keçirməyə çalışır.

Nazir Vilayət Eyvazov daxili işlər orqanlarına göstərdiyi ali diqqət və qayğıya, şəxsi heyətin fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib və əmin edib ki, ölkədə qanunçuluğun, hüquq qaydasının qorunması, vətəndaşların təhlükəsizliyinin və məmnunluğunun təmin olunması sahəsində vəzifələrin böyük əzm və qətiyyətlə yerinə yetirilməsi davam etdiriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2025-ci ilin fevral ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 5,19 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 6 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 7, 14, 28 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri**<br>Seyidov Fərid Mirmufid oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 20 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 20 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 21 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 24 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 25 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Yusubov Elçin Mustafa oğlu | 26 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Bəşir Qüdrət oğlu | 27 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 28 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası**<br>**Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 28 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**

**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu Zaur Nudirəliyev küçəsi, 79**

**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**

**Qəbul saat 14:00-dan başlayır.**

**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111**

# Energetika naziri Qobustanda vətəndaşlarla görüşüb

Energetika naziri Pərviz Şahbazov yanvarın 24-də Qobustanda vətəndaşlarla görüşüb.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, nazirliyin aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş görüşdə vətəndaşların elektrik enerjisi təchizatı, kabelləşmə, elektrik xətlərinin istismar vəziyyəti, elektrik enerjisindən istifadəyə görə borcun yaranması, qazlaşdırma, qaz kəmərinin yenilənməsi, qaz sayğacının yerdəyişməsi, işlə təminat və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həlli üçün müvafiq tapşırıqlar verilib.

Görüşdə Qobustan, Göyçay, Sabirabad, Ağsu, Xəzər və Biləsuvar rayonlarından olan 20 vətəndaş iştirak edib.

# Azərbaycanın xarici siyasətinin uğurları

**2025-ci ilin ilk həftələri də ölkəmizin xarici siyasətinin uğurlarına xidmət edən tədbirlərlə başladı. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfərinin, Əbu-Dabi Dayanıqlılıq Həftəsinin açılış mərasimində iştirakının əhəmiyyəti xüsusi qeyd olunmalıdır.**



## Milli maraq, beynəlxalq nüfuz, işgüzar əməkdaşlıq

### Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasətin əsas istiqamətləridir

Yanvarın 14-də Birləşmiş Ərəb Əmirliklərinin paytaxtında keçirilən Əbu-Dabi Dayanıqlılıq Həftəsinin rəsmi açılışında və Zayed Dayanıqlılıq Mükafatının təqdimatı mərasimində bir çox dövlət və hökumət başçısı ilə bərabər Azərbaycan Prezidenti İlham Əliyev də iştirak etdi.

Qeyd edək ki, Əbu-Dabi Dayanıqlılıq Həftəsi 2008-ci ildə təsis olunub və ötən illər ərzində bu format dayanıqlı qlobal inkişaf baxımından önəmli müzakirələrin aparıldığı beynəlxalq platformaya çevrilib. Qlobal əməkdaşlıq və liderlik, iqtisadi inkişaf və texnologiya, eləcə də innovasiya prinsiplərini əsas istiqamətlər kimi müəyyənləşdirən Dayanıqlılıq Həftəsi dövlət və hökumət başçılarını, siyasətçiləri, sənaye liderlərini, iş adamlarını və gəncləri bir araya gətirir. Budəfəki Dayanıqlılıq Həftəsində 13 dövlət və hökumət başçısı, eləcə də 140-dan çox nazir və digər rəsmi şəxslər iştirak etmişlər.

#### Qlobal platformalarda iştirakın faydaları

Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövlətinin belə platformalarda ən yüksək səviyyədə təmsil olunmasının əhəmiyyəti bir neçə əsas sahədə özünü göstərir. Bu cür platformalar ilk növbədə diplomatik münasibətlərin gücləndirilməsi baxımından önəmlidir. Ümumiyyətlə, cənab İlham Əliyevin beynəlxalq tədbirlərdə iştirakı həm ölkəmizin dünya arenasında nüfuzuna, daha yaxından tanınmasına, mövqeyinin mötəbərliyinə xidmət edir, həm də Azərbaycanın diplomatik strategiyalarının və münasibətlərinin güclənməsinə kömək göstərir.

Belə platformaların iqtisadi əməkdaşlığın inkişafına da böyük töhfələri var. Bu baxımdan Əbu-Dabi Dayanıqlılıq Həftəsi kimi beynəlxalq tədbirlər ölkələr arasında iqtisadi əməkdaşlığı gücləndirmək, yeni investisiya imkanlarını araşdırmaq və layihələri təqdim etmək üçün əlverişli zəmin yaradır. Azərbaycan Prezidentinin belə tədbirlərdə iştirakı isə bu sahədə potensial tərəfdarları ölkəmizə cəlb edir.

Əbu-Dabi Dayanıqlılıq Həftəsi kimi platformaların regionun sülh və davamlı inkişaf mühitinin dəstəklənməsi baxımından əhəmiyyəti böyükdür. Prezidentin bu cür tədbirlərdə iştirakı təkcə Azərbaycanın deyil, ümumilikdə yerləşdiyimiz regionun sülh və davamlı inkişaf perspektivlərinə verilən dəstəyin və niyyətin ifadəsidir. Çünki dövlətimizin başçısı Azərbaycanla yanaşı, ümumilikdə regional sabitliyin, sülhün, əməkdaşlıq və inkişaf mühitinin təmin olunmasına çalışır.

#### Mehriban qonşuluq, işgüzar münasibətlər

Bu günlər Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin Azərbaycana səfəri rəsmi Tbilisinin Bakı ilə əlaqələrinə verdiyi diqqət və əhəmiyyətin ifadəsidir. Prezident İlham Əliyev bəyanatında dövlətlərimiz arasında olan mehriban qonşuluq və işgüzar münasibətlərdə xalqlarımızın rolunu belə qeyd etdi: "Bizim xalqlarımız əsrlər boyu dostluq, mehriban qonşuluq, qardaşlıq şəraitində yaşamışlar. Bu ənənələr bu gün də yaşayır. Bu gün Gürcüstan-Azərbaycan əlaqələri bütün istiqamətlər üzrə uğurla inkişaf edir. Hesab edirəm ki, bizim siyasi əlaqələrimiz bütün qonşular üçün nümunə ola bilər".

Bu gün ölkələrimiz arasında regionda və dünyada baş verən proseslərə, siyasi münasibətlərə, iqtisadi iş birliyinə və cəmiyyətlərimizin önəm verdikləri tarixi irsə, milli dəyərlərə, adət-ənənələrə birgə baxışımızı əks etdirən zəngin gündəm mövcuddur. Modern Azərbaycan və Gürcüstanı bir-birinə sıx bağlayan hərtərəfli əməkdaşlığın əsası Ulu Öndər Heydər Əliyevlə sabiq Prezident Eduard Şevardnadze tərəfindən qoyulub. Hazırda həm ölkələrimizin, həm də regionumuzun dayanıqlı inkişafı və gələcək çiçəklənməsi perspektivləri bu bünövrə üzərində bərqərar olub. Təqdirəlayiq haldır ki, sonrakı illərdə dövlətlərimiz bu strateji kursa sadiqliklərini nümayiş etdirərək bölgənin firavan gələcəyinə dair birgə səylərin sabitliyini təmin etməyə nail olublar.

Azərbaycanın regional siyasi və iqtisadi liderliyi Gürcüstan tərəfindən ardıcıl şəkildə dəstəklənir. Çünki bu liderlik yalnız Azərbaycanın deyil, bütöv regionun tərəqqisinə xidmət edir. Ölkəmizin siyasi kursunun və iqtisadi potensialının Gürcüstan üçün strateji anlamı var və bu reallıqda Azərbaycan Prezidentinin müdrik liderliyi regional sabitliyin dayanıqlığı baxımından müstəsna əhəmiyyətə malik tarixi-siyasi faktordur. Baş nazir İrakli Kobaxidzenin Prezident İlham Əliyevin liderlik keyfiyyətlərini vurğulaması qonşu gürcü dövləti və cəmiyyətinin Azərbaycana olan münasibətinin parlaq göstəricisidir: "Siz regionda fərqli bir Lidersiniz və bizim üçün də nümunəsiniz. Siz ölkənizə dövlətinizin mənafelərini qorumaqla rəhbərlik edirsiniz. Bu gün burada olmaq məndə böyük şərəf və məmnunluq doğurur".

Azərbaycanla Gürcüstan arasında iqtisadi əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın 10-cu iclasında mədəni-humanitar sahədə əməkdaşlığın uğurlu nəticələri də qeyd olundu. 2023-cü ildə Gürcüstanda baş nazirlərin iştirakı ilə Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Dram Teatrının yeni binasının təməlqoyma mərasiminin keçirilməsinin əhəmiyyətinə toxunuldu. Mədəni-humanitar mübadilənin və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsində də qarşılıqlı maraq ifadə olundu. Ümumiyyətlə, Azərbaycan-Gürcüstan strateji tərəfdaşlıq münasibətlərinin bütün istiqamətləri üzrə inkişaf perspektivləri geniş müzakirə olundu, nümayəndə heyətinin üzvləri gündəlikdə duran məsələlərə dair çıxışlar etdilər.

#### Davosda Azərbaycana maraq yenə böyük oldu

Yanvarın 20-24-də İsveçrə Konfederasiyasının Davos şəhərində Dünya İqtisadi Forumunun növbəti toplantısında Azərbaycan Prezidenti İlham Əliyev də iştirak etmişdir. Builki toplantı sayca 55-ci idi. Ölkəmizin bu forumda iştirakının və fəallığının ilbəil artırılması Prezident İlham Əliyevin rəhbərliyi sayəsində qazandığımız davamlı uğurlarla bağlıdır. Dövlətimizin başçısı forum çərçivəsində çıxışlar etmiş, panellərə qatılmış, çoxsaylı sualı cavablandırmışdır. Yeri gəlmişkən, iqtisadi xarakter daşımasına baxmayaraq, Davos Forumu dünya siyasətinə, beynəlxalq münasibətlərə ciddi təsirə malikdir. Forum dünyanın iqtisadi mənzərəsini yaratmaqda önəmli rol oynayır. Burada irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata əlavə istiqamətlər verir.

Prezident İlham Əliyev Davosda bir sıra ölkələrin dövlət və hökumət başçıları, eləcə də tanınmış şirkətlərin rəhbərləri ilə görüşüb. Onu da bildirək ki, bu görüşlər qarşı tərəflərin təşəbbüsləri ilə baş tutub. Bu da Azərbaycana olan hörmətdən, ölkəmizin qazandığı etibarlı tərəfdaş imicindən, dövlətimizin başçısının yüksək nüfuzundan qaynaqlanır.

Prezident İlham Əliyevin görüşdüyü şirkət rəhbərləri birmənalı olaraq Azərbaycanda fəaliyyətlərini genişləndirmək, yaxud iş birliyi qurmaq, əməkdaşlıq və tərəfdaşlıq etmək istədiklərini bildiriblər.

#### Çoxvektorlu yanaşma

Bu aparıcı niyyəti Azərbaycanın 2024-cü il ərzində həyata keçirdiyi müstəqil siyasət kursunda, ölkə rəhbərinin xarici səfərlərində hər birimiz görə bilərik. 2024-cü il bu baxımdan ölkəmizin çoxvektorlu xarici siyasətində mühüm nəticələr, böyük nailiyyətlərlə müşayiət olundu. Dövlətimizin başçısının məqsədyönlü siyasəti, irəli sürdüyü təşəbbüslər, atdığı davamlı strateji addımlar sayəsində respublikamızın beynəlxalq arenada mövqeyi daha da gücləndi, regionun lider dövləti mövqeyi möhkəmləndi. Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlığını dərinləşdirərək regional və qlobal məkanda önəmli tərəfdaşa çevrildi.

Bu uğurların əldə olunmasında Prezident İlham Əliyevin xarici ölkələrə səfərləri, həmin səfərlər çərçivəsində keçirdiyi görüşlər, bu çərçivədə dövlətlər və hökumətlər arasında imzalanan sənədlər mühüm rol oynadı. Xüsusilə, enerji, nəqliyyat və investisiya sahələrindəki razılaşmalar Azərbaycanın qlobal tərəfdaşlıq potensialını daha da artıraraq gücləndirdi.

Təkcə 2024-cü il ərzində Azərbaycan Prezidenti İlham Əliyev iki dəfə Almaniyada, iki dəfə Türkiyədə, iki dəfə Qazaxıstanda, üç dəfə Rusiyada, Misirdə, Pakistanda, Böyük Britaniyada, Özbəkistanda, İtaliyada və Qırğızıstanda səfərlərdə olmuşdur.

Dövlətimizin başçısı ötən il xarici səfərlərinə Almaniyada keçirilən Münxen Təhlükəsizlik Konfransında iştirakla başladı. Üç gün (fevralın 16-18-də) davam edən səfər çərçivəsində Prezident İlham Əliyev 24 mühüm görüş keçirdi. Bu görüşlərin qarşı tərəflərin təşəbbüsləri ilə baş tutması Azərbaycanın beynəlxalq arenada artan nüfuzunun və təşəbbüslərinin qlobal səviyyədə qəbul edildiyini bir daha sübuta yetirirdi. Görüşlər zamanı Azərbaycanın sülh təşəbbüsləri, ölkəmizin enerji təhlükəsizliyindəki rolu və beynəlxalq əməkdaşlıq məsələləri geniş müzakirə edildi. Bu görüşlərdən biri də Ermənistanın baş naziri ilə idi. Görüşdə sülh müqaviləsi üzrə danışıqlar, münasibətlərin normallaşdırılması və sərhədlərin delimitasiyası məsələləri müzakirə olundu. Prezident İlham Əliyevin Münxen səfəri Azərbaycan diplomatiyasının qlobal miqyasda mövqeyini möhkəmləndirmək baxımından böyük əhəmiyyət kəsb etdi.

Almaniya səfərindən dərhal sonra Prezident qardaş Türkiyəyə səfər etdi. Fevralın 18-19-da səfər çərçivəsində Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanla keçirilən görüşlər ölkələrimiz arasında strateji müttəfiqlik münasibətlərinin daha da möhkəmlənməsi baxımından mühüm rol oynadı.

Səfər zamanı imzalanan sənədlər isə Azərbaycan-Türkiyə əlaqələrinin strateji xarakterini daha da gücləndirmiş oldu. Türkiyə-Azərbaycan Universitetinin yaradılması barədə anlaşma, təhsil sahəsində yeni mərhələ kimi gənc kadrların yetişdirilməsinə mühüm töhfə verəcək. Baytarlıq sahəsində əməkdaşlıq və ikiqat vergitutmanın aradan qaldırılması ilə bağlı sazişlər isə iqtisadi və kənd təsərrüfatı sahələrində əlaqələrin genişlənməsinə, eyni zamanda ticarət münasibətlərinin daha da asanlaşdırılmasına şərait yaradacaq.

Azərbaycan Prezidentinin Rusiyanın dövlət başçısı Vladimir Putinin dəvəti ilə 22 aprel tarixində Rusiyaya işgüzar səfəri çərçivəsində keçirilən görüş də iki ölkə arasında iqtisadi əməkdaşlıq, nəqliyyat dəhlizləri, regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər strateji məsələlər ətrafında geniş müzakirələr baxımından faydalı oldu.

Bu səfərlər zamanı Azərbaycanla adıçəkilən ölkələr arasında siyasi, iqtisadi-ticari, nəqliyyat, mədəniyyət, elm-təhsil və digər sahələrə dair mühüm sənədlər imzalandı. Eyni zamanda Cənubi Qafqazda sülhün təmin edilməsi məqsədilə Azərbaycan dövlətinin atdığı addımlar və ölkəmizin artan geosiyasi rolu müzakirə mövzusu oldu.

Azərbaycan Prezidentinin ötən ilin müxtəlif vaxtlarında Misirə, Pakistana, Böyük Britaniyaya, Özbəkistana, İtaliyaya, Qırğızıstana səfərləri, bu səfərlər zamanı qlobal platformalarda iştirakı, keçirdiyi görüşlər, əldə edilən razılaşmalar ölkəmizin xarici siyasətinin uğurlarına mühüm töhfələr verdi.

Səfərlər Azərbaycan Prezidentinə sülhə, əməkdaşlığa, ölkələr arasında qarşılıqlı münasibətlərə tarixi xidmətlərinə görə ali dövlət mükafatlarının təqdim edilməsi baxımından da əlamətdar oldu. Prezident İlham Əliyevə Kazan şəhərində Tatarıstanın ali dövlət mükafatı olan "Dostluq" ordeni, Bişkekdə isə "Çingiz Aytmatov" ordeni təqdim edildi. Bu mükafatlar Azərbaycanın beynəlxalq əlaqələrdəki uğurlarının, regionlararası əməkdaşlığın inkişafına və mədəniyyətlərarası dialoqun təşviqinə verdiyi töhfələrin təqdir edildiyini, eləcə də beynəlxalq səviyyədə Azərbaycan Prezidentinin şəxsiyyətinə böyük hörmət və ehtiramın daha bir təsdiqidir.

#### Qlobal sülh təşəbbüslərinin mərkəzində

Ümumilikdə Azərbaycanın 2024-cü ildə xarici siyasət sahəsində əldə etdiyi uğurlar bir sıra mühüm sahələrdə öz əksini tapdı. Bu uğurlar ikitərəfli və çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə, regional sabitliyin təmin olunmasına böyük təkan verdi. Azərbaycan il boyu qlobal sülh təşəbbüslərinin mərkəzində olaraq Cənubi Qafqazda bu prosesin irəliləməsi üçün konkret addımlar atdı. Ermənistanla münasibətlərin normallaşdırılması və sərhədlərin delimitasiyası üzrə danışıqlar davam etdirildi. Azərbaycanın sülh təşəbbüsləri beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirildi və bir çox ölkə bu prosesə dəstək verməyə çalışdı.

Enerji təhlükəsizliyi sahəsində də Azərbaycan liderliyini davam etdirdi. Xüsusilə "Cənub qaz dəhlizi" və "yaşıl enerji" layihələri ilə bağlı əməkdaşlıq genişləndi. Avropa İttifaqı ilə enerji sahəsində strateji tərəfdaşlıq daha da möhkəmləndi, Azərbaycan təbii qazın ixracı ilə yanaşı, "yaşıl enerji" sahəsində də yeni layihələrə start verdi. Qardaş Türkiyə ilə strateji müttəfiqlik münasibətləri daha da gücləndirildi. Hər iki ölkə arasında iqtisadi, hərbi və mədəni sahələrdə yeni müqavilələr imzalandı, birgə layihələrin həyata keçirilməsi uğurla davam etdirildi. Rusiya, Çin, Mərkəzi Asiya və digər region ölkələri ilə ikitərəfli əməkdaşlıq dərinləşdirildi. Bu çərçivədə nəqliyyat və logistika dəhlizlərinin inkişafı üzrə əhəmiyyətli irəliləyiş əldə edildi.

Azərbaycan beynəlxalq humanitar təşəbbüslərdə yenə də yüksək fəallıq göstərdi. Ölkəmizin evsahibliyi etdiyi qlobal forumlar və digər tədbirlər vasitəsilə mədəniyyətlərarası dialoq, tolerantlıq və humanist dəyərlər təşviq olundu. Azərbaycan Qoşulmama Hərəkatında fəal iştirakını sədrlik müddəti bitəndən sonra da davam etdirərək postpandemiya dövründə bərpa və davamlı inkişaf məsələlərində aktiv rol oynadı. BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində Azərbaycanın təşəbbüsləri dəstəkləndi və ölkənin qlobal məsələlərdə rolu daha da gücləndi.

"Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizlərinin fəaliyyətində Azərbaycan mühüm tranzit ölkəsi kimi mövqeyini daha da möhkəmləndirdi. Bu dəhlizlər vasitəsilə yükdaşımalar artdı və ölkəmizin geostrateji əhəmiyyəti daha da yüksəldi.

Xarici ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr də gücləndirildi, diaspor təşkilatlarının fəaliyyəti aktivləşdirildi. Bu, Azərbaycanın beynəlxalq səviyyədə tanınması və dəstək qazanması üçün mühüm rol oynayır.

Azərbaycanın 2024-cü ildə xarici siyasət uğurları ölkənin strateji hədəflərinə çatmaqda irəliləyiş olduğunu göstərir. Bu uğurlar həm regional sabitliyə, həm də Azərbaycanın beynəlxalq səviyyədə mövqeyinin möhkəmlənməsinə xidmət edir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Dünya Azərbaycanın iqtisadi imkanlarına şahidlik edir

### Davos Forumu bu baxımdan mühüm qlobal platformadır

**"Prezident İlham Əliyevin İsveçrədə keçirilən Davos İqtisadi Forumunda iştirakı, forum çərçivəsində keçirdiyi görüşlər çox uğurludur. Davos Forumu Azərbaycanın inkişafını, imkanlarını dünyaya təqdim etmək baxımından mühüm platformadır".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib. Dövlət başçısının forum çərçivəsində bir sıra ölkələrin dövlət və hökumət başçıları, eləcə də dünyanın tanınmış şirkətlərinin rəhbərləri ilə görüşlər keçirərək qarşılıqlı əməkdaşlığa dair müzakirələr apardığını xatırladan S.Fətəliyeva qeyd edib ki, sayca 55-ci olan Dünya İqtisadi Forumunda bir çox dövlət və hökumət başçısı, nüfuzlu beynəlxalq təşkilatların və şirkətlərin rəhbərləri iştirak edirlər. Forumun proqramı dünyanın ən aktual problemlərinin həlli üçün dövlət və özəl sektoru tərəfdaşlığa, dünya liderlərini enerji, iqlim və ticarət sahələrində birgə işləməyə çağırır. Qlobal problemlərin müzakirə olunduğu və dünyanın iqtisadi həyatında önəmli qərarların verildiyi Dünya İqtisadi Forumuna Prezident İlham Əliyevin növbəti dəfə dəvət olunması dövlətimizin başçısının beynəlxalq aləmdəki yüksək nüfuzunun daha bir göstəricisidir.

Deputatın sözlərinə görə, iqtisadi xarakter daşımasına baxmayaraq, forum dünya siyasətində, beynəlxalq münasibətlərdə ciddi təsirə malikdir: "Bu tədbir dünyanın iqtisadi mənzərəsinin formalaşdırılmasında önəmli rol oynayır. Burada təqdim edilən müasir texnologiyalar, irəli sürülən yeni fikirlər, təkliflər qlobal iqtisadiyyata yeni istiqamətlər verir. Davos Forumu, eyni zamanda iqtisadi güc mərkəzlərinin bir-biri ilə dialoqu və dünya ictimaiyyətinə hesabat xarakteri daşıyır. Qlobal iqtisadi böhranın, on milyonlarla insanın yaşayışına, ayrı-ayrı dövlətlərin iqtisadiyyatına təsir edən münaqişələrin davam etdiyi, ərzaq çatışmazlığı probleminin mövcud olduğu indiki dövrdə siyasi liderləri, iş adamlarını, vətəndaş cəmiyyəti qurumlarının rəhbərlərini bir araya toplayan forum həm də ölkələrin özlərini dünyaya yaxından tanıtması, təşviq etməsi baxımından mühüm platformadır".

Sevinc Fətəliyeva qeyd edib ki, Prezident İlham Əliyev hər dəfə Davos Forumu kimi nüfuzlu platformadan istifadə edərək Azərbaycan həqiqətlərini, habelə ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən mühüm regional nəqliyyat və enerji layihələrinin əhəmiyyətini dünya liderlərinin və ictimaiyyətinin diqqətinə çatdırıb. Son illər isə postmüharibə dövründə işğaldan azad olunmuş ərazilərimizdə görülən işlər və həyata keçirilməsi nəzərdə tutulan regional layihələr, həmçinin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində etibarlı və dayanıqlı tərəfdaş kimi Azərbaycanın mühüm rolu diqqət mərkəzindədir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Azərbaycan ilə Pakistanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb

**Yanvarın 23-24-də Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Elnur Məmmədov Pakistan İslam Respublikasında səfərdə olub.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, yanvarın 23-də İslamabadda Azərbaycan ilə Pakistanın Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin 4-cü raundu keçirilib. Nümayəndə heyətinə Azərbaycan tərəfindən nazir müavini Elnur Məmmədov, Pakistan tərəfindən xarici işlər nazirinin müavini Amna Baloç başçılıq ediblər.

Məsləhətləşmələr zamanı siyasət, iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, təhsil, mədəniyyət, energetika, turizm sektorlarında və digər sahələrdə əməkdaşlığa dair ətraflı fikir mübadiləsi aparılıb. Müxtəlif, o cümlədən yüksək səviyyələrdə qarşılıqlı səfərlərin əhəmiyyəti, onun ikitərəfli əlaqələrin bir çox sahələrinə müsbət təsiri qeyd olunub.

Müzakirələr çərçivəsində Prezident İlham Əliyevin ötən il Pakistana dövlət səfəri və səfər çərçivəsində imzalanan ikitərəfli razılaşmalar, həmçinin Baş nazir Məhəmməd Şahbaz Şərifin Bakıda keçirilən COP29-un Liderlər Sammitində iştirakı dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan-Pakistan əlaqələrinin dinamik inkişafında yeni mərhələ kimi dəyərləndirilib. Hər iki tərəf münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə edib.

Elnur Məmmədov Azərbaycanın sülh gündəliyi, Ermənistanla normallaşma prosesi, işğaldan azad edilmiş ərazilərdəki bərpa-quruculuq işləri və investisiya layihələri haqqında ətraflı məlumat verib.

Görüşdə tərəflər, eyni zamanda beynəlxalq platformalarda əməkdaşlıq, regional məsələlər və digər qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi aparıblar.

E.Məmmədov, həmçinin Pakistan Baş nazirinin müavini, xarici işlər naziri Mohammad İshaq Dar tərəfindən də qəbul edilib. Görüş zamanı iki ölkə arasında strateji əməkdaşlığın inkişaf etdirilməsinin önəmi, qarşılıqlı yüksəksəviyyəli səfərlərin əhəmiyyəti və digər qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib.

Bundan başqa, yanvarın 24-də Elnur Məmmədov Azərbaycan-Pakistan Birgə Komissiyasının 8-ci iclasında iştirak və çıxış edib.




# Konstitusiya və Suverenlik İli 2025



**Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan 30 il ötür. Bu, müstəqil dövlətçilik yolunda əzmlə irəliləyərək ən böyük uğurlara imza atan istənilən dövlət üçün son dərəcə əlamətdar bir tarixdir. Bu tarixi bizim üçün müstəsna edən amil isə həm də bundan ibarətdir ki, Əsas Qanunumuzun qəbulunun 30-cu ildönümünə dövlətimiz Konstitusiyamızın bəyan etdiyi əsas niyyətlərdən biri kimi ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası ilə gəlib çatmışdır. 2025-ci ildə həm də Vətən müharibəsindəki qələbəmizin 5-ci ildönümüdür. Bu baxımdan, xalqımız və dövlətimiz üçün müstəsna tarixi əhəmiyyətini nəzərə alaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə bu il ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilmişdir.**



# Möhtəşəm 30 il

## Ümid və əminliyin gücü

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası Ümummilli Lider Heydər Əliyevin dövlətimizə ən qiymətli mənəvi miraslarındandır. Ulu Öndər bir zamanlar Əsas Qanunumuzun onilliklər, əsrlər ərzində Azərbaycanın həyatında oynayacağı mühüm rola ümidini, əminliyini belə ifadə etmişdi: "Əminəm ki, Azərbaycanın ilk demokratik Konstitusiyası xalqımızın demokratiya, milli dövlətçilik yolu ilə getməsini təmin edəcək və gələcək nəsillərə sivilizasiyalı, yüksəksəviyyəli, dünya demokratiyasında özünəməxsus yer tutan müstəqil Azərbaycan dövlətini miras qoyacaq".

1995-ci ildə Azərbaycan Respublikası Konstitusiyasının qəbul olunmasını labüd edən səbəblərin dəqiq təsviri "Azərbaycan Respublikasında 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli sərəncamında dəqiq verilmişdir. 1991-ci ilin 18 oktyabrında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul edilməsindən sonra milli dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifəsi ən çətin məsələlərdən biri kimi qarşıda dururdu. Yeni Konstitusiyanın hazırlanması müvafiq Aktda da nəzərdə tutulmuşdu. Amma 1991-1993-cü illərdə ölkədəki vəziyyətin qeyri-sabitliyi, cəmiyyət daxilində gedən neqativ proseslər, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və torpaqlarımızın 20 faizinin işğal altına düşməsi, eləcə də o dövrdə hakimiyyətə rəhbərlik edənlərin yarıtmaz siyasəti bu sahədə ciddi addımlar atmağa imkan vermirdi. Bu vəziyyət qısa müddətdə xaotik sürətlə inkişaf edərək cəmiyyət həyatının bütün sahələrində kəskin böhrana, ölkədə özbaşınalığa, anarxiyaya gətirib çıxardı, dövlət idarəçiliyi mexanizmlərinin formalaşdırılması mümkün olmadı, qanunçuluğun, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun təmin edilməsi istiqamətində ciddi addımlar atılmadı. Elə buna görə də dövlət müstəqilliyini de-yure elan etmiş Azərbaycan dövləti öz suverenliyini faktiki olaraq təmin edə bilməmişdi. Həm də bunu nəinki təmin edə bilməmiş, proseslərin axarı eyni gedişatla davam edərsə, 1993-cü ilin ortalarına doğru real şəkil almış vətəndaş müharibəsi təhlükəsi, separatizm, ölkənin regionlara parçalanması təhlükəsi öz labüd nəticəsinə çatarsa, hətta de-yure müstəqilliyini də itirmək, dünya xəritəsindən silinmək riski qarşısında qalmışdı.

## Dönüş anı

Belə bir zamanda Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdışı dövlətimizin xilasına, ölkəmizin, cəmiyyətimizin həyatında əsl dönüş anına çevrildi. Ulu Öndərin çağdaş tariximizə Milli Qurtuluş Günü kimi əbədi həkk olunmuş 15 iyun 1993-cü ildə Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilməsi ilə respublikamızda demokratiyanın, qanunçuluğun, hüquqi dövlət quruculuğu proseslərinin bünövrəsi qoyuldu. Ümummilli Lider ölkə parlamentinə sədr seçildikdən dərhal sonra verdiyi bəyanatda Azərbaycanın müstəqil dövlətçiliyinin inkişaf konsepsiyasını və strateji yollarını sistemli şəkildə təqdim etdi. Həmin çıxışında Ümummilli Lider bildirirdi: *"Azərbaycan Respublikasının dövlət müstəqilliyi ən əsas məsələdir. Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına, qanun pozuntularına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan hüquqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır. Yəni bizim respublikamız bir il bundan öncə başladığı yolla getməkdə davam etməlidir. Bu, düzgün yoldur, doğru yoldur, bu yolla bizim respublika daha qətiyyətlə getməlidir. Əmin olmalısınız ki, mən bu yola həmişə sadiq olacağam".*

Ümummilli Lider Heydər Əliyev çıxışı zamanı Azərbaycanda demokratik müstəqil respublika quraraq, sivilizasiyalı cəmiyyət uğrunda mübarizə aparıb, ümumdünyəvi, bəşəri dəyərlərin hamısından istifadə etməyi vacib sayırdı. Qeyd edirdi ki, Azərbaycan uzun illərdən, əsrlərdən sonra ilk dəfə müstəqilliyinə nail olduqdan sonra bütün dünyaya öz tarixi nailiyyətlərini, milli ənənələrini nümayiş etdirə bilməlidir.

Ümummilli Lider onu da vurğulayırdı ki, Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün insanların Vətəni olduğu kimi, bundan sonra da Vətəni olmalıdır. Azərbaycan Respublikası ərazisindəki hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüququ daşımalıdır: *"Əgər biz bu məfhumları rəhbər tuta bilsək və bunu əməli surətdə həyata keçirə bilsək, biz Azərbaycan Respublikasında olan bütün xalqların, bütün millətlərin tam birləşməsini təmin edə bilərik. Bu, bizim əsas vəzifələrimizdən biridir. Güman edirəm ki, biz buna nail olacağıq".*

Ulu Öndər Heydər Əliyev həmin proqram xarakterli çıxışında Azərbaycanın demokratik dövlət kimi bütün dövlətlərlə bərabərhüquqlu münasibətlər yaratmasının, o cümlədən yaxın qonşularla lazımi mədəni, iqtisadi, siyasi münasibətlərə nail olmasının, milli birliyin, cəmiyyətdə qayda yaratmaq üçün hamının nizam-intizama, qanunlara riayət etməsinin, qanunun aliliyinin təmin olunmasının əhəmiyyətini vurğulayır və bəyan edirdi ki, o, öz əqidəsindən dönməyəcəkdir.

## Dövlət quruculuğunda yeni mərhələ

Bu çıxışdan sonrakı günlərdə atılan addımlarla Ümummilli Lider göstərdi ki, bütün qeyd edilənlər sadəcə söz deyil. Heydər Əliyev bu strateji istiqamətlərin hər biri üzrə təxirəsalınmaz və məqsədyönlü addımlar atmağa başladı. Bu baxımdan, 1993-cü ilin iyun-oktyabr aylarında və sonrakı dövrlərdə Ulu Öndərin müstəqil Azərbaycan dövlətinin qorunması və möhkəmləndirilməsi uğrunda apardığı mübarizə strateji mahiyyət daşıyırdı. Beləliklə, 1993-cü ildə ölkədə baş vermiş hakimiyyət dəyişikliyindən, Heydər Əliyevin Azərbaycan xalqının mütləq etimadı ilə ölkə Prezidenti seçilməsindən sonra dövlətimizin müstəqilliyinin praktik müstəvidə də özünü göstərməsi üçün real zəmin yarandı. Müstəqil Azərbaycan dövlətinin hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi sürətləndi.

Azərbaycan xalqı ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq müstəqillik nemətinə böyük arzu və ümidlərlə qovuşdu. Müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq xəyalı yüzilliklərdən sonra gerçəyə çevrildi. Tarixin müxtəlif mərhələlərindəki kənar müdaxilələrə, məhrumiyyətlərə, ağır sınaqlara rəğmən, xalqımız milli kimliyini, mübarizə ruhunu qoruyub saxlayaraq öz ideallarına daimi sadiqliklə XX əsrin sonlarında dövlət müstəqilliyinin bərpasına nail ola bildi. Milli-azadlıq hərəkatı ilə kütləvi şüurda özünüdərk mərhələsi yetkinlik səviyyəsinə yüksələrək başa çatdı, bu mərhələ müstəqillik və dövlətçilik şüuruna transformasiya olundu, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevi məhz bu şüurun işığında ölkənin ali rəhbərliyinə çağırmışdı. Çünki müstəqillik və dövlətçilik şüuru artıq yeni bir dönəmə, tammiqyaslı hüquqi, demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu dönəminə keçidi diktə edirdi ki, bu da yalnız Heydər Əliyev kimi güclü, qətiyyətli Liderin mətin iradəsi, zəngin təcrübəsi hesabına mümkün ola bilərdi.

Əsrin əvvəllərində mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olan müstəqil Azərbaycan Respublikası milli dövlətçilik ənənələrini inkişaf etdirmək və yeni dünya düzənində ölkənin özünəməxsus strateji inkişaf xəttini müəyyənləşdirmək üçün köklü islahatlar aparılmalı idi. Məsələnin mürəkkəbliyi həm də bunda idi ki, söhbət tamamilə yeni ictimai-iqtisadi formasiyadan gedirdi və Azərbaycanda ictimai həyatın müxtəlif sahələrindəki münasibətləri tənzimləməyə imkan yaradan təkmil hüququ baza formalaşdırılmamışdı. Bu tarixi missiyanı məhz Ümummilli Lider Heydər Əliyev üzərinə götürdü.

Qısa vaxt ərzində ölkədə ictimai-siyasi sabitliyi bərqərar etməyə müvəffəq olan Heydər Əliyev konstitusiya islahatlarının həyata keçirilməsi, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsi, hüquqi və digər ciddi tədbirlərin aparılması məqsədilə xüsusi Hüquqi İslahat Komissiyasının yaradılması barədə fərman imzaladı. Ümummilli Liderin birbaşa rəhbərliyi ilə Konstitusiya layihəsi hazırlandı və onun müddəaları ictimai müzakirələrdən keçdi. 1995-ci ilin 12 noyabrında Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi (referendumu) yolu ilə qəbul edildi. Bu Konstitusiya dövlətin hüquqi əsaslarını müəyyənləşdirən, onun ümumi inkişafının təxmini konturlarını özündə ehtiva edən sənəd kimi tarixə düşdü. 1995-ci ildə Konstitusiyanın qəbulu ilə Azərbaycanda dövlət quruculuğu prosesinin yeni mərhələsi başlandı. Bu mərhələdə dövlət quruculuğunun əsas prinsiplərini Ümummilli Lider belə müəyyənləşdirmişdi: *"Respublikamızda hüquqi dövlət qurulması, demokratik, sivilizasiyalı cəmiyyət yaradılması, insan azadlığının, söz, vicdan azadlığının, müasir plüralizmin təmin edilməsi, çoxpartiyalı sistemin bərqərar olması bizim qəbul etdiyimiz prinsiplərdir".*

## Tariximizin məhsuldar dövrü

Aydındır ki, Azərbaycanda siyasi, iqtisadi, hüquqi, demokratik islahatların həyata keçirilməsində Konstitusiyanın prinsip və müddəaları əsas tuturdu. Bu əsasda da ölkədə bütün sahələrdə çoxşaxəli islahatlar aparılırdı. Demokratik, hüquqi, dünyəvi dövlət qurmaq, Azərbaycan vətəndaşlarının Konstitusiyanın müəyyən etdiyi prinsiplər əsasında azad, sərbəst yaşamasını, bütün insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını təmin etmək üçün şərait yaradılır, demokratik dövlət quruculuğu və yeni siyasi-iqtisadi sistemin formalaşdırılması üçün normativ hüquqi bazanın yaradılması istiqamətində uğurlu işlər həyata keçirilirdi. Müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan sonra ali qanunverici orqan - Milli Məclis tərəfindən təkcə beş ildə, 1995-2000-ci illər arasında 900-dən çox qanun qəbul edilmişdi ki, bu da ölkəmizdə qanunçuluğun, yeni dövr quruculuğunun hüquqi bazasının yaradılmasının parlaq təzahürü idi.

Ümummilli Lider Heydər Əliyev 1995-ci ilin 12 noyabrında Konstitusiyanın qəbul olunmasını ölkəmizdə dövlət quruculuğunun başlanmasının yeni mərhələsi kimi qiymətləndirmiş, Konstitusiyanın qəbulundan 5 il sonra respublikamızda dövlət quruculuğu sahəsində görülən işləri yekunlaşdıraraq demişdi: *"1995-ci il noyabrın 12-dən, yəni müstəqil respublikamızın Konstitusiyası qəbul olunduqdan və parlament seçkiləri keçirildikdən sonra başlanan bu dövr dövlət quruculuğu baxımından, əlbəttə ki, bizim tariximizin ən məhsuldar dövrüdür".*

Böyük dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev dünyanın müasir reallıqlarını obyektiv şəkildə qiymətləndirərək və Azərbaycan xalqının tarixi mənafelərini nəzərə alaraq Konstitusiyanın inkişaf etmiş dövlətlərin təcrübəsini və milli maraqları, ölkənin özünəməxsus xüsusiyyətlərini, milli-mənəvi dəyərləri unikal bir formada özündə əks etdirən hüquqi sənəd kimi hazırlanmasına nail oldu. Əsas Qanunumuzun preambulasında dövlətin müstəqilliyinin və suverenliyinin qorunmasına, demokratik quruluşa təminat verilməsinə, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, hüquqi dövlət qurmaq və digər mühüm məqamlar başlıca prinsiplər kimi təsbit olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasında ali hakimiyyətin xalqa məxsus olduğu qəti şəkildə bəyan edilir ki, bu da ölkəmizin demokratik inkişaf xəttinə üstünlük verməsinin ən bariz göstəricisi kimi qiymətləndirilə bilər. Əsas Qanunda öz müqəddəratını sərbəst və müstəqil şəkildə müəyyənləşdirmək hüququnun Azərbaycan xalqının suveren hüququ olduğu bildirilir.

## Ali məqsəd

Konstitusiya Azərbaycanın ümummilli mənafeləri ilə bağlı bütün məsələlərin yalnız xalqın iradəsi əsasında həll olunmasının mümkünlüyünü təsbit etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası həmçinin Azərbaycan dövləti qarşısında duran başlıca vəzifələri və başqa dövlətlərlə münasibətlərin əsaslandığı prinsipləri müəyyənləşdirir. Əsas Qanunumuzun 7-ci maddəsinin II hissəsində qeyd olunur ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə yalnız Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müddəalardan irəli gələn müddəalarla məhdudlaşır. Bu maddə Azərbaycan dövlətinin suverenliyini əks etdirir. Konstitusiyada birmənalı şəkildə bəyan edilir ki, Azərbaycan Respublikası başqa dövlətlərlə münasibətlərini hamılıqla tanınan beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurur.

İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinin Azərbaycan dövlətinin ali məqsədi olduğu Konstitusiyanın 12-ci maddəsinin I hissəsində təsbit edilmişdir. İnsan və vətəndaş hüquq və azadlıqlarına bu cür münasibət hətta ən inkişaf etmiş dövlətlərin bəzilərinin qanunvericilik sistemində də yoxdur. Azərbaycan Respublikasının Konstitusiyası insanları cinayət əməllərinə görə ölüm hökmü ilə cəzalandırmağı birmənalı şəkildə qadağan edir və yaşamaq hüququnu hər bir şəxsin təbii haqqı kimi göstərir. Bu müddəa Azərbaycan dövlətinin insan hüquqlarına münasibətinin ən gözəl örnəklərindəndir.

Azərbaycan Respublikasının Konstitusiyası hər bir vətəndaşa şəxsi toxunulmazlıq, vicdan və söz azadlığı, bərabərlik, azadlıq hüquqları verir. Əsas Qanunumuzun qəbulundan ötən 30 il ərzində bu ali prinsiplərin real həyatda tətbiqi istiqamətində də olduqca ciddi nailiyyətlər əldə olunmuşdur. Vətəndaşların mülkiyyət hüququnun tanınması və onun toxunulmazlığına təminat verilməsi də Azərbaycan Respublikası Konstitusiyasının çox vacib müddəalarından biridir.

Konstitusiyada hakimiyyət bölgüsü prinsipləri də dəqiq şəkildə öz ifadəsini tapmışdır. Hakimiyyətin üç qolu arasında səlahiyyətlərin bölünməsinin dəqiq şəkildə təsviri Azərbaycanda mükəmməl idarəetmə sisteminin yaradılmasına xidmət göstərir və onun əhəmiyyətini başa düşmək üçün, sadəcə Əsas Qanunda öz əksini tapmış müddəaların mahiyyətinə diqqət yetirmək kifayətdir. Belə ki, burada icra hakimiyyətinin Prezidentə, qanunverici hakimiyyətin Milli Məclisə, məhkəmə hakimiyyətinin isə məhkəmələrə aid olduğu göstərilir ki, bu da müasir dünyanın qəbul etdiyi normalara tamamilə uyğundur. Azərbaycan Respublikası Konstitusiyasına əsasən, ölkəmizdə idarəetmə mexanizmi elə ədalətli şəkildə qurulmuşdur ki, hakimiyyətin heç bir qolu ölkənin taleyini həll edən məsələlər barədə hərtərəfli qaydada qərar qəbul etmək imkanına malik deyildir. Bu prinsip hakimiyyətin həyata keçirilməsinin ölkənin milli mənafeləri çərçivəsində həllinə imkan yaradır. Başqa sözlə desək, hakimiyyətin heç bir qolunun ölkənin və xalqın iradəsinə zidd addımlar atmaq imkanı yoxdur.

Azərbaycan Respublikasının Konstitusiyası ölkə vətəndaşlarına bütün növ insan hüquqlarından, o cümlədən əmək, istirahət, tətil, sosial təminat, təhlükəsiz yaşamaq, mənzil toxunulmazlığı, təhsil, milli mənsubiyyət, fikir, söz və vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, cəmiyyətin və dövlətin siyasi həyatında, dövlətin idarə olunmasında istifadə etməsinə imkan yaradır.

Bütün bu qeyd edilənlər Azərbaycan Respublikasının Konstitusiyasında insanların tam azad və sərbəst şəkildə yaşayıb fəaliyyət göstərməyə qabil mükəmməl hüquqi müddəaların, prinsiplərin öz əksini tapdığını göstərir və bu prinsiplər Azərbaycanda insan hüquq və azadlıqlarının aliliyini təsdiqləyən, demokratiyanın fundamental prinsiplərinə əsaslanan siyasi bir sistemin mövcudluğunu sübuta yetirir.

## Zamanla təkmilləşdirilərək inkişaf etdirilən Əsas Qanunumuz

Hər bir Konstitusiyanın işləkliyini, Əsas Qanun kimi cəmiyyət həyatının müxtəlif sferalarına bütün zamanlarda nüfuz etməsini şərtləndirən ən mühüm amillərdən biri onun daim təkmilləşdirilməsi, dövrün çağırışlarının bu mühüm sənədin müddəalarında nəzərə alınmasıdır. Bu baxımdan, Azərbaycan Respublikasının Konstitusiyası da ötən 30 il ərzində çox geniş təkmilləşdirmə və inkişaf yolu keçmiş, qəbul edildiyi 1995-ci ildən bəri üç dəfə - 2002-ci, 2009-cu və 2016-cı illərdə - Azərbaycan Respublikası Konstitusiyasının mətnində ümumxalq səsverməsi (referendum) yolu ilə müəyyən dəyişikliklər edilmişdir. Bu dəyişikliklər, əsas etibarilə, cəmiyyətin inkişafı, yeni çağırışların ortaya çıxması və dövlət idarəçiliyinin təkmilləşdirilməsi məqsədilə həyata keçirilmişdir. Belə ki, 24 avqust 2002-ci ildə keçirilən referendumda Konstitusiyanın 24 maddəsində 29 əlavə və dəyişiklik edilmişdir. Bu dəyişikliklər insan hüquqlarının qorunması, seçki sisteminin təkmilləşdirilməsi və dövlət hakimiyyəti orqanlarının fəaliyyətinin tənzimlənməsi kimi sahələri əhatə etmişdir. 18 mart 2009-cu il tarixində keçirilən ümumxalq səsverməsi (referendum) isə Azərbaycan Respublikası Konstitusiyasının 25 maddəsinə 30-dan artıq əlavə və dəyişiklik edilmişdir. Bu dəyişikliklər arasında prezidentlik müddətinin 5 ildən 7 ilə artırılması və bir şəxsin iki dəfədən artıq prezident seçilməsinə qoyulan məhdudiyyətin aradan qaldırılması kimi mühüm yeniliklər yer almışdır.

26 sentyabr 2016-cı ildə keçirilən ümumxalq səsverməsində (referendumda) Konstitusiyanın 29 maddəsinə 41 əlavə və dəyişiklik edilmişdir. Bu dəyişikliklər ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsi məqsədi daşıyırdı. Həmin ümumxalq səsverməsində (referendumda) Azərbaycan Respublikası vətəndaşlarının yekdil qərarı ilə idarəetmə sistemində yeni təsisat - Birinci vitse-prezidentlik institutu yaradılmışdır. Beləliklə, təxminən 7 illik aralıqlarla 3 müxtəlif dövrdə Azərbaycan Respublikasının Konstitusiyasına edilən müvafiq əlavə və dəyişikliklər Əsas Qanunun yeni dövrün tələblərinə uyğunlaşdırılmasına xidmət etmişdir. Məsələn, yeni dövrdə ölkəmizdə siyasi idarəetmənin təkmilləşdirilməsi, idarəetmə sisteminin optimallaşdırılması tədbirlərinin tərkib hissəsi kimi 2016-cı ildə Birinci vitse-prezident və vitse-prezidentlik institutunun yaradılması idarəetmədə çevikliyi və operativliyi artırmaq məqsədi daşıyırdı. Bu, xüsusilə fövqəladə hallarda və uzunmüddətli strateji məsələlərin həllində daha effektiv idarəetmə mexanizmi təmin etmək üçün nəzərdə tutulmuşdur. Konstitusiyada aparılan dəyişiklikdən sonra 2017-ci ilin fevralında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilən Mehriban xanım Əliyevanın bu vəzifədə dövlətimizə, xalqımıza, cəmiyyətimizə verdiyi tarixi töhfələr idarəetmədəki bu yeniliyin nə qədər mütərəqqi xarakter daşıdığını və vaxtında atılmış addım olduğunu bir daha göstərir. 2016-cı il ümumxalq səsverməsindəki (referendumundakı) dəyişikliklər hakimiyyətlərarası münasibətlərin tənzimlənməsi, dövlət hakimiyyəti qollarının arasında səlahiyyətlərin daha dəqiq bölünməsi və icra orqanlarının fəaliyyətinin gücləndirilməsi baxımından da mühüm əhəmiyyət daşıyır.

Əsas Qanunumuzda 2002-ci ildə edilən dəyişikliklərə əsasən seçkilərin daha şəffaf və demokratik keçirilməsi üçün mexanizmlər təkmilləşdirilmiş, 2009-cu ildə prezidentlik müddətinin artırılması və iki dəfədən artıq seçilmə məhdudiyyətinin ləğv edilməsi ölkəmizdə siyasi sabitliyin təmin olunmasına, strateji inkişaf proseslərinin davamlılığına, ardıcıllığına əhəmiyyətli töhfələr vermişdir.

Müxtəlif dövrlərdə Azərbaycan Respublikası Konstitusiyasında edilən dəyişikliklər, o cümlədən mülkiyyət hüquqlarının gücləndirilməsi və sosial hüquqlarla bağlı əlavələr iqtisadi inkişafın dəstəklənməsinə də əhəmiyyətli töhfələr vermişdir. Eyni zamanda yeni nəsillə bağlı çağırışları nəzərə alaraq ümumxalq səsverməsi (refedendumu) ilə Konstitusiyaya dövlətin gənclər siyasətinin genişləndirilməsi və gələcək nəsillərin hüquqlarının qorunması ilə bağlı maddələr daxil edilmişdir. Bütün bunlar sayəsində 30 yaşlı Azərbaycan Konstitusiyası dünyanın ən təkmil, inkişaf reallıqlarına, dövlətin strateji inkişaf xəttinə uyğun əsas qanunlardandır.

## Ölkəmiz strateji hədəflərə doğru inamla irəliləyir

Konstitusiyanın preambulasında başlıca niyyət kimi qeyd edilmiş - Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması niyyətinin son illərdə Müzəffər Ali Baş Komandan İlham Əliyevin Liderliyi, ordumuzun gücü ilə tam reallaşdırılması isə Əsas Qanunumuzun 30 yaşına ən qiymətli tarixi töhfəsidir.

Bu başlıca niyyət 1995-ci ildə Konstitusiya layihəsi hazırlanarkən sənədin preambulasında xüsusi ifadə edilsə də, Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində torpaqlarımızın 20 faizinin 30 ilə yaxın işğal altında qalması Azərbaycan Respublikasının suveren hüquqlarının həmin ərazilərdə tətbiqinə imkan verməmişdir. Azərbaycan Respublikası Konstitusiyanın qəbulundan ötən illər ərzində Ermənistanın işğalçılıq siyasətinə son qoyulması və ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpa edilməsi dövlət rəhbərimizin müvafiq sərəncamında da qeyd edildiyi kimi, Azərbaycan xalqının milli ideyasının əsas məqsədlərindən birinə çevrilmiş, cəmiyyətimizin bütün resursları bu taleyüklü vəzifənin həllinə yönəldilmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistanın təxribatlarına cavab olaraq başlanmış Vətən müharibəsində tarixi qələbə və 2023-cü il sentyabrın 19-20-də həyata keçirilmiş uğurlu antiterror əməliyyatı nəticəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edilmiş, Azərbaycan Konstitusiyasının hüquqi qüvvəsi işğalın aradan qaldırıldığı bütün ərazilərdə bərqərar olmuşdur. Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 19 sentyabr tarixli 294 nömrəli sərəncamına əsasən, sentyabrın 20-si Azərbaycan Respublikasında Dövlət Suverenliyi Günü elan edilmişdir.

*"Bu gün Azərbaycan Respublikası xalqımızın milli maraqlarını rəhbər tutaraq, yeni reallıqlar şəraitində müstəqil siyasətini daha cəsarətlə, prinsipiallıqla davam etdirir, Konstitusiyanın tələblərinə və öz suveren hüquqlarına əsaslanaraq, qarşıda duran strateji hədəflərə doğru inamla irəliləyir" - 2025-ci ilin ölkəmizdə "Konstitusiya və Suverenlik İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamında vurğulanır.*

30 yaş insan ömrünün yetkin dövrüdür, fərd ömrün bu pilləsinə qədər əldə etdiyi bilik və bacarıqlar, həyat təcrübəsi, qurduğu çevrə ilə ömrün davamının ən böyük nailiyyətlərini yaratmağa başlayır. Azərbaycan Respublikası Konstitusiyasının qəbulundan ötən 30 il də müstəqil Azərbaycan dövlətinin ötən əsrin 90-cı illərinin ortalarından etibarən inkişafa doğru ilk kövrək addımlarını ataraq böyüməsi, yetkinləşməsi, möhkəmlənməsi və bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə gəlib çatdığı tarixinin ən qüdrətli çağlarından yeni bir strateji inkişaf mərhələsinə daxil olmasıdır.

Azərbaycan dövləti önümüzdəki mərhələni də dayanıqlı inkişafının daha bir möhtəşəm mərhələsinə çevirəcək, Konstitusiyamızın qəbulundan ötən növbəti onillikləri yeni-yeni tarixi nailiyyətlərlə qeyd edəcək.

**Alış QASIMOV,**
***Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq elmləri doktoru, professor***



# 29 yanvar bələdiyyə seçkiləri günüdür

## Bələdiyyə seçkilərinə hazırlıq davam edir

**Yanvarın 29-da keçiriləcək bələdiyyə seçkilərinə respublikamızın bütün ərazilərində geniş hazırlıq işləri görülür. Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında bildirib ki, bələdiyyə seçkiləri Azərbaycan ictimaiyyətində xüsusi maraq doğurur: "685 bələdiyyəyə 8071 üzv seçilməlidir. Adları bülletenlərə salınan namizədlərin sayı isə bundan iki dəfədən çox - 16 mindən artıqdır".**

Məzahir Pənahov qeyd edib ki, Azərbaycanda fəaliyyət göstərən 26 siyasi partiyanın 23-ü bələdiyyə seçkilərində öz namizədləri ilə fəal iştirak edir. Mərkəzi Seçki Komissiyasının sədri 9 qeyri-hökumət təşkilatının təmsilçilərinin həm namizəd, həm də müşahidəçi kimi qeydə alındığını bildirib.

Qarşıdan gələn bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəisi İlqar Musayev komissiyanın inzibati binasında yerləşən veb-kameralara texniki nəzarət mərkəzinə baxış keçirib, veb-kameraların quraşdırılması istiqamətində reallaşdırılan son hazırlıq işləri ilə tanış olublar.

Bələdiyyə seçkilərində veb-kameraların tətbiqini birgə layihə çərçivəsində və sıx əməkdaşlıq şəraitində gerçəkləşdirən qurumların rəhbərləri veb-kameraların quraşdırılması, tənzimlənməsi və seçki gününə tam hazır vəziyyətə gətirilməsi ilə bağlı atılan yekun addımlar barədə məlumatlandırılıb. Veb-kameraların seçkilərin şəffaflığının təmin olunmasındakı mühüm rolu danılmazdır. Bu fəaliyyəti yerinə yetirən mütəxəssislərlə söhbət zamanı bir daha diqqətə çatdırılıb ki, veb-kameraların quraşdırılması və tənzimlənməsi prosesində qanunvericiliyin tələblərinə dəqiqliklə əməl edilməsi vacibdir. Bununla bağlı zəruri tövsiyələr də verilib.

Media subyektləri nümayəndələrinin bilavasitə iştirakı ilə reallaşan tədbirdə jurnalistlər üçün brifinq də keçirilib. Brifinqdə bələdiyyə seçkiləri ilə bağlı tamamilə yekunlaşmaqda olan hazırlıq işlərinin gedişatı barədə məlumat verilib.

Azərbaycanda keçirilən seçkilərdə bütün digər vasitələrlə yanaşı, informasiya-kommunikasiya texnologiyalarının ən son innovativ nailiyyətlərindən geniş və səmərəli istifadə edilməklə, səsvermə günü aşkarlığın və şəffaflığın böyük miqyasda təminatına nail olunacağı qeyd edilib.

Respublikamızın seçki praktikasında uzun illərdir uğurla tətbiq edilən veb-kamera təcrübəsinin seçki günü səsvermə məntəqələrində proseslərin gedişinin internet üzərindən hamı üçün açıq platformada tam şəkildə, arasıkəsilmədən, eləcə də real vaxt rejimində dünyanın istənilən yerindən və heç bir qeydiyyat tələb




olunmadan müşahidə etmək imkanının yaradılmasına xüsusi diqqət yetirilir. Bu müxtəlif kateqoriyalı aşkarlıq institutlarının seçki prosesində rahat, asan iştirakı və sərbəst fəaliyyətləri üçün yaradılan hərtərəfli və geniş şərait deməkdir. Bu həm də Azərbaycanın seçkiləri şəffaf və demokratik keçirən öncül ölkələrdən biri olduğunu dünyaya göstərir.

Bildirilib ki, Mərkəzi Seçki Komissiyası veb-kameraların səsvermə günü aşkarlığın və şəffaflığın təmin olunmasındakı müstəsna rolunu nəzərə alaraq, qarşıdan gələn bələdiyyə seçkilərində 118 seçki dairəsi üzrə 1000 seçki məntəqəsində veb-kamera quraşdırılmasına qərar verib. Həmin məntəqələrin siyahısı rəsmi dərc edilib. Seçki günü internet istifadəçiləri istər ölkə daxilindən, istərsə də xaricdən Mərkəzi Seçki Komissiyasının rəsmi internet səhifəsinə daxil olaraq ən yüksək görüntü effektinə malik bu veb-kameralar vasitəsilə seçki məntəqəsindəki bütün prosesləri - səsverməni, səslərin sayılmasını və nəticələrin müəyyənləşdirilməsini canlı və fasiləsiz müşahidə edə biləcəklər.

Bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair tələblər qanunvericilikdə nəzərdə tutulmuş müddətdə Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiq edildikdən sonra - 2025-ci il yanvarın 11-dən etibarən seçki bülletenlərinin çapına başlanılıb. Komissiyanın qərarı ilə 6 milyon 52 min 721 seçki bülleteni çap edilib.

Seçki bülletenləri Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada dairə seçki komissiyalarına paylandıqdan sonra, səsvermə gününə azı 3 gün qalanadək dairə seçki komissiyalarından məntəqə seçki komissiyalarına veriləcək.

Qeyd edək ki, artıq yanvarın 29-da keçiriləcək bələdiyyə seçkiləri ilə əlaqədar seçki bülletenlərinin dairə seçki komissiyalarına paylanmasına başlanılıb.

Mərkəzi Seçki Komissiyasının üzvləri, katibliyin əməkdaşları, o cümlədən müvafiq dairə seçki komissiyalarının sədr və katiblərinin də iştirakı ilə reallaşdırılan proses açıq və şəffaf şəkildə həyata keçirilir, müşahidəçilər, media nümayəndələri və maraqlı seçki subyektlərinin bülletenlərin paylanmasını yaxından izləyə bilmələri üçün hər cür şərait yaradılır.

İlk gün - yanvarın 22-də seçki bülletenləri Naxçıvan Muxtar Respublikasındakı seçki dairələrinə və respublikanın ucqar bölgələrini əhatə edən seçki dairələri də daxil olmaqla, ümumilikdə 54 seçki dairəsinə çatdırılıb. Sonrakı gün isə seçki bülletenləri ölkənin digər bütün seçki dairələrinə təhvil verilib.

Bildiyimiz kimi, seçki bülletenləri yüksək təhlükəsizlik şəraitində hazırlanır, dairə seçki komissiyalarına verildikdən sonra onların daşınması, saxlanması və məntəqə seçki komissiyalarına paylanması prosesinin mühafizəsi Daxili İşlər Nazirliyinin aidiyyəti qurumları tərəfindən həyata keçirilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## 99 saylı Bərdə seçki dairəsində keçirilən maarifləndirici treninqlər başa çatıb

**Yanvarın 29-na təyin edilmiş bələdiyyə seçkilərinə hazırlıqla əlaqədar 99 saylı Bərdə seçki dairəsində aşağı seçki komissiyalarının üzvləri üçün keçirilən maarifləndirici treninqlər başa çatıb.**

Dairə Seçki Komissiyasının sədri Dilsuz Nəcəfov AZƏRTAC-ın bölgə müxbirinə bildirib ki, treninqlərə 99 saylı seçki dairəsinin 58 məntəqəsi üzrə, ümumilikdə, aşağı seçki komissiyalarının 348 üzvü cəlb edilib. Treninqlər Mərkəzi Seçki Komissiyasının (MSK) təşkil etdiyi təlim kurslarında iştirak etmiş Müşfiq Əliyev və Şölə Abdullayeva tərəfindən aparılıb. Gün ərzində iki dəfə olmaqla keçirilən treninqlər zamanı iştirakçılara slaydların köməyi ilə seçki məntəqələrinin səsverməyə hazırlanması, səsvermə günü prosedurları, səslərin hesablanması, səsvermənin nəticələri haqqında protokolun doldurulması və digər məsələlər barədə metodiki məlumat və tövsiyələr verilib, komissiya üzvlərinin sualları cavablandırılıb. Aşağı seçki komissiyası üzvlərinə Mərkəzi Seçki Komissiyası tərəfindən hazırlanan "Seçki günü üçün yaddaş" kitabçası, eləcə də səsvermənin nəticələri haqqında protokol nümunəsi və bir sıra digər zəruri metodiki vəsaitlər, əyani materiallar da təqdim olunub.



Qeyd edək ki, 99 saylı Bərdə seçki dairəsi üzrə 7 bələdiyyəyə, ümumilikdə, 81 üzv seçiləcək. Qeydə alınan namizədlərin sayı 157 nəfərdir.

# "Kənd iqtisadiyyatının sütunu"

## Bu, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının fermer qadınlara verdiyi qiymətdir

**Kənd əhalisinin çörəyi əkin-biçindən və mal-qaradan çıxır. Bunun üçün onlar, adətən, kiçik təsərrüfatlar yaradır, ailəliklə həmin təsərrüfatlarda çalışırlar. Buna ödənişli məşğulluq deyil, özünüməşğulluq forması desək, daha doğru olar. Ona görə də kənd təsərrüfatı müəssisələrində çalışanlar arasında qadınlar sayca az olmurlar. Təsadüfi deyil ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) aqrar sahədə çalışan qadınları "kənd iqtisadiyyatının sütunu" adlandırır.**

Bu gün vacib məsələlərdən biri kənd iqtisadiyyatının sütunu olan həmin qadınların iqtisadi və sosial həyatda fəal iştiraklarını təmin etməkdir. O səbəbdən Azərbaycanda əhalinin dörddəbirini təşkil edən kənd qadınlarının sosial və iqtisadi həyatda iştirakına dövlət tərəfindən böyük önəm verilir. Bunun sayəsində çoxlu sayda fermer qadın var ki, onlar öhdələrinə götürdükləri işin ağırlığını və məsuliyyətini dərk edib yüksək nəticə əldə edirlər.

Məlum faktdır ki, bir çox hallarda bölgələrdə qadınlar yüksək vəzifələr tuta bilmirlər. Ona görə də kənd təsərrüfatı işləri ilə məşğul olmağa üz tuturlar. Digər sahibkarlıq forması kimi, fermer təsərrüfatı da yeniliyi və yaradıcılığı özündə birləşdirən bir sahə kimi dəyər yaradır. Həmin dəyər qadınların əlində olanda isə daha gərəkli olur.

Kənd qadınlarının fermer təsərrüfatlarını inkişaf etdirmək üçün Azərbaycan dövləti, QHT-lər və beynəlxalq təşkilatlar hər zaman onlara dəstək verirlər. Fermer qadınlar üçün ilk milli platforma olan Azərbaycan Kənd Qadınları Assosiasiyası (AKQA) kənd qadınlarına təşkilatlanmaq, daha çox məhsul istehsal etmək, onları realizə edərək qazanmaq, fermer təsərrüfatı qurmaq üçün yardım edir. FAO isə fermer qadınlar üçün dövlət və özəl xidmət təminatçıları arasında vasitəçi rol oynayır. O, Azərbaycan hökuməti ilə əməkdaşlıq edərək meyvə ağaclarının və tərəvəzlərin becərilməsi, maldarlıq, quşçuluq və digər sahələrdə qadın fermerlərə innovativ texnologiyalar vasitəsilə biliklərini və əkinçilik təcrübələrini təkmilləşdirmək üçün dəstək verir.

Xatırladaq ki, hələ 2019-cu ildə ölkəmizdə "Aqrar fəaliyyətli Azərbaycan qadınları" (AFAQ) layihəsinə start verilmişdir. Layihə qadınların kənd təsərrüfatına əsaslanan biznes fəaliyyətlərini inkişaf etdirmək üçün informasiya əldə etmələrinə, həm özlərinin, həm də ailələrinin və kənd icmalarının sosial rifahının yaxşılaşmasına imkan yaradır. Dövlət Aqrar Ticarət Şirkətinin layihəsi olan AFAQ "PAŞA Holding"in dəstəyi ilə həyata keçirilir. Bu layihədə AFAQ-ın məqsədi aqrar sahədə qadınların məşğulluğunu və resurs imkanlarını artırmaq, eləcə də satış bazarlarına çıxışını asanlaşdırmaq, bununla da qadınların sosial-iqtisadi rifahının yaxşılaşdırılmasına dəstək olmaqdır. Kənd təsərrüfatı sahəsində öz biznesini qurmaq istəyən qadın fermerlərin formalaşdırılması, qadınlar üçün kiçik istehsal müəssisələri və istixanaların yaradılması da AFAQ layihəsinə daxildir.

Sırf qadın təşkilatı olan AFAQ-a qoşulan qadın fermerlər peşəkar mütəxəssislərdən faydalı məsləhətlər əldə etməklə öz təsərrüfatlarını yarada və inkişaf etdirə bilərlər. Üstəlik, layihəyə qoşulan qadın fermerlər digər AFAQ-çılarla bilik və təcrübə mübadiləsi etmək imkanı qazanırlar. Bu qazancda dövlətin rolu yetərincədir. Ölkədə bu istiqamətdə həyata keçirilən çoxsaylı layihələr çoxdan özünü doğruldur.

AFAQ layihəsi çərçivəsində Azərbaycanda qadınların sahibkarlıq fəaliyyətinin təşviqi məqsədilə icra olunan dəstək tədbirləri 2024-cü ildə də davam edib. Ötən il 14 rayondan 378 qadın fermerə quşçuluq, heyvandarlıq, tingçilik, qida sahəsində gigiyena, biznes istiqamətləri üzrə təlimlər keçirilib. Təlim kriteriyalarına cavab verən Ağcabədi rayonu üzrə 11, Ağsu rayonu üzrə 6, Bərdə rayonu üzrə 10, Gəncə şəhəri üzrə 10, İsmayıllı rayonu üzrə 8, Kürdəmir rayonu üzrə 9, Şəki rayonu üzrə 5, Tərtər rayonu üzrə 6, Tovuz rayonu üzrə 21, Zəngilan rayonu üzrə 14 qadın olmaqla ümumilikdə 100 fermerə əkinçilik, arıçılıq, heyvandarlıq və quşçuluq istiqamətlərində müvafiq avadanlıqlar və aktivlərlə dəstək verilib.

Ötən il AFAQ tərəfindən Ağcabədi, Ağsu, Bakı, Lənkəran, Bərdə, Kürdəmir, Zəngilan, Tovuz rayonlarından və Gəncə şəhərindən layihəyə müraciət etmiş 65 fermerin təsərrüfatına baxış da keçirilib. Ağdam, Tərtər, Göygöl, Bərdə, Beyləqanda isə əvvəlki illərdə avadanlıqlarla əvvəl dəstək verilmiş 64 təsərrüfatda monitorinq aparılıb. Ümumilikdə AFAQ layihəsi çərçivəsində 338 təsərrüfatın qiymətləndirilməsi aparılıb, 834 qadın fermerə təlimlər keçirilib, 26 rayon üzrə 286 qadına avadanlıqlar və aktivlər təqdim olunub.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin Aparatında 2025-ci ilin fevral ayında vətəndaşların qəbulu CƏDVƏLİ

| Vəzifəli şəxs | Qəbul günü |
|---|---|
| **Əli Cavad oğlu ƏHMƏDOV**<br>Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini | 3 |
| **Ziyafət Abbas oğlu ƏSGƏROV**<br>Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini | 12 |
| **Musa Cəfər oğlu QASIMLI**<br>Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini | 5 |
| **Rafael Baba oğlu HÜSEYNOV**<br>Azərbaycan Respublikası Milli Məclisi sədrinin müavini | 13 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ**<br>Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 4 |
| **Arzu Nəsib oğlu NAĞIYEV**<br>Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 10 |
| **Zahid Məhərrəm oğlu ORUC**<br>Milli Məclisin İnsan hüquqları komitəsinin sədri | 19 |
| **Sadiq Haqverdi oğlu QURBANOV**<br>Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 7 |
| **Azər Kamal oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 11 |
| **Tahir Musa oğlu RZAYEV**<br>Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 14 |
| **Musa İsa oğlu QULİYEV**<br>Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 17 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV**<br>Milli Məclisin Səhiyyə komitəsinin sədri | 24 |
| **Hicran Kamran qızı HÜSEYNOVA**<br>Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 20 |
| **Şahin Əmir oğlu İSMAYILOV**<br>Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 18 |
| **Fazil Qəzənfər oğlu MUSTAFA**<br>Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 21 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV**<br>Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 27 |
| **Anar Camal oğlu İSGƏNDƏROV**<br>Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 25 |
| **Polad BÜLBÜLOĞLU**<br>Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 26 |
| **Səməd İsmayıl oğlu SEYİDOV**<br>Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 7 |
| **Eldar Rza oğlu İBRAHİMOV**<br>Milli Məclisin İntizam komissiyasının sədri | 10 |
| **Fərid Famil oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 6 |
| **Firudin Süleyman oğlu HACIYEV**<br>Azərbaycan Respublikası Milli Məclisinin İşlər müdiri | 11 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD**<br>Milli Məclis Aparatının Dövlət quruculuğu, inzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 21 |
| **Məhəmməd İmran oğlu BAZIQOV**<br>Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 25 |
| **Adil İsrayıl oğlu VƏLİYEV**<br>Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 28 |
| **Şakir Himalay oğlu ŞABANOV**<br>Milli Məclis Aparatının İcra hakimiyyəti orqanları ilə əlaqələr şöbəsinin müdiri | 18 |
| **Ayan Zəfər qızı MURTUZOVA**<br>Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 14 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Qəbul otağında qəbul olunur.**

**Ünvan: Bakı şəhəri, Parlament prospekti 1.**

**"Vətəndaşların müraciətləri haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərini təmin etmək məqsədilə;**

**Qəbul vaxtı: saat 14:00-dan başlayır.**

**Qəbul günü qəbula yazılmaq imkanı saat 12:00-da dayandırılır.**

**Qəbula bir gün qalmış elektron qeydiyyat dayandırılır.**

**Azərbaycan Respublikasının Milli Məclisinə qəbula dəvət olunan vətəndaşlar şəxsiyyət vəsiqəsini təqdim edir.**

**Telefonlar: (012) 510-99-38; (012) 510-89-14; (012) 492-74-05.**

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Avropa İttifaqının növbəti məkrli oyunu

### "Binokl diplomatiyası"nı hərbiləşdirmək niyyəti Ermənistana baha başa gələ bilər

**Avropa İttifaqı Cənubi Qafqazda sabitliyi pozmaq üçün üzərinə götürdüyü "öhdəliyi" yerinə yetirə bilmədiyi üçün "binokl diplomatiyası"nı həyata keçirən missiyasının müddətini uzadır. Bu il yanvarın 10-da Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın mətbuat xidməti məlumat verərək demişdi ki, Brüssel Aİ-nin Ermənistandakı missiyasının müddətini uzatmaq niyyətindədir. Bundan sonra üzv dövlətlər bu təklifi alqışladılar və hazırda Aİ Şurasının müvafiq orqanları ilə zəruri hüquqi aktları müzakirə edirlər. Şuranın müddətinin uzadılması ilə bağlı qərarının yaxın günlərdə qəbul ediləcəyi gözlənilir.**



Bu günlərdə "Caliber.Az" saytına etibarlı mənbələrdən daxil olan məlumata görə, yanvarın 27-də "kəşfiyyat" missiyasının mandatı daha iki il müddətinə uzadılacaq. Prinsipial qərar artıq qəbul edilib. Lakin məsələ bununla bitmir. Görünən odur ki, Brüsseldə bu missiyanın təkcə kəşfiyyat funksiyalarının kifayət etmədiyi qənaətinə gəlinib və buna görə də ona hərbi funksionallıq əlavə edilməli olduğu düşünülüb. Saytın əldə etdiyi məlumata əsasən, missiyanın mandatının genişləndirilməsi yalnız kəşfiyyat xarakterli deyil, tamhüquqlu hərbi nümayəndəliyə çevrilməsinə səbəb ola biləcək yeni elementləri əhatə edəcək.

Bu da onu deməyə əsas verir ki, Qərbin hərbi bölmələri Ermənistan-Türkiyə və Ermənistan-İran sərhədləri boyunca yerləşdirilə bilər. Faktlar təsdiq edir ki, Cənubi Qafqazda yaranan yeni reallıqları qəbul etmək istəməyən Avropa İttifaqı destruktiv fəaliyyətini davam etdirir.

İkinci Qarabağ müharibəsindən dərhal sonra regiona yerləşmək üçün mənfur planlar cızan Aİ bu məqsədlə dırnaqarası mülki müşahidə missiyasını Azərbaycanla Ermənistan sərhədinə yerləşdirib. 2022-ci ilin dekabrından qısa müddətlik zaman ərzində fəaliyyət üçün işə başlayan bu missiya Azərbaycanın razılığı olmadan hazırda bölgədə "fəaliyyətdədir".

Yanvarda yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev məhz bu məsələyə toxunaraq qeyd etdi ki, əgər həmin vaxt bunun iki aylığına və 40 nəfərdən ibarət olacağı barədə razılığa gəlindisə, deməli, bu, belə də olmalı idi: "Mən razılığa gəldikdə, hətta sözdə də olsa, həmişə bu razılaşmalara əməl edirəm. Amma belə bir vəziyyətdə Avropada hesab etdilər ki, onlar həmin razılaşmaları pozmaq hüququna malikdirlər. Sonra heç nə bildirmədən, bizimlə heç bir razılıq olmadan onlar nəinki bu missiyanın müddətini uzatdılar, sayını artırdılar, həm də Avropa İttifaqının üzvü olmayan ölkəni dəvət edərək mahiyyətcə etimadı qırdılar".

İkinci Qarabağ müharibəsindən sonra bölgədə tələb olunan sülh, sabitlik və əməkdaşlıq mühitinin yaradılmasıdır. Fransa başda olmaqla bir çox Aİ ölkələri isə açıq-aydın buna qarşı çıxırlar. 2023-cü ilin fevralında Aİ müşahidəçiləri Ermənistana yerləşəndə dedilər ki, bu, İrəvanla Bakı arasında münasibətlərin normallaşmasına töhfə vermək üçündür. Lakin sonradan göründü ki, Aİ-nin niyyəti tam başqadır.

Müxtəlif yollarla Ermənistanı silahlandıran Qərb təsisatları bölgədə yeni münaqişə ocağının yaranması üçün hər vasitəyə əl atırlar. Eyni zamanda bununla da Azərbaycanı qıcıqlandırmaq istəyirlər.

Əslində, hər şey Azərbaycana yaxşı məlumdur. Ermənistanın silahlandırılması prosesi Avropa Sülh Fondu vasitəsilə Avropanın hərbi iştirakının artırılması ilə müşayiət olunur. Məlumdur ki, Aİ-nin qurucu üzvlərindən olan Fransa 44 günlük müharibədən dərhal sonra Ermənistanı sürətlə silahlandırmağa başlayıb. Məqsəd bölgədə yenidən münaqişə ocağı alovlandırmaqdır. Əslində, bu məkrli planın Ermənistanı dövlət olaraq məhvə sürüklədiyi də Emmanuel Makron hökumətinin eyninə deyil. Yəni Fransa idarəçiliyində Aİ-nin Cənubi Qafqazdakı qanlı ssenarisi üçün Ermənistan qurban seçilib.

Bütün bunlar Ermənistanda revanşist qüvvələrə dəstək verən və işğalçı dövləti yeni müharibəyə sövq edən Fransanın regionda sülh prosesinə zərbə vurmaq istiqamətində atdığı növbəti addımdır. Təəssüf ki, bunun hansı nəticələrə gətirib çıxaracağını Ermənistan hələ də dərk etmək istəmir. Fransa isə Ermənistanı hansı bəlalara sürüklədiyini nəzərə almır. İstər 44 günlük müharibə olsun, istərsə də sonrakı illərdə birtərəfli qaydada Ermənistanın yanında duran Fransa anti-Azərbaycan siyasətində Ermənistandan getdikcə daha çox istifadə etməyə çalışır. Buna müvafiq olaraq rəsmi Paris Ermənistanın silahlandırılmasını özünün əsas xarici siyasət kursu elan edib. Fransanın Ermənistanı silahlandırması, onu müasir hərbi-sənaye məhsulları ilə təmin etməsi Cənubi Qafqazda vəziyyəti gərginləşdirməkdə, hərbi qarşıdurma ehtimalını artırmaqdadır.

Proseslərin gedişi göstərir ki, Aİ-nin "binokl diplomatiyası"nın bir neçə əsas məqsədi var. Birincisi, Aİ bu missiyadan Cənubi Qafqaza soxulmaq üçün istifadə edir. İkincisi, Ermənistanı öz təsiri altında saxlayır. Üçüncüsü, Rusiyanın Ermənistan üzərindəki təsirini zəiflədir. Dördüncüsü, mümkündür ki, Aİ bu missiya vasitəsilə Ermənistana təhlükəsizlik təminatı verməklə yanaşı, həm də gizli təlimlər keçir. Hər halda Aİ-nin, o cümlədən onun əsas üzvlərindən biri olan rəsmi Parisin ritorikası bu ehtimal barədə düşünməyə əsas verir.

Bütün hallarda regionda gərginlik yaratmaq istəyən dairələr anlamalıdırlar ki, Azərbaycan 2020-ci ildəkindən indi daha güclüdür. Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirə bilmədiyi döyüş tapşırığı yoxdur. Azərbaycana qarşı istənilən təxribata cavab veriləcək və məkrli oyunların hamısı bumeranq effekti verəcək. Xüsusən də Fransanın "canfəşanlığının" heç bir nəticəsi olmayacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

## Azərbaycan Fransanın neokolonial siyasətini ifşa edir

**"Azərbaycan dünyada müstəmləkəçiliyə qarşı mübarizə aparan əsas dövlətlərdən biridir. Artıq bir neçə ildir ki, ölkəmiz neokolonializmə qarşı mübarizəni prioritetlərdən biri elan edib. Ölkəmiz beynəlxalq müstəvidə atdığı hər bir addımla sübut edib ki, müstəmləkəçiliyin, siyasi, iqtisadi, mənəvi istismarın hər cür təzahürünə qarşıdır və dünyanın harasında baş verməsindən asılı olmayaraq, bu cür neqativ halların aradan qaldırılmasına çalışır".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, Fransanın neokolonial siyasətinə qarşı Azərbaycanın liderliyi ilə başlanan mübarizə Parisdə ağrılı bir şəkildə qəbul olunur. Buna qarşı çıxmaq məqsədilə Fransanın atdığı bütün addımları fiasko ilə nəticələnib. Azərbaycan isə Fransanın müstəmləkə ərazilərində törətdiyi cinayətlərin müvafiq hüquqi qiymətini alması, koloniya zülmü altında yaşayanların öz azadlığına qovuşması istiqamətində fəaliyyətini davam etdirməkdə qətiyyətlidir. Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bununla bağlı qeyd edib: "Azərbaycan cəmiyyəti artıq öz mövqeyini ortaya qoyub və Bakı Təşəbbüs Qrupunun fəaliyyəti ildən-ilə genişlənir, böyüyür. Yenə də deyirəm, əgər bu proses müəyyən səbəblər üzündən başlamışdırsa, bu gün bu, artıq həyatımızın bir parçasıdır və xüsusilə bu ərazilərin nümayəndələri ilə görüşmək, onların dilindən problemlərini eşitmək, onların gözündə bu həsrəti, bu tükənmiş ümidləri görmək həm ağırdır, həm də ki, çox tanışdır. Çünki biz də uzun illər təxminən eyni vəziyyətdə idik. Biz müstəqil olmayan dövrdə müstəqillik eşqi ilə yaşamışıq, hər halda cəmiyyətimizin böyük qismi. Biz müstəqillik əldə etdik və dərhal işğala məruz qaldıq, hətta ondan qabaq. Bu ədalətsizlik elə həyatımızın bir parçası idi və biz bu ədalətsizlikdən canımızı xalqımızın iradəsi ilə qurtardıq. Amma bu xalqlar faktiki olaraq heç bir kütləvi informasiya vasitələrinə çıxış əldə edə bilmirlər..."

K.Bayramov diqqətə çatdırıb ki, hazırda Bakıdan başlayan beynəlxalq təşəbbüs, daha dəqiq desək, neokolonializmə qarşı "Bakı Təşəbbüsü" öz bəhrəsini verməkdədir. Yanvarın 21-də Azərbaycan növbəti dəfə mötəbər beynəlxalq tədbirə sahiblik etdi. Bakıda Fransanın müstəmləkəçiliyi altında olan Reyunyon adasına həsr edilmiş "Reyunyonun müstəqilliyi: Fransanın müstəmləkə mirasına və suverenlik yoluna baxış" mövzusunda beynəlxalq konfrans keçirildi. Bakı Təşəbbüs Qrupunun təşkilatçılığı ilə keçirilən tədbirdə müstəqillik uğrunda mübarizə aparan Reyunyon xalqının təmsilçiləri, habelə müstəmləkəçilik əleyhinə fəaliyyət göstərən təşkilatların rəhbərləri, hüquq müdafiəçiləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, dekolonizasiya üzrə ekspertlər və tədqiqatçılar iştirak etdilər. Qeyd edək ki, Reyunyon adası 1500-cü illərin əvvəllərində portuqaliyalı səyyahlar tərəfindən kəşf edilib. Ada 1642-ci ildə XIV Lüdovikin dövründə fransızlar tərəfindən ələ keçirilib və Burbon adası adlandırılıb. Üç il sonra isə burada ilk daimi koloniya qurulub.

Deputat qeyd edib ki, Reyunyon adasında müstəmləkəçilik irsi iqtisadi, siyasi və sosial sahələrdə öz təsirini davamlı şəkildə hiss etdirir: "Fransanın adadakı dominant mövqeyi və güclü təsir mexanizmləri yerli xalqın siyasi və iqtisadi müstəqilliyə nail olmaq uğrunda göstərdiyi səylərə ciddi maneələr yaradır. İqtisadi sahədə bu təsir adanın xarici ticarət və investisiyalar baxımından Fransadan yüksək dərəcədə asılı olması, yerli istehsalın zəifləməsi və işsizlik səviyyəsinin artması kimi məsələlərdə özünü göstərir. Siyasi sahədə isə Fransa tərəfindən tətbiq olunan idarəetmə modelləri və institusional mexanizmlər Reyunyon xalqının öz müqəddəratını təyinetmə hüququnu məhdudlaşdırmaqla yanaşı, onların qərarvermə prosesində iştirakını da minimuma endirir".

K.Bayramov xatırladıb ki, konfransda "Ka Ubuntu" Müstəqillik hərəkatının Reyunyon bölməsinin koordinatoru Benjamin Klement bildirib ki, reyunyonlular ada torpaqlarının öz sahiblərinə - xalqa qaytarılmasını tələb edirlər. Qeyd edilənlər fonunda Azərbaycanın Reyunyon xalqına da öz azadlığına qovuşması üçün bütün lazımi dəstəyi bundan sonra da verəcəyini indi Fransada da yaxşı bilirlər. Bu hal həm də Fransanın müstəmləkə siyasətinə vurulan növbəti zərbə hesab olunur. Hesab edirik ki, bu tədbir Reyunyon xalqının öz gələcəyini müstəqil şəkildə müəyyən etməsi üçün beynəlxalq dəstəyin vacibliyinə dair çağırış platforması rolunu oynayacaq.

Yanvarın 23-24-də Kanakidə (Yeni Kaledoniya) Fransa müstəmləkəsi olan əraziləri özündə birləşdirən Beynəlxalq Dekolonizasiya Cəbhəsinin bu ilin ilk konqresi keçirildiyini diqqətə çatdıran deputat deyib ki, tədbirdə Yeni Kaledoniya, Fransız Polineziyası, Martinik, Qvadelupa, Fransız Qvianası və Korsikanın müstəqilliyi uğrunda mübarizə aparan parlamentarilər, siyasi partiyaların liderləri, qeyri-hökumət təşkilatlarının rəhbərləri, ictimai hərəkatların başçıları və digərləri iştirak ediblər. Konqres iştirakçıları Yeni Kaledoniyanın Adət-Ənənə Senatını, Yeni Kaledoniyanın müstəqilliyi uğrunda mübarizə aparan əsas siyasi qüvvə - Kanak və Sosialist Milli Azadlıq Cəbhəsinin (FLNKS) iqamətgahını və yeni kaledoniyalı siyasi məhbuslara dəstək kollektivini ziyarət edib, müzakirələr aparıblar. Bakı Təşəbbüs Qrupunun nümayəndəsinə isə viza verilməməsi səbəbindən təşkilat sözügedən konqresdə iştirak edə bilməyib. Xatırladaq ki, Beynəlxalq Dekolonizasiya Cəbhəsi 2024-cü ilin iyulunda Bakı Təşəbbüs Qrupunun dəstəyi ilə Bakıda Fransanın son koloniyalarının nümayəndələri tərəfindən yaradılıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Ermənistanın multietniklik qorxusu

### Bu ölkənin Qərbi Azərbaycan məsələsinə yanaşması onun faşizm siyasəti yürütdüyünü göstərir

**Faşizm ideologiyası üzərində qurulan qondarma dövlət olan Ermənistan irqçi siyasətini günümüzə qədər davam etdirir. Milli nifrət zəminində tarixin müxtəlif dönəmlərində azərbaycanlılara qarşı kütləvi deportasiya, qətliam həyata keçirmiş erməni şovinistləri 1980-ci illərin sonlarında yüz minlərlə soydaşımızı tarixi yurdlarından didərgin salaraq hədəflədikləri monoetnik dövlət planlarını başa çatdırıblar.**

Birinci prezident Levon Ter-Petrosyandan Robert Köçəryana, Serj Sarkisyana qədər bu qondarma dövlətin başında oturanların hər biri əlləri azərbaycanlıların qanına batmış qatil və faşistlərdir. Tarixi ərazilərindən zor gücü ilə qovulan, min bir zillətə düçar olan qərbi azərbaycanlıların yurdlarına dönməsinə əngəl olan, insan haqlarının, beynəlxalq hüququn tələbi olan bu qayıdışa məkrli don geyindirən Nikol Paşinyan da sələflərindən heç də geri qalmadığını, eyni irqçi siyasəti davam etdirdiyini göstərir.

### İrqçi zehniyyət

Baş nazir Nikol Paşinyan hər nə qədər özünü dünyaya "demokratik lider", "sülh göyərçini" kimi sırımağa çalışsa da, görünən dağa bələdçi lazım deyil. Yüz minlərlə azərbaycanlının insan haqlarını heçə sayması, onların qayıdış hüquqlarını təmin etməməsi Paşinyanın da irqçi zehniyyətindən xəbər verir.

Etnik təmizləməyə məruz qalmış qərbi azərbaycanlıların qayıdışına şərait yaratmaq əvəzinə Paşinyan hökuməti bu məsələni guya Azərbaycanın Ermənistana ərazi iddiası kimi qələmə verərək ölkəmizə şər və böhtan atır. Belə ki, bu il yanvarın 23-də dərc etdiyi illik hesabatında Ermənistan Xarici Kəşfiyyat Xidməti Qərbi Azərbaycan mövzusunu hərbi-siyasi risk kateqoriyasına aid edib.

"Etnik təmizləməyə məruz qalmış qərbi azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində sülh yolu ilə, təhlükəsiz şəraitdə və ləyaqətli şəkildə öz evlərinə qayıtmaq arzularını təhlükəsizlik riski kimi təqdim etmək bu haqq işini təhrif etməyə xidmət göstərir və Ermənistanın multietnikliyi özünə təhdid kimi gördüyünü sübuta yetirir. Ermənistanın bu yanaşması onun onilliklərdən bəri yürütdüyü irqçi siyasətinin davam etdiyini göstərir", - deyə Qərbi Azərbaycan İcması məsələ ilə bağlı bəyanat verib.

Bəyanatda həmçinin deyilir: "Qərbi Azərbaycan İcması Ermənistan hökumətinin irqçi siyasətini sərt şəkildə qınayır və ondan qərbi azərbaycanlıların qayıdış hüququnu təmin etməyi tələb edir".

### Tarixin qanlı səhifələri

Azərbaycan xalqı ötən iki əsr ərzində silahlı münaqişələr, işğal, etnik təmizləmə, zorla köçürülmə və soyqırımlardan böyük əziyyət çəkib. Azərbaycanlıların vaxtilə mütləq əksəriyyət təşkil etdiyi indiki Ermənistan ərazisindən tamamilə qovulması 1991-ci ildə başa çatıb. Aparılmış etnik təmizləmə nəticəsində indi həmin ərazidə müstəsna olaraq ermənilər yaşayır. Azərbaycanlılara qarşı törədilmiş etnik təmizləmə əksər hallarda dövlət orqanlarının sistemli fəaliyyəti ilə zorakılıq, soyqırımı, kütləvi qətliam və insanlıq əleyhinə digər cinayətlər və insan hüquqlarının kobud pozulması yolu ilə həyata keçirilib. Bu proses 1905-1906, 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə xüsusilə şiddətli və amansız olub. Zəngəzur daxil olmaqla azərbaycanlıların üstünlük təşkil etdiyi bir çox bölgələri Ermənistana vermiş və yüz min azərbaycanlının Ermənistandan deportasiyası barədə irqçi qərara imza atmış SSRİ-nin bədnam rəhbəri İosif Stalinin və Ermənistan SSR-in 1987-1991-ci illərdə törətdiyi əməllərin nəticələri hələ də qalmaqdadır.

Ermənistan adlanan ərazidə azərbaycanlılara məxsus olan tarixi və mədəni irs, o cümlədən məscidlər və qəbiristanlıqlar kütləvi şəkildə dağıdılıb, yer adları dəyişdirilib, azərbaycanlılara qarşı sistematik xarakterli irqi ayrı-seçkilik həyata keçirilib.

Faktdır ki, zamanla əzəli torpaqlarımıza hiylə və zorla yiyələnən ermənilər özlərinə saxta tarix uydurmaq üçün həm də qədim toponimlərimizə qənim kəsiliblər. Yer adlarımızı dəyişdirib uydurma erməni adları quraşdırıblar, bəzən isə türk dilində mövcud olan yer adlarını erməniсəyə çeviriblər.

Qərbi Azərbaycan toponimlərinin tarixi faktlarla araşdırılması, qədimdə var olduğu kimi bərpa edilməsi də qarşımızda duran vacib hədəflər sırasındadır.

### Bu məsələ artıq beynəlxalq gündəlikdədir

İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların tarixi yurdlarına qayıdışının təmin edilməsi məsələsi həm də beynəlxalq gündəlikdə saxlanılır və bu istiqamətdə ardıcıl iş aparılır. Yanvarda yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev də vurğuladı ki, bu vacibdir. Həm beynəlxalq leksikona, həm beynəlxalq gündəliyə artıq bu məsələ salınmışdır: "Bundan sonra, əlbəttə ki, bizim həm qeyri-hökumət təşkilatlarının, həm dövlətin fəaliyyəti ondan ibarət olacaq ki, qərbi azərbaycanlılar öz dədə-baba torpaqlarına, orada yaşadıqları kəndlərə, şəhərlərə qayıda bilsinlər və orada yaşasınlar. Bu, bütün beynəlxalq norma və prinsiplərə uyğun olan bir tələbdir".

1989-cu ildən fəaliyyət göstərən Azərbaycan Qaçqınlar Cəmiyyəti İctimai Birliyinin adı 2022-ci ildə dəyişdirilərək Qərbi Azərbaycan İcmasına çevrilib, icmanın yeni nizamnaməsi təsdiq olunub.

Qərbi Azərbaycan İcması "İndiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə geriyə qayıtmasının təmin edilməsi barədə konsepsiya - Qayıdış konsepsiyası"nı qəbul edib.

Konsepsiyaya görə, icma Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar üzrə Beynəlxalq Paktda, Qaçqınların Statusuna dair Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıtmaq hüququna əsaslanmaqla indiki Ermənistan ərazisindən qovulmuş azərbaycanlıların öz yurdlarına qayıtmalarına şərait yaradılmasını və oraya qayıtdıqdan sonra onların fərdi və kollektiv hüquqlarının təmin edilməsini özünün əsas hədəfi kimi bəyan edir.

### Soydaşlarımızın yurd həsrəti bitəcək

Ermənistan Xarici Kəşfiyyat Xidmətinin illik hesabatında qərbi Azərbaycan mövzusunun hərbi-siyasi risk kateqoriyasında verilməsi faktının özü də göstərir ki, İrəvan qərbi azərbaycanlıların beynəlxalq hüquq çərçivəsində tarixi yurdlarına qayıdışına qətiyyən razı deyil. Bu prosesi təhlükəsizlik riski kimi təqdim etməklə manipulyasiyaya əl atan Ermənistanın əsl məqsədi Azərbaycanı "təcavüzkar", regionda təhlükəsizliyə xələl gətirən "aqressor" kimi göstərərək beynəlxalq ictimaiyyətdə çaşqınlıq yaratmaq, diqqətləri əsl həqiqətlərdən yayındırmaqdır. Ancaq bütün bu çirkin cəhdlər faydasızdır. Ermənistana qarşı heç bir ərazi iddiası olmayan Azərbaycan dədə-baba torpaqlarından qovulan yüz minlərlə insanın qayıdış hüququnun beynəlxalq norma və prinsiplərə uyğun şəkildə təminini tələb edəcək. Dövlətimizin tarixi ədalətin bərpasına yönəlmiş qətiyyətli siyasəti Qərbi Azərbaycandan olan soydaşlarımızın da yurd həsrətinə son qoyacaq.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin fevral ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | **Əhmədov Əli Cavad oğlu** | 03 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 24 (Bakı şəhəri) | Rəşadət Xalıqov<br>+99450 263 5318<br>25sayli_sd@meclis.gov.az |
| 2. | **Əsgərov Ziyafət Abbas oğlu** | 12 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15 (Naxçıvan MR, Şərur rayonu)<br>23 (Naxçıvan MR, Sədərək rayonu) | Günay Orucova<br>+99451 641 9841<br>1sayli_sd@meclis.gov.az |
| 3. | **Qasımlı Musa Cəfər oğlu** | 05 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 27 (Yardımlı rayonu) | Adil Mustafayev<br>+99450 676 3526<br>75sayli_sd@meclis.gov.az |
| 4. | **Hüseynov Rafael Baba oğlu** | 13 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>20 (Hacıqabul rayonu)<br>27 (Kürdəmir rayonu) | Ceyhun Ağayev<br>+99470 887 7090<br>63sayli_sd@meclis.gov.az |
| 5. | **Abbasov Aqil Məhəmməd oğlu** | 08 (Füzuli rayonu)<br>22 (Ağcabədi rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>85sayli_sd@meclis.gov.az |
| 6. | **Ağamalı Günay Fəzail qızı** | 01 (Salyan rayonu)<br>08 (Neftçala rayonu) | Pərviz Mirizadə<br>+99451 640 1962<br>65sayli_sd@meclis.gov.az |
| 7. | **Ağayeva Ülviyyə Cavanşir qızı** | 08, 23 (Tovuz rayonu)<br>09, 22 (Ağstafa rayonu)<br>10, 24 (Qazax rayonu) | Arzu Musayeva<br>+99455 649 3070<br>107sayli_sd@meclis.gov.az |
| 8. | **Ağazadə Əminə Həmid qızı** | 06, 20 (Kürdəmir rayonu) | Namiq Ağayev<br>+99455 298 8050<br>62sayli_sd@meclis.gov.az |
| 9. | **Akimova Elnarə Seydulla qızı** | 06, 27 (Sumqayıt şəhəri) | Tayfun Hacılı<br>+99470 220 0577<br>46sayli_sd@meclis.gov.az |
| 10. | **Alıyev Sahib Eyvaz oğlu** | 08, 28 (Ağdaş rayonu) | Rəhman Rəhmanov<br>+99450 277 0984<br>93sayli_sd@meclis.gov.az |
| 11. | **Allahverənov Azər Kərim oğlu** | 15, 22 (Bakı şəhəri) | Ülvi Məmmədəliyev<br>+99455 544 5566<br>29sayli_sd@meclis.gov.az |
| 12. | **Arpadarai Nigar Cavid qızı** | 05, 19 (Bakı şəhəri) | Bəhruz Teymurov<br>+99450 304 2112<br>7sayli_sd@meclis.gov.az |
| 13. | **Aslanov Novruzəli Davud oğlu** | 06, 13, 20, 27 (İsmayıllı rayonu) | Kamran Xanlarlı<br>+99450 502 4888<br>89sayli_sd@meclis.gov.az |
| 14. | **Badamov Azər Camal oğlu** | 10, 24 (Qusar rayonu) | General Sadulov<br>+99450 313 2962<br>61sayli_sd@meclis.gov.az |
| 15. | **Bayramov Kamran Fərhad oğlu** | 15 (Göygöl rayonu)<br>22 (Daşkəsən rayonu) | Məmməd Məmmədli<br>+99450 247 9747<br>100 sayli_sd@meclis.gov.az |
| 16. | **Bayramov Vüqar İbad oğlu** | 05, 19 (Füzuli rayonu) | Eltun Ağakişiyev<br>+99450 226 8002<br>84sayli_sd@meclis.gov.az |
| 17. | **Bədəlov Bədəl Şamil oğlu** | 08 (Goranboy rayonu)<br>22 (Naftalan şəhəri) | Mahyəddin Mazanov<br>+99470 310 2733<br>96sayli_sd@meclis.gov.az |
| 18. | **Cəfərov Kamal Xaqani oğlu** | 14, 28 (Sabirabad rayonu) | Azad Əhmədbəyli<br>+99455 222 2588<br>68sayli_sd@meclis.gov.az |
| 19. | **Cəfərov Müşfiq Cəfər oğlu** | 11 (Gəncə şəhəri)<br>22 (Samux rayonu) | Sahib Əmiraslanov<br>+99450 255 2039<br>41sayli_sd@meclis.gov.az |
| 20. | **Cəfərova Tamam Şaməmməd qızı** | 06, 20 (Şamaxı rayonu) | Aytəkin Quliyeva<br>+99451 466 0090<br>88sayli_sd@meclis.gov.az |
| 21. | **Əfəndiyev Məzahir Cavid oğlu** | 18, 25 (Ağdaş rayonu) | Murad Abdullayev<br>+99451 844 2424<br>92sayli_sd@meclis.gov.az |
| 22. | **Əfəndiyeva Günay Elçin qızı** | 08, 14 (Bakı şəhəri) | Məhsəti Qarayeva<br>+99455 235 1575<br>14sayli_sd@meclis.gov.az |
| 23. | **Ələkbərov Əziz Yusif oğlu** | 08, 22 (Saatlı rayonu) | Samir Nəsirov<br>+99450 247 4355<br>66sayli_sd@meclis.gov.az |
| 24. | **Əliyev Bəxtiyar Həmzə oğlu** | 05, 19 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov<br>+99450 288 2292<br>119sayli_sd@meclis.gov.az |
| 25. | **Əliyeva Jalə Fazil qızı** | 06 (Kürdəmir rayonu)<br>07 (Zərdab rayonu) | Firdovsi Eyvazov<br>+99450 331 9434<br>95sayli_sd@meclis.gov.az |
| 26. | **Əli-zadə Arzuxan Baxşəli oğlu** | 08, 22 (Bakı şəhəri) | Yəhya Həsənov<br>+99455 814 0555 / +99450 315 5842<br>27sayli_sd@meclis.gov.az |
| 27. | **Əmiraslanov Azər Kamal oğlu** | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 26 (Ağstafa rayonu) | Əlövsət Allahyarov<br>+99450 398 4697<br>108sayli_sd@meclis.gov.az |
| 28. | **Əmiraslanov Əhliman Tapdıq oğlu** | 24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>15, 22 (Sabirabad rayonu) | Raqif Xəlilov<br>+99450 277 9638<br>67sayli_sd@meclis.gov.az |
| 29. | **Əsədov Heydər Xanış oğlu** | 08, 22 (Şirvan şəhəri) | Zahir Qəhramanov<br>+99450 216 0470<br>51sayli_sd@meclis.gov.az |
| 30. | **Əsgərov Asif Yunis oğlu** | 08, 15 (Zaqatala rayonu) | Elbrus Məmmədov<br>+99455 677 6262<br>112sayli_sd@meclis.gov.az |
| 31. | **Feyziyev Cavanşir Əyyub oğlu** | 08, 22 (Şəki şəhəri) | Turan Salamov<br>+99455 280 7750 / +99450 520 6618<br>115sayli_sd@meclis.gov.az |
| 32. | **Fətəliyeva Sevinc Həbib qızı** | 10, 24 (Bakı şəhəri) | Eldar Qurbanov<br>+99450 277 0956<br>30sayli_sd@meclis.gov.az |
| 33. | **Fətiyev Xanlar Nuru oğlu** | 06, 20 (Bərdə rayonu) | Xəyyam Ələkbərzadə<br>+99450 243 9030<br>98sayli_sd@meclis.gov.az |
| 34. | **Gəncəliyev Tural Babaşah oğlu** | 06, 20 (Bakı şəhəri) | Xatirə Əliyeva<br>+99455 722 7431<br>122sayli_sd@meclis.gov.az |
| 35. | **Hacıyev Sabir Kamal oğlu** | 06, 20 (Göyçay rayonu) | Əli Qafarov<br>+99450 200 2209<br>91sayli_sd@meclis.gov.az |
| 36. | **Həmzəyev Naqif Ələşrəf oğlu** | 08, 24 (Gəncə şəhəri) | Sərxan İmanov<br>+99450 255 1438<br>38sayli_sd@meclis.gov.az |
| 37. | **Həmzəyeva Ülviyyə Tapdıq qızı** | 08 (Naxçıvan MR, Culfa rayonu)<br>22 (Naxçıvan MR, Naxçıvan şəhəri)<br>27 (Naxçıvan MR, Babək rayonu) | Araz Xudiyev<br>+99450 658 2375<br>5sayli_sd@meclis.gov.az |
| 38. | **Həsən Ramil Sahib oğlu** | 13, 27 (Ucar rayonu) | Vüqar Səlimov<br>+99451 215 6141<br>94sayli_sd@meclis.gov.az |
| 39. | **Həsənquliyev Qüdrət Müzəffər oğlu** | 15, 22 (Bakı şəhəri) | Hüseyn Müzəfferli<br>+99450 547 7764<br>36sayli_sd@meclis.gov.az |
| 40. | **Həsənov Malik Əvəz oğlu** | 12, 20 (Cəlilabad rayonu) | Ələddin Əliyev<br>+99451 911 5116<br>71sayli_sd@meclis.gov.az |
| 41. | **Həsənov Nurlan Urfan oğlu** | 08, 15 (Şəmkir rayonu) | Anar Quliyev<br>+99450 753 4433<br>103sayli_sd@meclis.gov.az |
| 42. | **Həsənova Afət Əbil qızı** | 05, 19 (Bakı şəhəri) | Namiq Mustafayev<br>+99450 320 3286<br>32sayli_sd@meclis.gov.az |
| 43. | **Hüseynli Əli Məhəmməd oğlu** | 04 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Yevlax və Mingəçevir şəhərləri) | Bayram Yusifov<br>+99450 262 6131<br>53sayli_sd@meclis.gov.az |
| 44. | **Hüseynov Aydın Nəsir oğlu** | 12, 19 (Bakı şəhəri) | Vüsal Yusifov<br>+99450 255 1337<br>37sayli_sd@meclis.gov.az |
| 45. | **Hüseynova Hicran Kamran qızı** | 20 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>05, 19 (Sumqayıt şəhəri) | Elçin Kərimov<br>+99451 460 5334<br>42sayli_sd@meclis.gov.az |
| 46. | **Hüseynova Sevinc Əmirəhməd qızı** | 01, 22 (Gədəbəy rayonu) | Elxan İsmayılov<br>+99450 642 0979<br>104sayli_sd@meclis.gov.az |
| 47. | **Xasayeva Səbinə Səməd qızı** | 05, 19 (Bakı şəhəri) | Bayram Məmmədov<br>+99455 596 2134<br>11sayli_sd@meclis.gov.az |
| 48. | **İbrahimqızı Məlahət İbrahim qızı** | 06, 27 (Bakı şəhəri) | Xətai Məmmədli<br>+99450 255 2142<br>21sayli_sd@meclis.gov.az |
| 49. | **İbrahimli Fəzail Feyruz oğlu** | 10 (Masallı rayonu)<br>20 (Cəlilabad rayonu) | Faiq Ağayev<br>+99450 277 5549<br>73sayli_sd@meclis.gov.az |
| 50. | **İbrahimov Eldar Rza oğlu** | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Yasin Bayramov<br>+99450 255 1306<br>4sayli_sd@meclis.gov.az |
| 51. | **İsgəndərov Anar Camal oğlu** | 25 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Lənkəran şəhəri) | Valeh Mikayılov<br>+99450 335 2232<br>78sayli_sd@meclis.gov.az |
| 52. | **İskəndərov Vüqar Yapon oğlu** | 08, 22 (Şəki şəhəri) | Anar Nağıyev<br>+99450 295 0115<br>114sayli_sd@meclis.gov.az |
| 53. | **İsmayılov İmamverdi İbiş oğlu** | 10, 24 (Bakı şəhəri) | Məlahət Əzizova<br>+99450 855 2026<br>125sayli_sd@meclis.gov.az |
| 54. | **İsmayılov Şahin Əmir oğlu** | 18 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Beyləqan rayonu) | Çingiz Səfərov<br>+99455 444 3366<br>83sayli_sd@meclis.gov.az |
| 55. | **İsmayılzadə Fariz Akif oğlu** | 15, 28 (Lənkəran şəhəri) | Mansur Talıbov<br>+99450 369 7882<br>77sayli_sd@meclis.gov.az |
| 56. | **Kərimli Azər Şəmşid oğlu** | 08 (Zaqatala rayonu)<br>22 (Balakən rayonu) | Samir Hüseynzadə<br>+99455 830 1363<br>111sayli_sd@meclis.gov.az |
| 57. | **Kərimzadə Pərvin Orxan qızı** | 05, 26 (Gəncə şəhəri) | Hicran Məmmədova<br>+99450 692 8685<br>39sayli_sd@meclis.gov.az |
| 58. | **Qafarov Kamaləddin Nəsrəddin oğlu** | 05, 19 (Bakı şəhəri) | Nazim Cəfərov<br>+99450 708 6911<br>9sayli_sd@meclis.gov.az |
| 59. | **Qafarov Vasif Vaqif oğlu** | 05, 19 (Lerik rayonu) | Pərviz Ağaxanlı<br>+99455 628 6966<br>80sayli_sd@meclis.gov.az |
| 60. | **Qasımlı Mircəlil Xəqani oğlu** | 13 (Bakı şəhəri)<br>18 (Tərtər rayonu) | Anar Çıraqov<br>+99499 309 1131<br>123sayli_sd@meclis.gov.az |
| 61. | **Qədirli Erkin Toğrul oğlu** | 10, 24 (Bakı şəhəri) | Fariz Zöhrabov<br>+99470 918 3110<br>16sayli_sd@meclis.gov.az |
| 62. | **Qəhrəmanov Göydəniz İbrahim oğlu** | 12, 27 (Bakı şəhəri) | Rəhim Qədirov<br>+99450 555 8845<br>17sayli_sd@meclis.gov.az |
| 63. | **Quliyev Azay Əjdər oğlu** | 05, 14 (Bakı şəhəri) | Asəf Vəliyev<br>+99450 578 5187<br>8sayli_sd@meclis.gov.az |
| 64. | **Quliyev Eldar Allahyar oğlu** | 09, 23 (Bakı şəhəri) | Yaşar Məmmədov<br>+99450 983 9310<br>28sayli_sd@meclis.gov.az |
| 65. | **Quliyev Musa İsa oğlu** | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14, 28 (Gəncə şəhəri) | Göyüş Şəfizadə<br>+99450 255 1442<br>40sayli_sd@meclis.gov.az |
| 66. | **Quliyev Ülvi Zahid oğlu** | 05, 27 (Bakı şəhəri) | Nurlan Qurbanov<br>+99450 241 5156<br>15sayli_sd@meclis.gov.az |
| 67. | **Qurbanlı Mübariz Qəhrəman oğlu** | 17 (Samux rayonu)<br>26 (Bakı şəhəri) | Elnur Tağıyev<br>+99455 212 8191<br>101sayli_sd@meclis.gov.az |
| 68. | **Qurbanov Eyvaz Daşdəmir oğlu** | 15, 22 (Oğuz rayonu) | Səxavət Kərəmov<br>+99470 510 6968 / +99451 774 3782<br>117sayli_sd@meclis.gov.az |
| 69. | **Qurbanov Sadiq Haqverdi oğlu** | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Salyan rayonu) | Elnur Rəhimov<br>+99455 375 6075<br>64sayli_sd@meclis.gov.az |
| 70. | **Mahmudov Rəşad Məmmədqulu oğlu** | 15, 22 (Astara rayonu) | Həsənağa Əskərli<br>+99477 542 0770<br>79sayli_sd@meclis.gov.az |
| 71. | **Məhəməliyev Nəsib Məhəmməd oğlu** | 08, 22 (Balakən rayonu) | Yusif Mirzəyev<br>+99450 213 6259<br>110sayli_sd@meclis.gov.az |
| 72. | **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** | 15, 22 (Biləsuvar rayonu) | Əfsun Əlizadə<br>+99450 277 0436<br>69sayli_sd@meclis.gov.az |
| 73. | **Məhərrəmzadə Əlibala Səttar oğlu** | 08, 22 (Quba rayonu) | Elnur Xəlilov<br>+99455 308 4950<br>59sayli_sd@meclis.gov.az |
| 74. | **Məmmədli Müşfiq Fazil oğlu** | 03 (Quba rayonu)<br>12 (Siyəzən rayonu) | Nəsimi Əliyev<br>+99455 887 1314<br>55sayli_sd@meclis.gov.az |
| 75. | **Məmmədov Anar İlyaz oğlu** | 08, 09, 22 (Tərtər rayonu)<br>23 (Goranboy rayonu) | Elçin Cahangirov<br>+99450 324 2791<br>97sayli_sd@meclis.gov.az<br>anarmammadov@meclis.gov.az |
| 76. | **Məmmədov Ceyhun Valeh oğlu** | 01, 15 (Bakı şəhəri) | Rəşad Quliyev<br>+99455 847 5621<br>120sayli_sd@meclis.gov.az |
| 77. | **Məmmədov Elman Camal oğlu** | 15, 22 (Bakı şəhəri) | Mahir Rzayev<br>+99450 288 6629 / +99470 290 0335<br>118sayli_sd@meclis.gov.az |
| 78. | **Məmmədov Hikmət Baba oğlu** | 05, 19 (Bakı şəhəri) | Azər Quliyev<br>+99450 277 1219<br>19sayli_sd@meclis.gov.az |

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2025-ci ilin fevral ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 79. | **Məmmədov İlham Kazım oğlu** | 08, 22 (Yevlax və Mingəçevir şəhərləri) | Rüstəm Əliyev<br>+99450 277 7417<br>52sayli_sd@meclis.gov.az |
| 80. | **Məmmədov Qaya Məmməd oğlu** | 08, 15 (Bakı şəhəri) | Samir Əliyev<br>+99455 377 3102<br>31sayli_sd@meclis.gov.az |
| 81. | **Məmmədov Məşhur Şahbaz oğlu** | 08, 22 (Masallı rayonu) | Əli Nağıyev<br>+99450 210 8641<br>74sayli_sd@meclis.gov.az |
| 82. | **Məmmədov Soltan Teymur oğlu** | 08, 22 (Bakı şəhəri) | Azər Məlikov<br>+99450 373 4403<br>12sayli_sd@meclis.gov.az |
| 83. | **Məmmədova Nigar Fikrət qızı** | 04, 11 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova<br>+99450 710 0838<br>48sayli_sd@meclis.gov.az |
| 84. | **Məsimli Əli Əhməd oğlu** | 14 (Qax rayonu)<br>15 (Şəki şəhəri) | Vüsal Baxışov<br>+99455 511 2287<br>113sayli_sd@meclis.gov.az |
| 85. | **Mikayılova Sevil Əlirazı qızı** | 07, 14 (Xaçmaz rayonu) | İradə Çobanova<br>+99455 730 8606<br>58sayli_sd@meclis.gov.az |
| 86. | **Mirkişili Tahir Famil oğlu** | 10, 24 (Sumqayıt şəhəri) | Cavid Quliyev<br>+99451 520 2211<br>43sayli_sd@meclis.gov.az |
| 87. | **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** | 12, 22 (Ağsu rayonu) | İbrahim Bağırlı<br>+99455 268 8484<br>90sayli_sd@meclis.gov.az |
| 88. | **Mirzəzadə Aydın Böyükkişi oğlu** | 05, 19 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov<br>+99451 373 2443<br>54sayli_sd@meclis.gov.az |
| 89. | **Mollazadə Asim Nazim oğlu** | 05, 19 (Bakı şəhəri) | İlkin Həsənov<br>+99450 203 7066<br>22sayli_sd@meclis.gov.az |
| 90. | **Möhbalıyev Səttar Suliddin oğlu** | 08 (Naxçıvan MR, Babək rayonu)<br>22 (Naxçıvan MR, Şahbuz rayonu) | Rizvan Hüseynquliyev<br>+99455 744 2537 / +99450 649 7066<br>3sayli_sd@meclis.gov.az |
| 91. | **Muradov Rövşən Şahbaz oğlu** | 08, 25 (Bakı şəhəri) | Murad Həsənli<br>+99450 510 9897<br>121sayli_sd@meclis.gov.az |
| 92. | **Musabəyov Rasim Nəsrəddin oğlu** | 03, 17 (Bakı şəhəri) | Asif Nəsibov<br>+99450 288 2725<br>18sayli_sd@meclis.gov.az |
| 93. | **Musayev Elşad Nəbi oğlu** | 15, 22 (Bakı şəhəri) | Vüqar Qasımov<br>+99455 744 9919 / +99450 669 5919<br>10sayli_sd@meclis.gov.az |
| 94. | **Musayev Elşən Məmmədhənifə oğlu** | 15, 22 (Qəbələ rayonu) | Cəfər Əliyev<br>+99455 288 0089<br>116sayli_sd@meclis.gov.az |
| 95. | **Mustafa Fazil Qəzənfər oğlu** | 21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>03,10, 17, 24 (Bakı şəhəri) | Əjdər Əliyev<br>+99450 385 3950<br>26sayli_sd@meclis.gov.az |
| 96. | **Nağıyev Arzu Nəsib oğlu** | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08 (Tovuz rayonu)<br>23 (Gədəbəy rayonu) | Elşad İsmayılov<br>+99450 336 0212<br>105sayli_sd@meclis.gov.az |
| 97. | **Namazov Ramid Zakir oğlu** | 08, 22 (Abşeron rayonu) | Ramil Şükürov<br>+99410 412 1079<br>50sayli_sd@meclis.gov.az |
| 98. | **Nəbiyev Rizvan Novruz oğlu** | 15, 28 (Abşeron rayonu) | Rişad Abbasov<br>+99499 766 8868<br>49sayli_sd@meclis.gov.az |
| 99. | **Nəsirov Elman Xudam oğlu** | 15, 22 (Cəlilabad rayonu) | Uzeyir Mustafayev<br>+99450 797 4425<br>72sayli_sd@meclis.gov.az |
| 100. | **Novruzov Siyavuş Dünyamalı oğlu** | 27 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>08, 22 (Naxçıvan MR, Şərur rayonu) | İbrahim Orucov<br>+99460 460 6061<br>2sayli_sd@meclis.gov.az |
| 101. | **Nurullayev Razi Qulaməli oğlu** | 12 (İmişli rayonu)<br>27 (Bakı şəhəri) | Vüqar Süleymanov<br>+99450 247 8777<br>81sayli_sd@meclis.gov.az |
| 102. | **Nurullayeva Könül Oruc qızı** | 05, 17 (Bakı şəhəri) | Sabit Mahmudov<br>+99450 206 0254 / +99455 276 2375<br>24sayli_sd@meclis.gov.az |
| 103. | **Oruc Zahid Məhərrəm oğlu** | 19 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 21 (Bakı şəhəri) | Ceyhun Fərəcov<br>+99450 288 2093<br>33sayli_sd@meclis.gov.az |
| 104. | **Paşayeva Gülşən Məmmədəli qızı** | 08, 15 (Bakı şəhəri) | Ramin Ağacanov<br>+99455 226 2607<br>13sayli_sd@meclis.gov.az |
| 105. | **Paşazadə Cavanşir Hümmət oğlu** | 11, 23 (Lənkəran şəhəri) | Sulduz Ağayev<br>+99450 328 2123<br>76sayli_sd@meclis.gov.az |
| 106. | **Polad Bülbüloğlu** | 26 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>18, 25 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938<br>124sayli_sd@meclis.gov.az |
| 107. | **Rafailov Anatoliy Xaimoviç** | 15, 22 (Quba rayonu) | Qəhrəman Qasımov<br>+99450 364 3926 / +99450 744 0526<br>60sayli_sd@meclis.gov.az |
| 108. | **Rəhimzadə Vüqar Gəncəli oğlu** | 08 (Naxçıvan MR, Ordubad rayonu)<br>22 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev<br>+99470 230 0777<br>6sayli_sd@meclis.gov.az |
| 109. | **Rüstəmxanlı Tənzilə Yolçu qızı** | 06, 26 (Neftçala rayonu) | Fərman Hüseynov<br>+99477 550 5131<br>70sayli_sd@meclis.gov.az |
| 110. | **Rzayev Tahir Musa oğlu** | 14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>07, 08, 21, 22 (Ağcabədi rayonu) | Samir Məmmədov<br>+99451 423 3395<br>86sayli_sd@meclis.gov.az |
| 111. | **Salahlı Səyyad Adil oğlu** | 14 (İmişli rayonu)<br>15 (Saatlı rayonu) | Ağa Abışov<br>+99450 775 7477<br>82sayli_sd@meclis.gov.az |
| 112. | **Salmanova Səbinə Qədir qızı** | 05, 24 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov<br>+99470 288 9638<br>45sayli_sd@meclis.gov.az |
| 113. | **Seyidov Səməd İsmayıl oğlu** | 07 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>12, 27 (Qazax rayonu) | Akif Əmirov<br>+99450 791 2111<br>109sayli_sd@meclis.gov.az |
| 114. | **Seyidzadə Şahin Kamil oğlu** | 05 (İsmayıllı və Şamaxı rayonları)<br>24 (Qobustan rayonu) | Elman Mikayılov<br>+99450 288 9938<br>87sayli_sd@meclis.gov.az |
| 115. | **Səfərov Nizami Abdulla oğlu** | 13, 25 (Tovuz rayonu) | Elbəy Bədirov<br>+99450 869 6767<br>106sayli_sd@meclis.gov.az |
| 116. | **Səmədzadə Ziyad Əliabbas oğlu** | 06, 20 (Bakı şəhəri) | Quliyev Azad<br>+99450 216 4311<br>23sayli_sd@meclis.gov.az |
| 117. | **Süleymanlı Mahir Tahir oğlu** | 08, 22 (Şabran rayonu) | Simran Süleymanov<br>+99451 906 6669<br>56sayli_sd@meclis.gov.az |
| 118. | **Şükürov Zaur Ramiz oğlu** | 07 (Bakı şəhəri)<br>14 (Sumqayıt şəhəri) | Aslan Talıbov<br>+99455 283 6367<br>47sayli_sd@meclis.gov.az |
| 119. | **Vəliyev Ağalar İsrəfil oğlu** | 05, 19 (Xaçmaz rayonu) | İlham Musayev<br>+99450 275 0111<br>57sayli_sd@meclis.gov.az |
| 120. | **Vəliyev Samir Əhməd oğlu** | 06, 20 (Bakı şəhəri) | Vüsal Əliyev<br>+99450 277 8842<br>20sayli_sd@meclis.gov.az |
| 121. | **Vəliyeva Mehriban Hidayət qızı** | 12, 24 (Sumqayıt şəhəri) | Ramiz Alıyev<br>+99450 518 3434<br>44sayli_sd@meclis.gov.az |
| 122. | **Vəliyeva Pərvanə Bulut qızı** | 08,15, 22 (Bakı şəhəri) | Kamil Hacıyev<br>+99455 811 3330<br>35sayli_sd@meclis.gov.az |
| 123. | **Yıldırım Fatma Vidadi qızı** | 08, 22 (Bərdə rayonu) | Fuad Ağayev<br>+99455 420 8040<br>99sayli_sd@meclis.gov.az |
| 124. | **Zabelin Mixail Yuryeviç** | 08, 22 (Bakı şəhəri) | Firdovsi Cahangirov<br>+99450 225 2722<br>34sayli_sd@meclis.gov.az |

Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.

# COP29 çərçivəsində imzalanan saziş Azərbaycanın Mərkəzi Asiya ilə əməkdaşlığı üçün yeni imkanlar açır

**Yanvarın 24-də Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin cari ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitə sədri Sadiq Qurbanov yeni sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib, onlara müvəffəqiyyətlər diləyib. O, iclasın gündəliyinə 5 məsələnin - payız sessiyasının hesabatının, yaz sessiyasının iş planının layihəsinin və bir sıra qanun layihələrinin daxil edildiyini diqqətə çatdırıb.**

Komitə sədri əvvəlcə gündəliyin birinci məsələsi - Milli Məclisin 2024-cü ilin payız sessiyası dövründə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin gördüyü işlər barədə hesabatı təqdim edib. Bildirilib ki, hesabat dövründə komitənin 10 iclası keçirilib, 18 məsələ müzakirəyə çıxarılıb. Sadiq Qurbanov ötən sessiya dövründə müzakirəyə çıxarılan bir sıra qanun layihələrinin əhəmiyyətini xüsusi vurğulayaraq bildirib ki, bu dövr ərzində 5 qanun layihəsi üç oxunuşda, 3 qanun layihəsi isə bir oxunuşda qəbul edilib.

Qeyd olunub ki, payız sessiyası dövründə komitə sədri və üzvləri xarici ölkələrdə və parlamentdə keçirilən beynəlxalq tədbirlərdə, görüşlərdə, o cümlədən COP29 çərçivəsində təşkil olunan tədbirlərdə fəal iştirak ediblər, KİV-də və sosial şəbəkələrdə fəal çıxış ediblər. Eyni zamanda bildirilib ki, hesabat dövründə komitəyə daxil olan 164 müxtəlif xarakterli müraciət araşdırılaraq müvafiq qurumlara yönləndirilib. Payız sessiyası ərzində komitə üzvləri seçicilərlə çoxsaylı görüşlər keçirib, vətəndaş qəbulları təşkil edərək onların ərizə və şikayətlərinin həlli istiqamətində tədbirlər görüblər.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin 2025-ci ilin yaz sessiyası üçün 13 bənddən ibarət iş planının layihəsini təqdim edən komitə sədri qeyd edib ki, qarşıdakı sessiyada qanunvericilik təşəbbüsü qaydasında daxil olan qanun layihələrinin müzakirəsi, komitənin fəaliyyət istiqamətlərinə uyğun olaraq ictimai dinləmələrin təşkili və digər məsələlər nəzərdə tutulub.

Sonra komitə sədri Sadiq Qurbanov gündəlikdəki qanun layihələrini təqdim edib.

"Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Azərbaycan Respublikası Qanununun layihəsi barədə danışan komitə sədri bildirib ki, sənəd üç ölkənin enerji sektorunda əməkdaşlığının yeni strateji çərçivəsini müəyyən etmək məqsədilə hazırlanıb. Keçən ilin noyabr ayında Bakı şəhərində keçirilmiş Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində dövlət başçıları tərəfindən imzalanan bu sənəd Azərbaycanın Mərkəzi Asiya ilə əməkdaşlığı üçün yeni imkanlar açır və yaşıl, bərpaolunan enerji mənbələrinin inkişafı, enerji təhlükəsizliyinin təmin edilməsi və davamlı inkişaf məqsədlərinə töhfə verilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

"İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Qanununun layihəsi ilə bağlı isə qeyd olunub ki, mərkəzin yaradılması, üzv dövlətlərin bərpaolunan enerji və enerji səmərəliliyinin təşviqi, iqlim dəyişikliyinin təsirlərinin azaldılması və davamlı enerji həllərinin inkişafı sahəsindəki birgə səylərini əks etdirir. Mərkəz dayanıqlı enerji layihələrini həyata keçirmək, texniki dəstək göstərmək və qlobal enerji məsələləri ilə bağlı bilik və məlumatlılığı artırmaq məqsədi güdür. Azərbaycanın bu mərkəzə evsahibliyi etməsi, regional və qlobal səviyyədə enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə, strateji təşəbbüslərin həyata keçirilməsinə, innovativ texnologiyaların tətbiqinin sürətləndirilməsinə və ekoloji davamlılığın artırılmasına əhəmiyyətli töhfə verəcək.

Sonra millət vəkilləri gündəlikdəki cari məsələləri müzakirə ediblər.

Müzakirələr zamanı komitə sədrinin müavini Fatma Yıldırım, komitənin üzvləri Naqif Həmzəyev, Vüqar Rəhimzadə, Eyvaz Qurbanov, Rövşən Muradov, Afət Həsənova, Asif Əsgərov və Nigar Arpadarai çıxış edərək payız sessiyasında komitənin səmərəli fəaliyyət göstərdiyini qeyd ediblər, yaz sessiyası üçün nəzərdə tutulmuş iş planının layihəsini müsbət qiymətləndiriblər. Deputatlar müzakirəyə çıxarılan məsələlərlə bağlı çıxış ediblər, qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin yekununda komitənin 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, 2025-ci ilin yaz sessiyası üçün iş planının layihəsi təsdiqlənib. Qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

***"Azərbaycan"***

# Gənclərin və idmanın aktual məsələləri ilə bağlı dinləmələrin keçirilməsi nəzərdə tutulur

**Yanvarın 24-də Milli Məclisin Gənclər və idman komitəsinin 2025-ci ilin yaz sessiyasında ilk iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, komitənin sədri Şahin İsmayılov sessiyanın başlaması münasibətilə komitə üzvlərini təbrik edib, onlara fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.**

Şahin İsmayılov diqqətə çatdırıb ki, iclasın gündəliyinə iki məsələ - komitənin 2024-cü ilin payız sessiyası dövründə gördüyü işlər barədə hesabatı və komitənin 2025-ci ilin yaz sessiyası üçün iş planının layihəsi daxil edilib.

Komitənin ötən sessiyada gördüyü işlər barədə hesabatı ilə bağlı bildirilib ki, hesabat dövründə Gənclər və idman komitəsinin 6 iclası keçirilərək 7 məsələyə baxılıb. Ötən sessiya dövründə komitəyə vətəndaşlardan, idarə və təşkilatlardan daxil olan müraciətlərə baxılaraq müvafiq tədbirlər görülüb. Komitə sədri komitə üzvlərinin ictimai dinləmələrdə və digər tədbirlərdə fəal iştirakından danışıb. Qeyd olunub ki, hesabat dövründə komitə üzvləri seçicilərlə, cəmiyyətin həssas qrupları, şəhid ailələri və qazilərlə, yarışlarda uğur qazanmış idmançılarla görüşüblər, onların qayğıları ilə maraqlanıblar, sosial şəbəkələrdə, mediada günün aktual məsələləri ilə əlaqədar mövqelərini bildiriblər.

Gənclər və idman komitəsinin 2025-ci ilin yaz sessiyası üçün iş planı ilə bağlı məlumat verilib ki, sənəddə qanunvericilik təşəbbüsü qaydasında təqdim edilən qanun layihələrinin müzakirəsi, gənclərin və idmanın aktual məsələləri ilə bağlı dinləmələrin, görüşlərin keçirilməsi və digər tədbirlər nəzərdə tutulub.

Sonra komitə üzvləri Ramil Həsən, Asif Əsgərov, Mircəlil Qasımlı, Göydəniz Qəhrəmanov, Müşfiq Cəfərov, Mahir Süleymanlı çıxış ediblər, müzakirə olunan məsələlərlə bağlı fikirlərini, qeyd və təkliflərini səsləndiriblər.

Müzakirələrin sonunda komitənin 2024-cü ilin payız sessiyası dövründə görülən işlər barədə hesabatı qənaətbəxş hesab olunub, komitənin 2025-ci ilin yaz sessiyası üçün iş planı təsdiq edilib.

***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ




## AYİB Azərbaycanla əməkdaşlığa sadiqdir

### Davosda bankla daha bir layihə üzrə saziş imzalandı

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) indiyədək ölkəmizdə onlarla layihəyə investisiya qoyub. Azərbaycan-AYİB əməkdaşlığının imkanları və bankın maliyyə dəstəyi ilə həyata keçirilən layihələr genişmiqyaslıdır. AYİB-in ölkəmizin enerji və nəqliyyat layihələrinə, xüsusilə "Cənub qaz dəhlizi"nə ayırdığı kreditlərin əhəmiyyəti daim vurğulanır.**

Təkcə 2022-ci ildə Azərbaycanda 9 layihəyə 86 milyon avro sərmayə yatırması bu maliyyə qurumunun ölkəmizin inkişafına əhəmiyyətli töhfələrinə aid misallardan biridir. 2022-ci ildən söz düşmüşkən xatırladaq ki, həmin ilin yayında Gəncə şəhərinin Azərbaycanda ilk pilot şəhər olaraq AYİB-in "Yaşıl Şəhərlər Proqramı"na qoşulmasını da xatırladaq. Seçilmiş şəhər üçün "Yaşıl Şəhər Fəaliyyət Planı"nın əsas məqsədi "yaşıl gələcəy"ə keçidi dəstəkləmək üçün investisiya qoyuluşu və digər tədbirlər vasitəsilə Gəncənin ekoloji məsələlərinin həllinə kömək göstərilməsidir.

Bu il yanvarın 22-də Prezident İlham Əliyevin Davosda qarşı tərəfin müraciəti əsasında AYİB-in prezidenti Odile Reno-Basso ilə görüşündə də Gəncəyə aid layihə diqqət mərkəzində olub. AYİB-in prezidenti ölkəmizlə Avropa Yenidənqurma və İnkişaf Bankı arasında həyata keçirilən bir sıra layihələrə toxunaraq bu xüsusda Gəncə şəhərinin su təsərrüfatı ilə bağlı layihənin icra olunmasının bank tərəfindən maliyyələşdirilməsinə razılığın verildiyini bildirib.

Azərbaycanın İqtisadiyyat naziri Mikayıl Cabbarov və bankın birinci vitse-prezidenti Yurqen Riqterink respublikamızla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında "Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması üçün kredit sazişi"ni imzalayıblar.

Elə sözügedən görüşdə AYİB-in prezidenti Azərbaycanın bank sektoru ilə həyata keçirilən layihələrin, o cümlədən kiçik və orta sahibkarlığın, qadın sahibkarlığının və dayanıqlı inkişaf layihələrinin dəstəklənməsi üçün ayrılan kredit xətləri barədə də məlumat verib.

Ölkəmizdə həyata keçirilməsi nəzərdə tutulan vacib layihələrdən danışan Prezident İlham Əliyev su təsərrüfatı, nəqliyyat, Bakı şəhərinin inkişafı istiqamətlərində icra olunan işləri qeyd edib. Söhbət zamanı, eləcə də Avropaya "yaşıl enerji"nin ixracı, bununla bağlı həm Gürcüstanla, həm də Mərkəzi Asiya ölkələri ilə regional əməkdaşlıq layihələri və imkanları barədə müzakirələr aparılıb.

Ümumiyyətlə, Avropa Yenidənqurma və İnkişaf Bankının Azərbaycanda fəaliyyət istiqamətləri və ölkəmiz üçün prioritet sahələr, xüsusilə bərpaolunan enerji, nəqliyyat, logistika, kiçik və orta biznesin inkişafı sahələrində, Orta dəhliz istiqamətində əməkdaşlıq məsələləri ikitərəfli görüş və tədbirlərin daimi mövzusudur. AYİB-lə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsinin önəmi daim vurğulanır.

Gəncənin su və kanalizasiya məsələsinə gəldikdə isə, demək olar ki, bu layihə ilə şəhərin əksər küçə və prospektlərində köhnə su borularının yeniləri ilə əvəzlənməsi nəzərdə tutulub. Bu iş Gəncə Şəhər Su Kanal İdarəsi tərəfindən yerinə yetirilir.

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti su təchizatı ilə paralel olaraq kanalizasiya sistemi üzrə işlərin həyata keçirildiyini də bildirib.

Gəncə Şəhər Su Kanal İdarəsinin hələ keçən ilin sentyabr ayına aid açıqlamasında qeyd edilir ki, il ərzində 12 min metr içməli su, 10 min metr kanalizasiya xətti çəkilib. Həmçinin 1500 su sayğacının quraşdırılması nəzərdə tutulub. Həmin vaxtadək su xətlərinin 47 faizi, kanalizasiya xətlərinin 44 faizi çəkilmişdi. Gəncə şəhərinin 71 min 500 abonentinin 40 mini dayanıqlı içməli su ilə təmin olunmuşdu.

Gəncə şəhəri Mirzə Abbas Abbaszadə, Həsən Əliyev, Fərhad Əliyev, Bakı Fəhləsi, Hacı Zeynalabdin Tağıyev, Müseyib Bağırov küçələrində, Yeni Gəncə qəsəbəsində, 38-ci Hərbi şəhərcikdə sıradan çıxmış müxtəlif su boruları polietilen borularla əvəzlənib. Şəhərin istənilən küçəsində baş verən qəza hadisələri qəza xidməti tərəfindən dərhal nəzarətə götürülür və aradan qaldırılır.

Qeyd edək ki, Gəncənin su təchizatı 3 mənbədən - Göygöl-Gəncə, Şəmkir-Gəncə magistral su xətləri və 97 ədəd subartezian quyusu vasitəsilə reallaşdırılır. Su şəbəkəyə ümumi tutumu 41530 kubmetr olan 9 mərkəzi və 18 məhəllədaxili su anbarları vasitəsilə verilir.

Şəhər sakinləri əvvəlki illərlə müqayisədə daimi içməli su ilə təmin olunduqlarından razılıqlarını bildirirlər. Çünki onlar əvvəl suyun verilməsindən əziyyət çəkirdilər. Bəzi ərazilərə su iki gündən bir verilirdi.

Gəncə Şəhər Su Kanal İdarəsi yerli əhalinin dayanıqlı və keyfiyyətli içməli su ilə təminatını, o cümlədən tullantı, yağış sularının axıdıldığı xətlərin bərpası və yenilənməsi istiqamətində işləri intensiv həyata keçirir.

Bu gün Azərbaycan işğaldan azad edilmiş ərazilərində genişmiqyaslı bərpa və quruculuq işləri aparır. Bununla yanaşı, digər şəhər və rayonlarımız da diqqətdən yayınmır. Müdrik Prezidentimiz hələ dörd il əvvəl - Qarabağın və Şərqi Zəngəzurun yenidən qurulmasına başlananda bildirmişdi ki, digər bölgələrdə görüləcək işlər də arxa planda olmayacaq. Bu gün Azərbaycanın hər tərəfində gedən işlər, o cümlədən Davosda AYİB-lə "Gəncə şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması üçün kredit sazişi"nin imzalanması bir daha göstərdi ki, dövlətimizin başçısı nəyi deyirsə, onu yerinə yetirir. Sözü imzası qədər kəsərli və etibarlıdır!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Ötən il Azərbaycanla Macarıstan arasında ticarət dövriyyəsi 29 faiz artıb

**Azərbaycan-Macarıstan əlaqələri strateji tərəfdaşlıq, dostluq və qarşılıqlı hörmətə əsaslanır və ildən-ilə genişlənməkdə davam edir. İki ölkə arasında ticarət dövriyyəsində 2024-cü ildə daha 29 faiz artım özünü göstərib.**

Bu barədə Azərbaycan və Macarıstan Hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevlə Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Tormanın görüşündə bildirilib.

Azərbaycan və Macarıstan dövlət başçılarının siyasi iradəsi, səyləri ilə iki ölkə arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi vurğulanıb, müxtəlif sahələri əhatə edən əməkdaşlığın davamlı inkişafından məmnunluq ifadə olunub.

İki ölkənin hökumətləri arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın fəaliyyəti qeyd edilib. Komissiyanın keçən il Bakıda 10-cu iclasının keçirildiyi, növbəti iclasının bu il Macarıstanın paytaxtı Budapeştdə keçirilməsinin nəzərdə tutulduğu bildirilib. Habelə ötən dövrdə Bakı və Budapeştdə keçirilən biznes forumların və işgüzar görüşlərin, digər tədbirlərin əlaqələrimizn inkişafında önəmi diqqətə çatdırılıb.

Görüşdə ikitərəfli əməkdaşlıq gündəliyi üzrə iqtisadi və ticarət, enerji, "yaşıl enerji"nin inkişafı və ötürülməsi, infrastruktur, nəqliyyat, kənd təsərrüfatı, təhsil, mədəniyyət, sosial, turizm və s. sahələrdə gələcək əməkdaşlıq məsələləri müzakirə olunub.

## BP "Qarabağ" neft yatağının işlənilməsi üçün SOCAR ilə müzakirə aparır

**"BP "Qarabağ" neft yatağının işlənilməsi layihəsinə daxil olmaq şərtlərini dəyərləndirir".**

AZƏRTAC xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında BP şirkətinin Xəzər və Yaxın Şərq regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib. "Bu layihə ilə bağlı danışıqlar gedir. 2024-cü ilin sentyabrında SOCAR ilə "Qarabağ" yatağının işlənməsi üzrə anlaşma memorandumu imzalandı. Bu memorandum çərçivəsində fəaliyyətlərin nəticəsi ilə bağlı açıqlama veriləcək", - deyə o bildirib.

## Özünüməşğulluq proqramına cəlb olunanların illik sayı 17,3 min nəfəri ötüb

**Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan özünüməşğulluq proqramı işsiz və işaxtaran şəxslərin kiçik biznesə yiyələnməsinə imkan yaradır.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən bu proqrama cəlb edilənlərin illik sayı proqramın icrasına başlandığı 2017-ci ilə nisbətən 15 dəfəyə yaxın artaraq 17,3 mini ötüb.

Ötən dövrdə özünüməşğulluq proqramına 96 mindən çox işsiz və işaxtaran şəxs cəlb olunub.

Proqram iştirakçıları üçün ilk mərhələdə təlimlər təşkil edilərək, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir.

Təlimləri bitirənlər biznes planlarına uyğun olaraq öz kiçik təsərrüfatlarını qurmaları üçün aktivlərlə təmin edilirlər.

## "Bu il Cəbrayılda "Şəfəq" Günəş-Elektrik Stansiyasının inşasına başlanacaq"

**Bu sözləri jurnalistlərə açıqlamasında bp şirkətinin Xəzər və Yaxın Şərq regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib.**

AZƏRTAC-ın yaydığı məlumata görə, o bildirib ki, texniki-iqtisadi əsaslandırma hazırdır, müqavilə öhdəlikləri imzalanıb, layihənin yekun maliyyə qərarının (FID) bu il verilməsi gözlənilir.

"Ərazinin minalardan təmizlənmə prosesi başa çatıb. Sertifikasiya olandan və kontraktlar bağlanandan sonra avadanlıqlar seçiləcək. Bunlardan sonra müddət də müəyyən olunacaq", - deyə B.Aslanbəyli bildirib.



Qeyd edək ki, COP çərçivəsində icrasına təkan verilən Cəbrayılda tikiləcək 240 meqavat gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası dünyanın ən böyük neft-qaz terminallarından biri Səngəçalı elektrikləşdirməklə karbohidrogenlərlə "yaşıl enerji"nin vəhdətinin nümunəsi olacaq.

**Sayca 55-ci olan Dünya İqtisadi Forumu (DİF) bu il "Ağıllı əsr üçün əməkdaşlıq" devizi altında keçirildi. Davosda dövlət, hökumət, biznes və vətəndaş cəmiyyətinin ən yüksək səviyyəli liderlərini, eləcə də tanınmış alimləri və ictimai siyasi xadimləri bir araya gətirən DİF bu dəfə də dünyanın diqqət mərkəzində oldu.**




Dünya İqtisadi Forumunda ənənəvi mövzularla yanaşı, yeni dövrün çağırışları - texnoloji inqilab, süni intellektin təklif etdiyi imkanlar, yaratdığı təhlükələr və gələcəkdə transformasiya potensialı ilə bağlı müxtəlif formatlarda debatlar keçirildi. Onlardan biri də "İnsanlara İnvestisiya" (Investing in People) istiqaməti üzrə Z nəslinin dünya xəritəsini dəyişməsi (Gen Z Changes the Map) fenomeni idi.

Qeyd edək ki, Z nəsli 1996-cı ildən sonra doğulan və indi gəncliyini yaşayan şəxsləri əhatə edir. Həm də zumerlər adlanan bu nəsil özündən əvvəlki 3 nəsildən çox fərqlidir. 1946-1964-cü illərdə doğulanlar Beybi Bumerlər, 1965-1980-ci illərdə doğulanlar X, 1981-1996-ci illərdə doğulanlar Y nəsli adlanır. Z nəsli gənc yaşlarından internetə çıxış və portativ rəqəmsal texnologiya ilə böyüyən ilk sosial nəsildir. Bu nəslin üzvlərini rəqəmsal savadlı olmasalar da, "rəqəmsal yerlilər" də adlandırırlar. Onlar öz yaşlarında olan sələflərinə nisbətən daha "yavaş" yaşamağa meyillidirlər.

Z nəsli dövrün ən dinamik və dəyişkən nəsli olaraq cəmiyyətin formalaşmasında hər gün daha çox söz sahibinə çevrilir. Texnologiya əsrində dünyaya göz açan bu insanlar gələcəyin nələr gətirəcəyini yalnız izləməklə kifayətlənmir, həm də onları yaratmaq istəyirlər. Bu nəsil hər şeyin dərhal gerçəkləşdiyi, hər informasiyanın bir kliklə əldə olunduğu dünyada həm bu günün və gələcəyin lideri, həm də texnologiyanın ən güclü istifadəçiləridir.

İlk baxışda internet əsrində doğulan Z üzvləri üçün rəqəmsal dünyanın əlçatanlığı sayəsində bir çox maneələr aradan qalxmış kimi görünür. Amma bu, belə deyil, hətta bəzən illüziya kimi görünür. Z nəsli həmçinin əvvəlki nəsillə müqayisədə daha böyük bir problemlə - işsizliklə üz-üzədir.

Maraqlıdır ki, bu nəslə münasibət də fərqlidir. Hər kəsin baxış bucağı özünün istəyinə bağlıdır. Siyasi partiyalar onlardan alacaqları səs haqda düşünür, şirkətlər bu nəsillə necə ünsiyyət quracağını araşdırır, reklam verənlər isə əmək bazarının bu ən gənc mənsublarının istehlak vərdişlərini formalaşdırmağa çalışırlar. Məsələn, Türkiyədə 2023-cü ildə keçirilən seçkilərdə bu nəslə mənsub olan 7 milyon gənc səs vermişdir.

Dünya İqtisadi Forumunun proqnozlarına görə, Z nəsli 2030-cu ilə qədər qlobal işçi qüvvəsinin 30 faizini təşkil edəcək, 2035-ci ilə qədər isə ən böyük işçi qüvvəsi olacaq.

Fakt: hazırda Böyük Britaniyanın "EY" şirkətinin əməkdaşlarının 33 faizi Z nəslindəndir və bu göstəricinin 2030-cu ilə qədər 70 faizə çatacağı gözlənilir. Bu, həmin nəslin əmək bazarında sürətlə artan təsirini və onların gələcəkdəki rolunu göstərir.

Z nəsli ilə bağlı İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) Strateji planlaşdırma şöbəsinin aparıcı məsləhətçisi Lətif Zeynallının qənaəti belədir: "Z nəsli iş mühitinin dinamikalarını yenidən formalaşdırır. Adaptasiya bacarıqları, rəqəmsal səriştələri və kommunikasiyaya verdikləri önəm onları daim dəyişən işgüzar mühitdə uğur qazanmağa yönəldir. ABŞ-nin menecment və konsaltinq xidmətləri göstərən "McKinsey" şirkətinin hesabatlarına əsasən, Z nəslinin 38 faizi "CEO", yəni baş icraçı direktor olmağı arzulayır ki, bu da digər nəsillərlə müqayisədə yüksək göstəricidir və yaxın gələcəkdə onların rəhbər mövqelərdə daha çox yer tutacağını göstərir".

Bu nəslin nümayəndələrinin ən çox istədikləri karyeradır. Ona görə də onlar sahibkar kimi tanınır və bunun daha geniş formasını axtarır, öz bacarıqlarını inkişaf etdirən layihələri reallaşdırmağa üstünlük verirlər. Praqmatikdirlər və maddi baxımdan yaxşı düşünə bilirlər. Bir başqa xüsusiyyətləri də maliyyə təfəkkürlü olmalarıdır. Bu, ona görə belədir ki, xeyli Z üzvü zamanında valideynlərinin maliyyə zərbəsi alaraq tənəzzülə uğradığını və bu sıxıntıdan çıxmaq üçün mübarizə apardıqlarını izləyərək böyüyüb. Amma azad ruhlu olsalar da, bir o qədər səbirsizdirlər. Ona görə də əvvəlki X və Y nəsilləri onları sərbəst davranışlarından və hər hansı bir işdə tez yüksəlmək arzularından dolayı tənqid edirlər.

İqlim dəyişikliyi bir çox gənc, xüsusən də Z nəslinin üzvləri üçün aktual problem olub. "Amnesty International"ın 2019-cu ildə keçirdiyi sorğuya əsasən, Z nəslinin respondentlərinin 41 faizi qlobal istiləşməni dünyanın üzləşdiyi ən ciddi problem kimi göstərib.

1000 insan arasında sorğu keçirən "CM Group"un araşdırmasına əsasən, bu nəslin nümayəndələri daha savadlı, praktik və iddialıdırlar. Bununla belə hər bir insan övladı kimi onların da bəzən islah olunmayan mənfi xüsusiyyətləri var. Bu nəsil texnologiyaya aludə olur və qarşılıqlı əlaqənin öhdəsindən gələ bilmir. Onlar internetdən əvvəlki vaxtları dəqiq xatırlaya bilməyən ilk nəsil olmaları ilə məşhurdurlar.

Z nəslinin qlobal tendensiyalara təsirindən söz açan İİTKM məsləhətçisi deyir ki, bu nəslin işçi qüvvəsindəki rolu Azərbaycanda da artır: "Ölkəmizdə 15-29 yaş aralığında olan işçilərin əmək bazarındakı payı digər yaş qrupları ilə müqayisədə 23 faizə çatıb. Z nəslinin əmək bazarına daxil olması ilə Azərbaycan texnoloji tərəqqi, innovasiya və dayanıqlı iqtisadi inkişaf sahələrində yeni imkanlar əldə edir. Bu, həm yerli bizneslərə, həm də dövlət siyasətinə yeni çağırışlar və tövsiyələr gətirə bilər. Çünki Z nəslinin əmək bazarındakı mövqeyi ölkənin iqtisadi transformasiyasını sürətləndirən amillərdən biri olacaq".

Bütün bu deyilənlərin fonunda etibarlı qlobal dialoq və əməkdaşlıq platforması kimi müxtəlif maraqlı tərəfləri birləşdirməklə mürəkkəb dövrdə əlaqələri gücləndirmək və gələcəyə yönəlmiş həllər təqdim etmək məqsədini daşıyan DİF-in 55-ci toplantısının iştirakçıları Z nəslini yüksək dəyərləndirib və onların əmək bazarına, innovasiyalara, iqtisadi transformasiyalara təsirini və qlobal iqtisadiyyatın gələcəyində oynadığı rola müxtəlif aspektlərdən yanaşıblar.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Məktublar: problemlər, rəylər, təkliflər...



● MİNNƏTDARLIQ

## Bu küçədə şəhid balamın ayaq izləri var

**Tərtər qəhrəman şəhərdir. Onun sakinləri də qəhrəmandırlar. Ermənilərin Qarabağa köçürülməsindən sonra davamlı namərd qonşulardan gizli, yaxud aşkar zərbələr almışıq.**



1988-ci ildən sonra isə düşmənin gizli niyyətləri üzə çıxdı. Uzun illər ərzində tərtərlilər düşmənlə üz-üzə mərdliklə yaşadılar və döyüşdülər. Birinci Qarabağ müharibəsində də beləydi, atəşkəs dövründə də, sonrakı qəhrəmanlıq mübarizəmizdə də.

Tərtərin qəhrəmanlığı bu şəhərə qədəm qoyulan ilk anlardan məlum olur. Möhtəşəm Şəhidlər Abidə-Kompleksi, şəhidlərin adlarına verilmiş küçələr, onların barelyefləri, xatirələrini əbədiləşdirən bulaqlar - bütün bunlar rayon sakinlərinin öz əbədiyaşar övladlarına ehtiram və məhəbbətindən xəbər verir.

Şəhərimizin bütün küçələri abad və səliqəlidir. Şəhid adlarını daşıyan küçələr isə rayon rəhbərinin xüsusi diqqətindədir. Bura vaxtaşırı asfalt örtük salınır, səliqə-sahman yaradılır, təmizlik işləri görülür.

Bu günlər rayon rəhbəri oğlum şəhid Mahir Əsədovun adını daşıyan küçədə aparılan abadlıq işləri ilə tanış olarkən evimizə baş çəkdi, məni yubileyim münasibətilə təbrik etdi. Oğlumun qısa, lakin şərəfli ömür yolu ilə bağlı xatirələr söylənildi. Qeyd olundu ki, Mahir elə məktəb partasından ayrılıb öz arzusu ilə döyüşlərə qatılıb, gənc yaşlarında böyük qəhrəmanlıq göstərib. Sonra Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədovla birlikdə küçədə görülən işlərlə tanış olduq.

Bu küçənin hər qarışında vaxtilə burada böyüyən Mahirin ayaq izləri var. İndi oğlumun adını daşıyan küçənin abadlaşdırılması məni çox qürurlandırır. Bu hissləri hər bir şəhid valideyni keçirir. Şəhid ailələrinə hər zaman diqqət göstərilir.

Mahir və onun yoldaşları suverenliyimiz, müstəqilliyimiz uğrunda canlarını qurban veriblər. Prezidentimiz, dövlətimiz, xalqımız sağ olsun ki, övladlarımızı unutmurlar. Rayon rəhbərliyinə də bizə göstərilən qayğıya görə təşəkkürümüzü bildiririk.

*Zəlimə ƏSƏDOVA,*
*şəhid anası, Tərtər rayonu,*
*Mahir Əsədov küçəsinin sakini*

● BELƏ OLA HƏMİŞƏ

## Bir müraciətlə kəndimizdə 3 mərtəbəli məktəb binası tikildi

**Qubanın böyük kəndlərindən biri də Vəlvələdir. Bir neçə kiçik kəndin əhatəsində yerləşən Vəlvələdə uzun illər idi ki, yeni məktəb binasına ehtiyac vardı. Kənddəki məktəb binası dağılıb uçulmaq üzrə idi. Hətta şagirdlər sinif otağına girməyə ehtiyat edirdilər.**



Kənd camaatı məcburiyyət qarşısında uşaqlarını yaxınlıqdakı digər kəndlərə göndərirdilər. Bu, həm vaxt itkisi, həm də uşaqların və valideynlərin əziyyət çəkməsi demək idi.

Allah qayğıkeş insanların canını sağ eləsin! Rayon rəhbərliyinin kəndə səfəri zamanı camaat bildirdi ki, onların məktəb binası sarıdan problemi var. Bir müddət sonra köhnə məktəbin yerində yenisinin tikintisinə başlanıldı. Cari tədris ilində işıqlı, yaraşıqlı məktəb istifadəyə verildi.

264 şagirdlik yeni 3 mərtəbəli məktəb binasında 21 sinif otağı, akt və idman zalları, mini stadion, kitabxana, informatika, hərbi hazırlıq kabinələri, laboratoriya, bufet və s. var. Məktəbdə istilik və havalandırma sistemləri də quraşdırılıb.

Ümumiyyətlə, vəlvələlilər təhsilə böyük önəm verirlər. Hər il kəndin neçə məzunu ali məktəblərə qəbul olur. Müəllimlərin bəzisi elə kənd məktəbinin keçmiş məzunudur.

*S.MURSALOVA,*
*Quba rayonunun Vəlvələ kəndi*

AZƏRBAYCAN-a cavab verirlər

## Vətəndaşın qaldırdığı məsələlərlə bağlı tədbirlər görülür

**Qəzetinizin 13 dekabr 2024-cü il tarixli sayında dərc edilmiş "Səsimizi eşidən yoxdur" başlıqlı məktubda vətəndaş Faiq Qaraşovun qaldırdığı məsələ ilə bağlı bildiririk ki, Bərdə rayon əhalisi fasiləsiz və normal olaraq elektrik enerjisi ilə təmin olunur. Rayonun 40 kəndində SİP kabelləşmə işləri başa çatdırılıb, digər kəndlərində isə SİP kabelləşməsinin növbəli olaraq aparılması nəzərdə tutulmuşdur.**

Hazırda rayonun Soğanverdilər və Kətəlparaq kəndlərində elektrik xətlərində yenidənqurma işləri aparılır. Bundan əlavə, əhalinin tam olaraq fasiləsiz elektrik enerjisi ilə təmin olunması üçün Şirvanlı kəndində 35/10 kv-luq Şirvanlı y/st və 35/10 kv-luq S.Vurğun y/st yenidən qurularaq 110/35/10 kv-luq müasir tipli yarımstansiya tikilir.

F.Qaraşovun qaldırdığı digər məsələ sahibsiz itlərlə bağlı idi. Bununla əlaqədar diqqətinizə çatdırırıq ki, rayonda fəaliyyət göstərən Heyvan Sağlamlığı və Baytarlıq Xidmətləri İdarəsi tərəfindən digər heyvanlarla yanaşı, itlərə də qarşı ilkin profilaktiki tədbirlər mütəmadi olaraq aparılır. Belə ki, idarə tərəfindən rayon üzrə 2024-cü ildə ümumilikdə 4442 baş itdə quduzluq əleyhinə vaksinləşmə, çöl vəhşi heyvanlara 500 ədəd aldadıcı yemdən istifadə olunaraq iral immunizasiya işləri aparılmış və həmin heyvanlar nəzarətdə saxlanılmışdır.

*Vidadi İSAYEV,*
*Bərdə Rayon İcra Hakimiyyətinin başçısı*

● MƏMNUNLUQ

## Əkin suyundan korluğumuz artıq yoxdur

**Su həyatdır, deyiblər. Xüsusən kənd yerlərində su ilə təminat çox vacib məsələlərdəndir. Çünki əkin-biçin su tələb edir.**



Bizim Kəhrizli kəndinin sakinləri hər il müxtəlif kənd təsərrüfatı məhsulları yetişdirirlər. Lakin son illər kəndə gələn su kanalında yaranmış problem əhalinin su təminatında çətinlik yaradır, suvarmanın vaxtında aparılmaması məhsul itkisinə səbəb olurdu.

Bu yaxınlarda Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev Kəhrizli kəndində səyyar görüş keçirərkən həmin problemi diqqətə çatdırdıq. Təklifimiz nəzarətə götürüldü və qısa vaxt ərzində su kanalı lildən və kol-kosdan təmizləndi. İndi kanalda suyun axıdılmasında heç bir çətinlik yoxdur.

Hörmətli redaksiya! Xahiş edirik ki, problemi operativ həll edən əlaqədar təşkilatlara minnətdarlığımızı çatdırasınız.

*Ələsgər MƏMMƏDOV,*
*Goranboy rayonunun Kəhrizli kənd sakini*

● Tarixin yadigarları







*Ötən əsrin 50-ci illərinədək istifadə olunan, yerli sakinlər arasında "Qüllə" kimi tanınan bu su qüllələri paytaxtın içməli su ilə təmin olunmasında mühüm rol oynayıb. Sakinlər bu qüllənin içərisində oturan susatanlardan su alırmışlar. XIX əsrin sonlarında Bakıya Şollar su kəmərinin çəkilməsi ilə əlaqədar şəhərin müxtəlif məhəllələrində tikilmiş həmin tarixi qüllələr fəaliyyətini dayandırsa da, təmir edilərək şəhərin gözəlliyinə gözəllik qatır.*

*Foto İlham BABAYEVİNDİR*

● GİLEY

## Təqaüd almaqda əziyyət çəkirik

**Uzun illər təsərrüfat işində çalışmışam. Hazırda təqaüddəyəm. Kəndimizdə bankomatın olmaması ucbatından əziyyət çəkirik.**



Qeyd edim ki, Əlibəyli rayonun iri kəndlərindəndir. Burada təqaüdçülər də çoxdur. Hər ay pensiyamızı almaq üçün rayon mərkəzinə gedib növbəyə dayanmalı oluruq. Bəzi hallarda növbəmiz çatanda görürük ki, bankomatda pul qurtarıb. Məcbur olub kəndə qayıdır, səhəri gün yenidən rayon mərkəzinə getməli oluruq və bu da vaxt itkisi və əziyyətlə yanaşı, həmçinin xərcdir.

Hörmətli redaksiya! Kəndimizin pensiyaçıları adından xahiş edirəm ki, bizim Əlibəylidə bankomat quraşdırılması üçün səsimizi əlaqədar təşkilata çatdırasınız.

*Kamal HƏSƏNOV,*
*Tovuz rayonunun Əlibəyli kənd sakini*

● RAZILIQ

## Səsimiz eşidildi, problem həll olundu

**Sumqayıtın 3-cü mikrorayonu şəhərin mərkəzində yerləşir. Mikrorayon ərazisində 4 təhsil müəssisəsi fəaliyyət göstərir. Məktəblərin hamısı yanaşıdır. Odur ki, səhər dərslər başlayanda və günorta sona çatanda bu ərazidə böyük qələbəlik olurdu.**



Şagirdlər və onları götürməyə gələn valideynlər bir yandan, avtomobillər də digər tərəfdən - aləm dəyirdi bir-birinə. Belə vəziyyətdə yolu keçmək çox təhlükəli olurdu.

Biz valideynlər və məktəbin müəllimləri əlaqədar təşkilatlara müraciət etməyi qərarlaşdırdıq. Yaxınlıqda yerləşən tibb müəssisələrinin əməkdaşları da bizi dəstəklədilər. Çox çəkmədi, mütəxəssislər gəlib əraziyə baxış keçirdilər və qərara alındı ki, həmin ərazidə müasir tələblərə cavab verən işıqfor quraşdırılsın, küçəyə hərəkəti nizamlayan xətlər çəkilsin.

Elə də etdilər. Bununla da illərlə sürən problem aradan qaldırıldı. İndi məktəblərin ətrafında piyadaların və maşınların hərəkəti üçün normal şərait var. Piyadalar üçün xüsusi zolaq da çəkilib. Sözümüzü eşidən və bizi illərin çətinliyindən qurtaranlara minnətdarlığımızı bildiririk.

*Gülafət SƏLİMOVA,*
*Nəcibə PAŞAYEVA,*
*Sumqayıt şəhər sakinləri*

● XAHİŞ

## Beşbarmaq ərazisində ödəniş terminallarının sayının artırılmasına ehtiyac var

**Siyəzən şimal bölgəsinin nisbətən yeni rayonlarındandır. İqtisadi inkişafı ilə seçilən Siyəzən həm də Bakı-Rostov magistral yolunun üstündə yerləşdiyindən buradan hər gün minlərlə maşın keçir.**



Beşbarmaq ziyarətgahı kimi tanınan, əslində isə əvvəllər kiçik, hazırda isə böyük bazarı xatırladan bu ərazidə dayanmayan maşın az olur. Demək olar ki, günün bütün saatlarında burada saysız insan və avtomobillə qarşılaşmaq mümkündür. Buna baxmayaraq, ərazidə cəmi bir-iki ödəniş terminalı quraşdırılıb. Onlar da sahibkarlara məxsus dükanların içində olduğu üçün obyekt bağlı olanda qalırsan belə. Doğrudanmı, bu boyda ərazidə, həmişə qələbəlik olan yerdə ödəniş terminallarının sayını artırmaq mümkün deyil?!

*İsmayıl MURADZADƏ,*
*Siyəzən rayonunun sakini*

● NARAZILIQ

## Kənd yolu olanda nə olar?!

**Kürdəmir rayonunun Çərtəyəz kəndində yollar bərbad vəziyyətdədir. Xüsusən yağış, qar yağdıqda yollar daha dözülməz vəziyyətə düşür.**



Uşaqlar məktəbə ayaqlarına sellofan torba geyinib gedirlər. Yaşlı insanlar, qadınlar, uşaqlar kimlərinsə köməyi ilə bu yollardan keçmək məcburiyyətində qalırlar.

Kənd sakinləri tərəfindən dəfələrlə aidiyyəti qurumlara müraciətlər olunsa da, heç bir tədbir görülmür. İndi sakinləri bir sual düşündürür: "Görəsən, bu dözülməz hal nə vaxt aradan qaldırılacaq?"

*Elton BABAŞOV,*
*Kürdəmir rayonunun Çərtəyəz kənd sakini*

● PROBLEM

## Kənddən zibil daşınmamalıdır?

**Aşağı Quşçu kəndi Tovuzun böyük yaşayış məntəqələrindəndir. Hazırda kənddə 10 min nəfərə yaxın əhali yaşayır.**



Çox qədim tarixə malik olan kənddə son illər bir sıra infrastruktur layihələri həyata keçirilmişdir ki, bu da əhalinin yaşayış tərzinə müsbət təsir göstərmişdir. Kəndə gedən yola asfalt salınmış, məktəb binası əsaslı təmir edilmişdir.

Ancaq təəssüflər olsun ki, məişət tullantıları üçün konteynerlərin olmaması ucbatından kənddə zibil əlindən tərpənmək olmur. Xüsusən yay aylarında daha dözülməz olur. Vəziyyətlə bağlı şikayət edəndə də deyirlər ki, günah əhalinin özündədir. Bəs biz nə edək, zibilimizi hara ataq? Yandırsaq da, deyəcəklər ki, havanı korlayırsınız.

Hörmətli redaksiya! Xahiş edirik, bu işdə bizə kömək göstərəsiniz. Kənd olanda nə olar, kəndin zibili daşınmamalıdır?

*İman MUSAYEV,*
*Tovuz rayonunun Aşağı Quşçu kənd sakini*

## Azercell abunəçilərinin nəzərinə!

***21.12.2024-cü il tarixli "Azərbaycan" qəzetində dərc edilmiş elan aşağıdakı kimi oxunmalıdır:***

"Azercell Telekom" MMC tərəfindən təqdim olunan xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsi, müştərilərə təklif olunan xidmət və tariflərin optimallaşdırılması, abunəçilərə daha rahat istifadə imkanının təmin edilməsi məqsədilə 25.02.2025-ci il tarixdən etibarən aşağıdakı şərtlər tətbiq ediləcək:

- Fakturasız (SimSim) xətt sisteminə aid nömrələr üçün nəzərdə tutulmuş ödəniş (danışıq) kartlarının nominalına uyğun olaraq müəyyən edilən kartın istifadə müddəti + 90 gün təyin edilir. Beləliklə də, abunəçi bu müddət ərzində yeni ödəmə kartı yükləyib istifadə imkanını yeni müddətə artırmaqla, eyni zamanda həmin yeni müddət bitənədək həm daha əvvəl yüklənmiş və istifadə edilməmiş məbləğlərdən, həm də yeni yüklədiyi ödəmə kartının məbləğindən istifadə imkanına malik olacaq.
- Fakturasız (SimSim) xətt sisteminə aid "Azercellim", "Bölgə", "GəncSim", "Hər Yerə" və "Bizimkilər" tarif paketlərində 2 AZN (ƏDV daxil) aylıq (otuz təqvim günü) abunə haqqı təyin olunacaq. Aylıq abunə haqqı müqabilində abunəçiyə otuz günlük istifadə müddətinin sonunadək 25 şəbəkədaxili dəqiqə və 250 MB həcmli internetdən istifadə imkanı təqdim olunacaq. İstifadə edilməmiş bonus dəqiqələri və internet həcmi 30 günlük istifadə müddətinin sonunda silinir və növbəti dövrün balansına keçirilmir. Növbəti aylıq abunə haqqı istifadə müddətinin sonunda avtomatik hesablanaraq balansdakı vəsaitdən çıxılacaq. Nömrədə mövcud olan tarif paketi başqası ilə əvəz edilənədək nömrənin balansında kifayət qədər vəsait olduqda müvafiq qaydaya uyğun olaraq aylıq abunə haqqı avtomatik hesablanıb çıxılmaq ilə tarif paketlərindən istifadə imkanı təqdim ediləcək. Nömrənin balansında aylıq abunə haqqı məbləğinin çıxılması üçün lazımi qədər vəsait olmadıqda, həmçinin abunə haqqı müqabilində təqdim edilən istifadə imkanı bitdikdə, müvafiq tarif paketinin şərtlərinə uyğun olaraq xidmətlərdən istifadə imkanı təmin ediləcək.
- Fakturasız (SimSim) xətt sisteminə aid nömrələrdə mövcud olan digər tariflərdən "Azercellim", "Bölgə", "GəncSim" tarif paketlərinə keçidə görə 4 AZN xidmət haqqı tətbiq ediləcək.
- Fakturasız (SimSim) xətt və fakturalı xətt sisteminə aid nömrənin xəttinin 6 (altı) aydan çox olmayan müddətə ikitərəfli bağlanmasına görə 20 AZN xidmət haqqı tətbiq ediləcək.

**Qeyd:** Abunəçilər göstərilən dəyişikliklər, tarif və internet paketlərinin şərtləri, sifarişi, başqası ilə əvəzetmə və imtina qaydası barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatları rəsmi internet səhifəmizdən (**www.azercell.com**), həmçinin Müştəri Xidmətlərinə (MX ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.



## OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2025-ci il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**


AZƏRBAYCAN
İlham Əliyev Rəcəb Tayyib Ərdoğana başsağlığı verib
Azərbaycana qlobal maraq hər zaman böyükdür
"Zəngəzur dəhlizi TDT və D-8-ə üzv dövlətlər ilə əlaqələrin inkişafına strateji töhfə verəcək"
Azərbaycanın etibarlı tərəfdaş olduğu Davosda da etiraf edildi
Avropa İttifaqı "Binokl diplomatiyası"nı hərbiləşdirir
Azərbaycan kolonializmə qarşı mübarizədə dünyada birlik yaranmasını istəyir

### Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# İrəvan Qərbin təzyiqindən qurtula bilmir

**Düşdüyü ağır sosial-iqtisadi böhrandan hələ də xilas ola bilməyən Ermənistanda siyasi durum getdikcə daha gərgin xarakter almağa başlayır. Mövcud hakimiyyətə qarşı etiraz aksiyalarının çoxalması bunun ən real təsdiqidir.**



Etiraza çıxanlar hakimiyyətin siyasətinin yanlış olduğunu və ölkənin sürətlə uçuruma doğru yuvarlandığını bildirir və bu səbəbdən Paşinyan hakimiyyətinin heç də uzun olmayacağını bəyan edirlər.

Yaranmış durumdan istifadə etməyə çalışan müxalifət Paşinyan iqtidarına qarşı təzyiqləri artıracaqlarını bildirib. Xüsusilə Rusiyaya qarşı çıxaraq Qərbin verdiyi vədlərə güvəndiyini qeyd edən müxalifət Paşinyan hakimiyyətinin nümayiş etdirdiyi xarici siyasətlə konkret seçim etdiyini bildirir.

"4rd.am" nəşri yazıb ki, hakim Vətəndaş Müqaviləsi Partiyasında baş nazir Nikol Paşinyanın anti-Rusiya siyasəti ilə bağlı dərin, lakin səssiz fikir ayrılığı var, bu da siyasi təşkilatda parçalanmaya yol aça bilər. Bildirilib ki, partiya üzvləri bir-biri ilə söhbətlərində Paşinyanı və onun anti-Rusiya siyasətini tənqid edirlər, amma bu fikirləri qətiyyən ucadan səsləndirmirlər. Məlumata görə, Nikol Paşinyan Vətəndaş Müqaviləsi Partiyasının son iclasında üzvlərə fəal şəkildə anti-Rusiya arqumentini irəli sürməyi və keçmiş idarəçilərin Rusiyanın köməyi ilə hakimiyyətə qayıtmaq istəyini ictimaiyyətə bildirməyi tapşırıb.

Qəzetdə qeyd olunub ki, anti-Rusiya əhvali-ruhiyyəsinin ardıcıl olaraq dərinləşməsi partiya içərisində parçalanmaya səbəb ola bilər, çünki siyasi təşkilatın üzvlərinin özləri bu istiqamətdə həyəcan təbili çalırlar.

Hakim partiyadan olan deputat Xaçatur Sukiasyan deyib ki, Rusiya-Ermənistan münasibətlərində gərginlik nə vaxtsa artıb, indi isə vəziyyəti həll etmək vaxtıdır. Onun fikrincə, Ermənistanın Avrasiya birliyindəki tərəfdaşları problemi çox böyütməməlidirlər, çünki gələcəkdə onlar da Avropa bazarına çıxmaq istəyəcəklər. Sukiasyanın bildirdiyinə görə, həm AB, həm də AİS, əslində, iqtisadi bazarlardır və dünyada hamı belə bazarlar uğrunda mübarizə aparır.

Erməni deputatın sözlərinə görə, indi dünyada üç mühüm amil fəaliyyət göstərəcək: birincisi, karbohidrogen ehtiyatları, ikincisi, logistik imkanlar, üçüncüsü, texnologiyaya yaxınlıq.

Erməni deputat Moskvanın Ermənistanın AB-yə inteqrasiyası prosesinə sərt reaksiyasını və "İrəvanı batmaqda olan Titanik"ə bənzətməsini emosional adlandırıb: "Əgər münasibətlər korlanarsa, təkcə Ermənistan deyil, Rusiya da itirəcək. Rusiya tərəfdən sərt bəyanatlar gəlməsə, daha yaxşı olar".

"Past" nəşri isə yazıb ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrov erməni həmkarı ilə görüşündə Moskva ilə İrəvan arasında əlaqənin kəsilməsinin aradan qaldırıldığını elan edərkən, Ararat Mirzoyan bəyan edib ki, hakim Vətəndaş Müqaviləsi Partiyasının parlamentdə Ermənistanın Avropa İttifaqına daxil olması prosesinin başlanmasına dair qanun layihəsinin lehinə səs verəcəyi gözlənilir.

Nəşrə görə, görünən odur ki, rəsmi İrəvan daha uzun müddət Qərbin təzyiqindən qurtula bilməyəcək: "Bu da bir məsələdir ki, bunu etmək istəyir, yoxsa yox? Amma Moskvada Rusiya xarici işlər nazirinin iştirakı ilə Rusiya tərəfi "Avropa referendumu"na istinadı "moveton" kimi qiymətləndirə bilər. Ola bilsin ki, Mirzoyan Moskvadan Brüsselə və Vaşinqtona onlara sadiqliyini inandırmaq üçün Rusiyaya gedib. Xarici siyasət vektorunu dəyişən hökumətdən hər şeyi gözləmək olar".

İndi Ermənistanda belə hesab olunur ki, mövcud problemlərin meydana gəlməsi və dərinləşməsində Paşinyan iqtidarının yarıtmaz siyasəti əsas rol oynayır. Bu isə o deməkdir ki, İrəvanı qarşıdakı dövr ərzində hələ də ağır günlər gözləyir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

struktur idarələri və gəmiləri üçün müxtəlif növ əlvan metalların satın alınması məqsədilə

**müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 yanvar 2025-ci il saat 17:00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küçəsi, 2, AZ1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


# Hava əsasən yağmursuz olacaq

**Yanvarın 25-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.**



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, gecə və axşam bəzi yerlərdə havanın az çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 4-6° isti, gündüz 7-10° isti olacaq. Atmosfer təzyiqi 767 mm civə sütunundan 770 mm civə sütununa yüksələcək. Nisbi rütubət 70-80 faiz olacaq.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz olacaq. Lakin gecə bəzi dağlıq ərazilərdə qısamüddətli yağıntılı olacağı, az qar yağacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 3°-dək isti, gündüz 8-13° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2-7° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Hicran Şərifova əzizi

**ELDAR ŞƏRİFOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Aqiyə Naxçıvanlıya qardaşı

**MAHİR NAXÇIVANSKİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Cahangir Əsgərova həyat yoldaşı

**ZƏRİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı, İntizam komissiyasının sədri Eldar İbrahimov Hüseyn Mövsümov və Aqiyə Naxçıvanlıya əzizləri

**MAHİR NAXÇIVANSKİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi "Azərsun Holdinq"in prezidenti

**ABDOLBARİ GOZALIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3335**
**Sifariş 137**

**Qiyməti 60 qəpik**